

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929 -cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

31 oktyabr 2022-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

"Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətinin dahi qurucusudur" adlı tədbir keçirilib ➔Səh.2

Azərbaycan şərqşünaslığının görkəmli siması Aida İmanquliyevanın doğum günüdür ➔Səh.4

BDU-nun beynəlxalq əlaqələri genişlənir ➔Səh.5

BDU ilə İsrailin Yerusəlim İbrani Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb ➔Səh.7

İltəriş Kutluq Xaqana aid yeni yazılı daş kitabə və abidə kompleksinin təqdimatı olub ➔Səh.8

"Biologiyada elmi nailiyyətlər və çağırışlar" mövzusunda Beynəlxalq konfrans keçirilib ➔Səh.9

BDU əməkdaşları Bosniya və Herseqovinada genom redaktəsi üzrə beynəlxalq təlimdə iştirak ediblər ➔Səh.17



**BDU, MEDİA Agentliyi və Audiovizual Şura arasında əməkdaşlıq memorandumu imzalanıb**

➔Səh.2



**BDU Türkiyənin Bilkent Universiteti ilə akademik əməkdaşlıq protokolu imzalayıb**

➔Səh.3



**Akkreditasiya və keyfiyyət təminatı üzrə beynəlxalq ekspert Achim Hopbachla görüş**

➔Səh.3



**"Biologiyada elmi nailiyyətlər və çağırışlar" mövzusunda Beynəlxalq konfrans keçirilib**

➔Səh.9



**Karyera sərgisi keçirilib**

➔Səh.10



## 18 Oktyabr - Müstəqilliyin Bərpası Günüdür

***1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazandı, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etdi.***

Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşib, ağır sınaqlardan keçib. Daxili çəkişmələr, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirib, onun gələcək taleyini sual altına qoyub. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalıb, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşüb. Baş verənlər bir daha göstərib ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir.

Azərbaycan tarixinin bu ağır dönəmində Ulu Öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Yalnız bundan sonra müstəqilliyin yenidən itirilməsi təhlükəsinin qarşısı alındı. Qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olundu, ictimai-siyasi sabitlik, dövlət intizamı təmin edildi, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanıldı. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazandı, qlobal iqtisadi mühitə inteqrasiya proseslərinə qoşularaq gələcək müvəffəqiyyətlərinə yol açan cəsarətli addımlar atdı.

Ölkəmiz bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır.

Uzun illər ərzində Prezident İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutduğu strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün gördüyü fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması - Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi ilə tarixi Zəfərə imza atdı, düşmən tapdağı altında olan torpaqlarımızda üçrəngli bayrağımızı ucaltdı.

Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratdı. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır.

Azərbaycan xalqı artıq iki ildir ki, müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayır.

Azadlıq, müstəqil dövlət halında yaşamaq xalqımız üçün ən böyük xoşbəxtlikdir, misilsiz nemətdir. Dövləti olmayan xalq məhvə məhkumdur. Şəhidlərimizin qanları bahasına qazandığımız və möhkəmləndirdiyimiz müstəqilliyimiz əbədi olsun! Üçrəngli bayrağımız həmişə ucalarda dalğalansın!

## Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində "Beynəlxalq Ayın Müşahidə Gecəsi" keçirilib

➔Səh.23

# BDU, MEDİA Agentliyi və Audiovizual Şura arasında əməkdaşlıq memorandumu imzalanıb

***Oktyabrın 19-da BDU, Medianın İnkişafı Agentliyi və Audiovizual Şura arasında əməkdaşlıq memorandumu imzalanıb.***

Memorandumun imzalanmasında məqsəd qarşılıqlı fəaliyyət istiqamətləri üzrə əməkdaşlığın gücləndirilməsi və inkişaf etdirilməsi, universitet tələbələri üçün praktiki və nəzəri təlimlərin təşkilinin reallaşdırılması, media sahəsində müasir çağırışlara cavab verən kadrların hazırlanmasına dəstək göstərilməsidir.

Sənədi BDU-nun rektoru Elçin Babayev, Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Audiovizual Şuranın sədri İsmət Səttarov imzalayıblar.



Memoranduma əsasən, universitetin professor-müəllim heyəti və təhsilalanları üçün elmi-praktik bilik və bacarıqların inkişafı, medianın funksiyaları və müasir inkişaf meyilləri sahələrində birgə layihələrin təşkili, yüksək ixtisaslı jurnalist kadrların hazırlığı istiqamətində əməkdaşlıq edilməsi razılaşdırılıb.

Memorandum çərçivəsində MEDİA Agentliyi və Audiovizual Şura tərəfindən BDU-nun müxtəlif səviyyələrdə jurnalistika ixtisası üzrə təhsilalanlarına təcrübi tələblərə uyğun buraxılış işi və dissertasiya mövzularının müəyyənləşdirilməsinə dəstəyin verilməsi, universitet məzunlarının və xüsusi istedadlı təhsilalanların müxtəlif media subyektlərində işə cəlb edilməsinə köməklik göstərilməsi, media sahəsində müasir texnologiyaların və elmi inkişafın istifadəsində qarşılıqlı əlaqələndirmənin həyata keçirilməsi nəzərdə tutulub.

# Gürcüstanın təhsil və elm naziri: "Bakı Dövlət Universitetində keçirilən gürcü dili proqramından çox təsirləndim"

***Azərbaycana səfər edən Gürcüstanın təhsil və elm naziri Mixeil Çxenkeli "Təhsil TV"nin "Təməl" proqramına müsahibə verib. Gürcü nazir müsahibəsində BDU-ya səfəri ilə bağlı təəssüratlarını da bölüşüb:***



"Bakı Dövlət Universitetinə gözəl səfərim oldu, orda gürcü dili proqramında oxuyan tələbələrlə tanış oldum və onların gürcü dilini bilməsi məni çox heyran etdi. Şübhəsiz ki, biz daha çox şey edə bilərik. Ona görə də bu proqramı təkmilləşdirməyə töhfə verəcək bəzi gürcü professorları göndərəcəyik. Biz öz tərəfimizdən ən yaxşı mütəxəssisləri seçəcəyik. Eyni zamanda Tbilisi Dövlət Universitetində Azərbaycan dili proqramının keyfiyyətini artırmaq üçün Azərbaycandan professorlar gələcək.

Digər mühüm xəbər ondan ibarətdir ki, biz hazırda Tbilisi Dövlət Universitetində Heydər Əliyev adına auditoriya və kitabxanada hazırlığı başa çatdırırıq. Auditoriya və kitabxananın rəsmi açılışı gələn il - Heydər Əliyevin 100 illik yubileyində baş verəcək. Biz də qərara gəldik ki, Heydər Əliyevin verdiyi töhfələr, həyatı və fəaliyyəti ilə bağlı bir sıra tədqiqat seminarlarına start verək. Həmçinin kitab təqdimatları olacaq. Tbilisi Dövlət Universitetində yaratmağı planlaşdırdığımız Azərbaycan Mədəniyyəti Mərkəzi elmi müzakirələr, Azərbaycan dili, Azərbaycan mədəniyyəti, tarixi ilə bağlı akademik proqramlara xidmət edəcək. Hazırda BDU-da fəaliyyət göstərən gürcü dili proqramı ətrafına biz daha çox ölçülər əlavə etmək istərdik ki, BDU-da gürcü ədəbiyyatı, mədəniyyəti, gürcü tarixi dərsləri təmsil olunsun".

# BDU-nun rektoru Elçin Babayev Azərbaycanın Moldovadakı səfiri ilə görüşüb

***Oktyabrın 7-də BDU-nun rektoru Elçin Babayev Azərbaycanın Moldovadakı fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanovla görüşüb.***

Rektor Elçin Babayev qonağa BDU-da tədris və elmi fəaliyyət, son illər həyata keçirilən islahatlar prosesi barədə ətraflı məlumat verib. Qeyd edib ki, BDU beynəlxalq əlaqələrini günügündən inkişaf etdirir. Müxtəlif ölkələrin qabaqcıl ali təhsil müəssisələri ilə ikili diplom proqramları, əməkdaşlıq müqavilələri imzalanır. Bu baxımdan Moldovanın ali təhsil müəssisələri ilə əlaqələrin qurulması və inkişafı da BDU-nun prioritetləri sırasına daxildir.

Səfir Qüdsi Osmanov isə bu il Azərbaycan-Moldova arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edildiyini və iki ölkə arasında əməkdaşlıq, dostluq münasibətlərinin olduğunu qeyd edib. Səfir bu münasibətləri daha da inkişaf etdirmək üçün elm və təhsil sahələri üzrə əlaqələri də intensivləşdirməyin zəruriliyinə toxunub, Moldova universitetlərinin BDU ilə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə BDU və Moldova universitetləri arasında əməkdaşlığın perspektivlərinə dair müzakirə aparılıb.

# "Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətinin dahi qurucusudur" adlı tədbir keçirilib

## Ümummilli liderin dövlətçilik siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

***Oktyabrın 27-də Kimya və Fizika fakültələrinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətinin dahi qurucusudur" adlı tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən BDU-nun professoru, hüquq üzrə elmlər doktoru Zahid Cəfərov bildirib ki, Ulu öndər Heydər Əliyev dövlət müstəqilliyimizin qorunub saxlanılmasını, ölkəmizin dünya dövlətləri arasında özünəməxsus yer tutmasını təmin edən dahi şəxsiyyətdir. Ümummilli liderin dövlətçilik siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev çıxış edərək əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasətindən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclərə göstərdiyi diqqət-qayğıdan söhbət açıb. Vətən müharibəsində şanlı qələbəmizi təmin edən əsas şərtlərdən birinin gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi olduğu diqqətə çatdırıb.

Millət vəkili Naqif Həmzəyev də Ümummilli liderin həmişə gənclərin himayədarı kimi çıxış etdiyini, onların sağlam düşüncəli, milli və vətənpərvər ruhda yetişməsində misilsiz xidmətlər göstərdiyini vurğulayıb.

Professor Şahlar Əsgərov öz çıxışında dahi liderin xalqımızın milli və dövlətçilik maraqlarının təmin olunmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xidmətlərini xatırladıb. Üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərərək xalqımızı vətəndaş müharibəsindən, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardığını, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olduğunu bildirib. Kimya və Fizika fakültələrinin dekanları Fuad Kərimli və Bəxtiyar Paşayev isə çıxışlarında gənclərə Azərbaycanın ictimai-siyasi həyatında daha aktiv iştirak etməyi, Heydər Əliyev ideyalarına sadiq, bilikli və bacarıqlı vətəndaşlar olmağı tövsiyə ediblər.

# BDU tələbələri üçün "Marketinq" mövzusunda təlim

***Oktyabrın 27-də BDU və "Paşa Həyat Sığorta" ASC arasında imzalanmış əməkdaşlıq memorandumuna uyğun olaraq tələbələr üçün "Marketinq" mövzusunda növbəti təlim keçirilib.***

BDU-nun Karyera və məzunlarla əlaqə sektorunun baş mütəxəssisi İlkin Şərifov tələbələrə əmək bazarının tələblərinə uyğun olaraq keçirilən təlim və seminarların əhəmiyyəti barədə məlumat verib. O, tələbələri sektorun fəaliyyət istiqamətləri ilə tanış edib, marketinqin karyera və əmək münasibətlərində önəmli rola malik olduğunu bildirib.

Şirkətin Marketinq Mərkəzinin rəhbəri Ruslan Ələkbərov isə marketinqin tarixi, mövcud vəziyyəti haqqında iştirakçıları məlumatlandırıb. Əmək bazarında bu sahəyə olan tələbin getdikcə daha da artdığını qeyd edib.

Sonda iştirakçıların mövzu ətrafında çoxsaylı sualları cavablandırılıb.

# BDU Türkiyənin Bilkent Universiteti ilə akademik əməkdaşlıq protokolu imzalayıb

***Oktyabrın 4-də BDU-da Türkiyənin İhsan Doğramacı adına Bilkent Universitetinin rektoru Kürşat Aydoğanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.***

Qonaqları salamlayan rektor Elçin Babayev qeyd edib ki, BDU-nun beynəlxalq əməkdaşlıq kontekstində qardaş Türkiyənin ali təhsil müəssisələri ilə əlaqələrin qurulması və möhkəmləndirilməsi əsas prioritetlərdən birini təşkil edir. Elçin Babayev Bilkent Universitetinin bu sahədə öncül yerlərdən birini tutduğunu vurğulayıb. O, Ulu öndər Heydər Əliyevin Bilkent Universitetinin qurucusu, türk dünyasının böyük oğlu, professor İhsan Doğramacı ilə dərin dostluq əlaqəsinə diqqət çəkib, İhsan Doğramacının BDU-nun "Fəxri doktoru" olduğunu bildirib. Elçin Babayev iki universitet arasında qarşılıqlı əlaqələrin xalqlarımızın rifahı və inkişafına xidmət edəcəyinə əmin olduğunu qeyd edib.

Bilkent Universitetinin rektoru Kürşat Aydoğan da çıxışında iki universitet arasında əməkdaşlığın gücləndirilməsinin faydalı olacağını diqqətə çatdırıb.

Daha sonra BDU ilə Bilkent Universiteti arasında akademik əməkdaşlıq protokolu imzalanıb. Protokolda təhsil və elm sahələri üzrə birgə tədqiqatların aparılması, akademik heyətin, tələbələrin, təhsil, təlim və tədqiqat məqsədləri üçün müxtəlif kitabların, habelə, dövri və digər nəşrlərin mübadiləsi nəzərdə tutulur.




# Qazaxıstanın Azərbaycandakı səfiri BDU-da



***Oktyabrın 6-da BDU-nun rektoru Elçin Babayev Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov ilə görüşüb.***

Rektor Elçin Babayev BDU-nun beynəlxalq əlaqələrində türkdillin dövlətlərin ali məktəbləri ilə əməkdaşlığa xüsusi önəm verildiyini vurğulayıb. Qeyd edib ki, hazırda BDU ilə Qazaxıstanın iki universiteti arasında ikili diplom proqramı mövcuddur. Daha iki universitetlə ikili diplom proqramı üzərində isə işlər tamamlanmaq üzrədir. BDU-nun əcnəbi tələbələri arasında Qazaxıstandan olan tələbələr üstünlük təşkil edir. Hazırda BDU-da Abay Kunanbayev adına Qazax Mərkəzi fəaliyyətini uğurla davam etdirir.

Səfir Serjan Abdıkarimov BDU-da Monqolustanın Nomqon vadisində tapılan ikinci Göytürk dövlətinin qurucusu İltəriş Kutluq Xaqana (VII əsr) aid yeni yazılı daş kitabə və abidə kompleksinin təqdimatına görə rektor Elçin Babayevə təşəkkürünü bildirib. Qeyd edib ki, bu tapıntı bütün türk dövlətləri üçün böyük hadisədir. Səfir türk xalqlarının qədim və ortaq tarixinin öyrənilməsində Qazaxıstan dövlətinin də maraqlı olduğunu, bu məsələdə elm adamlarının üzərinə böyük vəzifələr düşdüyünü vurğulayıb. O, BDU ilə Qazaxıstanın ali məktəbləri arasında əlaqələrin inkişaf səviyyəsindən məmnunluğunu diqqətə çatdırıb.

Görüşdə BDU ilə Qazaxıstanın ali məktəbləri arasında əməkdaşlığın daha da dərinləşməsi, maraq doğuran digər məsələlərlə bağlı müzakirələr aparılıb.

# Akkreditasiya və keyfiyyət təminatı üzrə beynəlxalq ekspert Achim Hopbachla görüş



***Oktyabrın 6-da BDU-nun akkreditasiya və keyfiyyət təminatı üzrə beynəlxalq ekspert Achim Hopbach ilə görüş olub.***

Görüşdə keyfiyyətin təminatı sahəsində Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən layihənin koordinatoru İlkin Əsgərov, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) Akkreditasiya və lisenziya şöbəsinin müdiri Elmar Mustafayev də iştirak edib.

Qonaqları salamlayan BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, Azərbaycan universitetlərinin Aİ-nin layihəsi əsasında meyarlar üzrə beynəlxalq akkreditasiyası onlara güclü və zəif tərəflərini müəyyənləşdirməyə və strateji inkişaf proqramı əsasında inkişaf etmələrinə imkan verəcək. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Tədqiqat Universiteti" statusu üzrə müəyyənləşdirdiyi meyarlara uyğun olaraq BDU-da artıq 6 ixtisaslaşma beynəlxalq akkreditasiyadan keçib, riyaziyyat istiqamətində daha bir neçə ixtisaslaşma üzrə özünütəhlil hesabatları hazırlanıb, təhsil proqramları yenilənib və akkreditasiyanın keçirilməsi üçün işlər yekunlaşmaq üzrədir. Fundamental, tətbiqi və eksperimental elmi tədqiqatların aparılması üçün BDU-nun strukturu yenidən formalaşdırılıb, struktur bölmələrinin fəaliyyəti optimallaşdırılıb, prioritet istiqamətlər üzrə sənaye yönümlü yeni elmi-tədqiqat laboratoriyaları və mərkəzlər yaradılıb. Elektron kitabxana yenilənir. BDU-nun "Web of Scince" bazasına və "InCites" qiymətləndirmə sisteminə açıq çıxışı mövcuddur, BDU daxilindən EBSCO, IOP, BIONE, OED, "Cambridge University Press Journal", "Springer", "Springer Nature" və s. nəşriyyatlardan elmi məqalə və ya kitabların elektron variantlarını əldə etmək mümkündür. Elmi tədqiqatların aparılması üçün elmtutumlu avadanlıqdan kollektiv istifadənin təmin edilməsi məqsədilə BDU-nun nəzdində Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi yaradılıb və strukturu formalaşdırılıb. Mərkəzdə elm-təhsil-innovasiya triadası çərçivəsində elmi-tədqiqatlar aparılır.

Beynəlxalq ekspert Achim Hopbach isə qeyd edib ki, təhsildə keyfiyyətin təmin olunması üçün universitetlərlə görüşlər, onların fikir və təkliflərinin dinlənilməsi akkreditasiya üzrə meyarların daha təkmil formalaşdırılmasına, akkreditasiya prosesinin şəffaf və operativ keçirilməsinə imkan verəcək.

Görüşdə universitetlərin akkreditasiyadan keçməsi üçün ümumi və xüsusi meyarlar üzrə müzakirələr aparılıb. Qeyd olunub ki, gələcəkdə akkreditasiya prosesində profilindən asılı olaraq universitetlərə xüsusi yanaşmaların tətbiq edilməsi daha məqsədəmüvafiqdir.

# Özbəkistanın Diplomatiya Universitetinin rektoru BDU-da olub

***Oktyabrın 7-də BDU-nun rektoru Elçin Babayev Özbəkistanın Diplomatiya Universitetinin rektoru Elyor Mahmudov ilə görüşüb.***

Rektor qonağa Azərbaycanın ilk və ən böyük universiteti olan BDU-nun tarixi, fəaliyyəti, strukturu barədə məlumat verib. Qeyd edib ki, 25 mindən artıq tələbəsi olan BDU-da elmin bütün istiqamətləri üzrə kadr hazırlığı aparılır. Rektor xalqlarımız arasında qədim tarixə malik dostluq və qardaşlıq əlaqələrinin bu gün dövlətlərimiz arasında uğurla davam etdiyini, BDU-nun beynəlxalq əlaqələrində türkdilli dövlətlərin ali məktəbləri ilə münasibətlərin önəmli yer tutduğunu, son illər Özbəkistanın nüfuzlu elm və təhsil müəssisələri ilə sıx əlaqələr yaradıldığını və inkişaf etdiyini vurğulayıb. BDU-da olmaqdan məmnunluğunu dilə gətirən Özbəkistanın Diplomatiya Universitetinin rektoru Elyor Mahmudov isə elm və təhsil sahəsində ortaq layihələrin hər iki universitetin inkişafına fayda verəcəyinə əminliyini bildirib. Rektorlar daha sonra iki universitet arasında əməkdaşlığın perspektivlərini müzakirə ediblər.



# Azərbaycan şərqşünaslığının görkəmli siması Aida İmanquliyevanın doğum günüdür

***Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhərindəki 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən şöbə müdiri, elmi işlər üzrə direktor müavini və İnstitutun direktoru vəzifəsinədək yüksəlib.***



Ömrünü Şərq mədəniyyətini və məhcər ədəbiyyatını öyrənməyə sərf edən Aida xanım İmanquliyeva müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, öz fundamental araşdırmaları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, dünya şərqşünaslığını da zənginləşdirib və inkişaf etdirib. 1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç fundamental monoqrafiyanın - "Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri" və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva, həmçinin Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasına da böyük diqqət yetirirdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Bakı Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

*10 oktyabr görkəmli şərqşünas alim, Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın doğum günüdür.*

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, bütövlükdə müasir Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır.

Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida xanımın ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən sanballı tədqiqatçısı olduğunu keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları etiraf edirlər.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Yazıçılar Birliyinin üzvü olub.

Bütün elmi fəaliyyətini Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcılıq üslubunun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapmasının tədqiqinə həsr edən Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni səhifə və yeni bir yol açıb. Onun bu gün də aktuallığını qoruyub saxlayan əsərləri, monoqrafiyaları ərəb ədəbiyyatını araşdıran gənc alimlər üçün əsas istinad qaynağıdır. Aida İmanquliyevanın işıqlı xatirəsi ürəklərdə daim yaşayacaq!

# Hüquq fakültəsinin tələbələri üçün töhfə: yeni "Kriminalistika" dərsliyi çap olunub

***Hüquq fakültəsinin Kriminalistika və məhkəmə ekspertizası kafedrasının və Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşları tərəfindən hazırlanmış yeni "Kriminalistika" dərsliyi çapdan çıxıb.***




Vətən müharibəsində qəhrəman Ordumuzun şanlı qələbəsinə ithaf olunmuş bu dərslik professor Kamilə Sarıcalinskayanın rəhbərliyi altında 1999-cu ildə Azərbaycan dilində ilk dəfə nəşr olunmuş "Kriminalistika" dərsliyinin yenidən işlənmiş, zəruri əlavə və dəyişikliklər edilmiş ikinci nəşridir.

Dərslik kriminalistikanın qarşısında duran ən mühüm elmi və praktiki problemləri həll etmək üçün bilik, bacarıq və vərdişlərə yiyələnmək məqsədi daşıyır, Azərbaycan Respublikasında ali hüquq təhsilinin müasir səviyyəsinə və təhsil standartlarına uyğundur. O, kriminalistika elminin ən aktual və mühüm məsələlərini əhatə edir. Dərslikdə kriminalistika elminin yeni nailiyyətləri, eləcə də ölkə qanunvericiliyində baş vermiş ən son dəyişikliklər nəzərə alınıb.

Müəlliflər kriminalistikanın hüquq təhsilində əhəmiyyətini göstərməyə, tələbələrdə bu fənni öyrənmək üçün maraq oyatmağa çalışıblar. Dərslikdə kriminalistikanın elm sahəsi və tədris fənni kimi müasir vəziyyəti ilə yanaşı, müasir inkişaf qanunauyğunluqları, əsas təmayülləri, mövcud texniki, taktiki və metodiki imkanları ətraflı işıqlandırılıb. Həm hüquqşünas tələbələrin, həm də təcrübə işçilərinin tələbatı nəzərə alınaraq dərslikdə şərh edilmiş mövzular uyğun sxem və planlarla, illüstrasiya materialları ilə təmin olunub.

Dərsliyin redaktoru Kriminalistika və məhkəmə ekspertizası kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru İpək Abbasovadır. Dərsliyə Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyev, BDU-nun Cinayət prosesi kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor Firuzə Abbasova və Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Kriminalistika kafedrası rəy verib.

Dərslik Hüquq fakültələrinin tələbələri, Polis, Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti və Gömrük akademiyalarının müdavimləri, müəllimlər, tədqiqatçılar, hakimlər, prokurorlar, vəkillər, notariuslar, hüquq-mühafizə orqanları və məhkəmə ekspertizası idarələrinin əməkdaşları, eləcə də özəl ekspertlər üçün nəzərdə tutulub. Ümumi həcmi 996 səhifə olan dərslik nəinki yüksəkixtisaslı hüquq kadrlarının hazırlanmasında, cinayətkarlıqla mübarizənin təkmilləşdirilməsi və gücləndirilməsi sahəsində, həmçinin cinayət, mülki və inzibati işlər üzrə xüsusi biliklərdən istifadənin, kriminalistik taktiki üsul və tövsiyələrin tətbiqinin səmərəliliyinin artırılmasında da mühüm rol oynayacaq.

# "Düzgün peşə seçimi gələcək karyeranın təməlidir"

***Oktyabrın 19-da BDU-da Yasamal Rayon İcra Hakimiyyəti, Yasamal Rayon Gənclər və İdman İdarəsi və Bakı Regional Məşğulluq filialının birgə təşkilatçılığı ilə "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"na uyğun olaraq gənclər arasında ixtisas və peşə seçimi, əmək bazarı, məşğulluq haqqında məlumatlılıq səviyyəsini və peşəkarlığı artırmaq məqsədi ilə "Düzgün peşə seçimi gələcək karyeranın təməlidir" mövzusunda təlim keçirilib.***

Təlimdə rayon ərazisində fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, ordudan tərxis olunmuş, işsiz və işaxtaran gənclər iştirak ediblər.

Çıxışlardan əvvəl Dövlət Məşğulluq Agentliyinin fəaliyyətinə həsr olunmuş tanıtım çarxı nümayiş olunub, iştirakçılara sorğu-anket vərəqələri təqdim edilib.

Tədbirdə çıxış edən Yasamal Rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərov "Gənclərin məşğulluğunun və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi dövlət gənclər siyasətinin əsası kimi" mövzusunda məruzə ilə çıxış edib. İlham Səfərov bildirib ki, gənclərin məşğulluğunun təmin edilməsi, onların sahibkarlıq fəaliyyətinin dəstəklənməsi qarşıda duran başlıca vəzifələrdəndir. Gənclərin məşğulluğunun dəstəklənməsi məqsədilə aidiyyəti dövlət orqanları, qeyri-hökumət təşkilatlarının iştirakı ilə birgə layihələrin həyata keçirilməsi və onların səmərəliliyinin qiymətləndirilməsi xüsusi önəm daşıyır.

Bakı Regional Məşğulluq filialının Təhlil və tərəfdaşlarla iş şöbəsinin müdiri Mehriban Əliyeva "Dövlət Məşğulluq Agentliyinin fəaliyyət istiqamətləri və strategiya", şöbənin aparıcı mütəxəssisi Rəvanə Bəylərzadə "Əmək yarmarkalarının təşkili, gənclərin peşə hazırlığına cəlb edilməsi və gənclərin özünüməşğulluq proqramı", Dövlət Məşğulluq Agentliyinin Karyera planlaması şöbəsinin aparıcı mütəxəssisi Mikayıl Tağıyev "Peşə seçimi üçün vacib şərtlər, peşə seçiminə təsir edən amillər və bunun gələcək karyeraya təsiri" mövzularında çıxışlar ediblər.

Daha sonra mövzu ətrafında diskussiyalar aparılıb, iştirakçıların çoxsaylı sualları cavablandırılıb.

# BDU-nun beynəlxalq əlaqələri genişlənir

## *BDU beynəlxalq reytinqlərdə mövqeyini möhkəmləndirir. Ötən il BDU Azərbaycandan yeganə universitet olaraq "Times Higher Education" beynəlxalq reytinqinə daxil edilib*

***BDU-nun Strateji İnkişaf Planında (2021-2030-cu illər) qarşıya qoyulmuş əsas məqsədlərdən biri ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı, regionda elm-təhsil üçün dünya səviyyəli bir platformaya çevrilməkdir.*** Elm və təhsil sahəsində beynəlmiləlləşmənin xüsusi əhəmiyyət kəsb etdiyi müasir zamanda beynəlxalq əlaqələr universitetlərin inkişafının və beynəlxalq imicinin əsas göstəricilərindən hesab olunur. Bu baxımdan BDU-da beynəlxalq fəaliyyət dairəsinin genişləndirməsi, akademik əməkdaşlıq imkanlarının artırılması, dünyanın tanınmış aparıcı elm və təhsil ocaqları ilə, beynəlxalq assosiasiyalarla əlaqələrin qurulması və beynəlxalq reytinqlərdə iştirakın təmin olunması istiqamətində mütəmadi olaraq işlər görülür.

Son dövrlər BDU ilə Türkiyənin Bilkənt, Ankara, İstanbul, Kafkas və digər universitetləri, İzmir Yüksək Texnologiya İnstitutu, Fransanın Lion-2 Universiteti, Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti, Berlin Texniki Universiteti, Çinin Anhui Universiteti, Çex Respublikasının Cənubi Bohemia Universiteti, Özbəkistanın Daşkənd Dövlət Hüquq Universiteti, Daşkənd Dövlət Şərqşünaslıq Universiteti, Q.V.Plexanov adına Rusiya İqtisad Universiteti, Cənubi Koreyanın Kyunqvoon Universiteti, Qazaxıstanın əl-Farabi adına Qazax Milli Universiteti, Atırau Dövlət Universiteti, Pakistanın Lahor Universiteti, İsrailin Holon Texnologiya İnstitutu, ABŞ-ın Linkoln Universiteti, Portuqaliyanın Tomar Politexnik Universiteti, İsveçrənin Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti, Çilinin Bernardo O'Higgins Universiteti, Belarus Dövlət Universiteti və digər universitetlər arasında əməkdaşlıq sazişləri, bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə ikili diplom proqramına dair müqavilələr imzalanıb. Bu il BDU həmçinin Almaniyanın Berlin Humboldt, Çexiyanın Karlova, Rumıniyanın Babes-Bolyai universitetləri ilə Erasmus mübadilə protokolu imzalayıb. Bütün bunlar BDU-nun dünyanın qabaqcıl elm və təhsil məkanına inteqrasiyasını şərtləndirir və bu prosesi daha da sürətləndirir.

BDU nüfuzlu beynəlxalq təşkilatlarla da əməkdaşlığı özünün proritetlərindən hesab edir və bu istiqamətdə səylərini günbəgün artırır. Bu ilin fevral ayında BDU 17 milyon tələbənin təhsil aldığı, 47 ölkənin 800-dən çox universitetinin birləşdiyi Avropa Universitetləri Assosiasiyasının tamhüquqlu üzvü qəbul edilib və Avropanın qabaqcıl universitetlərini birləşdirən platformaya qoşulub. BDU-nun rektoru Elçin Babayev isə 2022-ci ilin sentyabr ayında Avropa Universitetlər Assosiasiyasının (EUA) nəzdində fəaliyyət göstərən Tədqiqat və İnnovasiya Strategiyası Qrupuna (RISG) üzv qəbul edilib. RISG-də Avropanın Sarbonna Universiteti (Fransa), Leuven Katolik Universiteti (Belçika), Tilburg Universiteti (Niderland), Oslo Universiteti (Norveç), Lodz Universiteti (Polşa) və digər ali təhsil müəssisələrinin rəhbərləri, o cümlədən İsveçrənin Ali Təhsil İnstitutları Assosiasiyasının sədri üzv kimi fəaliyyət göstərirlər. BDU Azərbaycandan RİSG-də təmsil olunan yeganə qurumdur.

Bu il BDU daha bir beynəlxalq quruma - ICESCO-nun nəzdində fəaliyyət göstərən İslam Dünyası Universitetləri Federasiyasına (FUIW) üzv qəbul edilib. FUIW-ə üzvlük BDU-nun akademik və inzibati imkanlarının genişlənməsinə, elmi tədqiqatların inkişafına və təcrübə mübadiləsinin reallaşmasına şərait yaradacaq. Bu sahəyə yönəlmiş proqram və layihələrin həyata keçirilməsi isə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və təşviq edilməsi istiqamətində mühüm rol oynayacaq. 1987-ci ildə Mərakeşin Rabat şəhərində əsası qoyulmuş İslam Dünyası Universitetləri Federasiyasının əsas məqsədi bütün sahələrdə elmi tədqiqatların səviyyəsini yüksəltmək, təhsil, elm, mədəniyyət və texnologiya sahələrində təcrübə mübadiləsini artırmaq, islam ölkələrində elmi və texnoloji inkişafdan faydalanmaq üçün ali təhsilin təkmilləşdirilməsi və inkişafına yardım etməkdir.

2022-ci ildən Universitetdə ICESCO-nun Biotibbi materiallar kafedrası fəaliyyətə başlayıb. Kafedra ICESCO-nun Azərbaycanda ilk ixtisaslaşdırılmış kafedrasıdır. Biotibbi materiallar kafedrasının yaradılmasında məqsəd sənaye və akademik ictimaiyyət arasında əlaqələri, təhsil-elm-sənaye üçlüyünün qarşılıqlı inteqrasiyasını inkişaf etdirmək, tələbə və gənc alimləri biotibbi materialların tətbiqi ilə bağlı tədqiqatlara cəlb etmək, həmçinin bu sahədə beynəlxalq əməkdaşlığı genişləndirməkdir. Kafedrada akademik heyətlə sənayedən olan mütəxəssislərin birgə əməkdaşlığı tibbin müxtəlif sahələri üçün perspektiv sayılan nanomodifikasiya olunmuş materialların laboratoriyadan istehsalata kliniki transferinin məqsədyönlü şəkildə asan həyata keçirilməsinə şərait yaradılacaq. Beynəlxalq fənlərarası şəbəkənin yaradılması yolu ilə nanosistemlərin ilkin dizaynının hazırlanması, effektivliyinin klinikadan əvvəlki sınaqlarının aparılması, farmakokinetika və toksikliyinin müəyyən edilməsinə nail olunacaq. Kafedra biotibbi materiallar üzərində tədqiqat işlərin aparılmasına, ICESCO-ya üzv dövlətlərdən olan tələbə və gənc alimlərin bu araşdırmalara cəlb edilməsinə və müxtəlif ölkələrlə bu sahədə əməkdaşlığın qurulmasına yardım göstərəcək.

Hazırda BDU ölkəmizdə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na uyğun olaraq dünya elminin qabaqcıl elmi və təlim-tədris nailiyyətlərindən istifadə etməklə əmək bazarının tələblərinə uyğun mütəxəssislərin hazırlanması istiqamətində ABŞ, Almaniya, Fransa, İsrail, İsveç, Qazaxıstan və s. kimi ölkələrin qabaqcıl 10 universitet və institutu ilə bakalavriat, magistratura, doktorantura pilləsi üzrə beynəlxalq ikili diplom proqramlarını tətbiq edir.

BDU beynəlxalq reytinqlərdə də mövqeyini də möhkəmləndirir. Ötən il BDU Azərbaycandan yeganə universitet olaraq "Times Higher Education" beynəlxalq reytinqinə daxil edilib.

Hazırda BDU-da dünyanın 34 ölkəsindən 400-dən artıq əcnəbi tələbə təhsil alır.

# BDU VIII Bakı Beynəlxalq Kitab Sərgisində təmsil olunub



***BDU Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən VIII Bakı Beynəlxalq Kitab Sərgisində təmsil olunub.*** Oktyabrın 5-də açılışı olan sərgidə ali məktəblər arasında ən böyük stend BDU-ya məxsus olub. BDU-nun stendində əsasən Universitetin dərslik və dərs vəsaitləri, elmi xəbərlər, konfrans materialları, eləcə də professor-müəllim heyətinin son illərdə Azərbaycan, rus, ingilis və türk dillərində nəşr etdirdiyi kitablar nümayiş olunub.

Stenddə BDU haqqında videoçarxın nümayişi yerli və xarici ziyarətçilər tərəfindən maraqla qarşılanıb. BDU-nun stendi kiçikyaşlı kitabsevərlərin də marağına səbəb olub. Qonaqlara stenddə nümayiş olunan nəşrlər barədə məlumat verilib, BDU-nun loqosu olan çap məhsulları, bloknot, buklet və qeyd vərəqləri hədiyyə olunub.

VIII Bakı Beynəlxalq Kitab Sərgisi oktyabr ayının 9-na qədər davam edib.

# Almaniyanın Justis Leibig Universiteti və Naturalis Biomüxtəliflik Mərkəzi BDU ilə əməkdaşlıq edəcək

***Oktyabrın 11-də Almaniyanın Justis Leibig Universitetinin Heyvanların ekologiyası və sistematikası fakültəsinin dekanı, professor Tomas Vilki və Naturalis Biomüxtəliflik Mərkəzinin professoru Frank Vesselingin Biologiya fakültəsində qonaq olublar.*** Onlar fakültənin dekanı, professor Afət Məmmədova, Zoologiya və fiziologiya kafedrasının müdiri, dosent Əbülfəz Tağıyevlə gələcək planlar və layihələr barədə müzakirələr aparıblar.



Almaniyalı qonaqların Bakıya səfərinin məqsədi Azərbaycanın unikal biomüxtəlifliyini, iqlim dəyişikliyinin Xəzər dənizinin ekosisteminə təsirini öyrənmək üçün bir sıra universitetlərlə, müvafiq istiqamətli elmi-tədqiqat institutları ilə əməkdaşlıq etmək, birgə layihələr həyata keçirməkdir. Görüşdə BDU ilə Justis Leibig Universiteti arasında əməkdaşlıq imkanlarının müzakirə edilməsi üçün onlayn görüşlərin təşkil olunması qərara alınıb.

# BDU-da əlcəzairli doktorantın elmi seminarı keçirilib

***Oktyabrın 27-də Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə fakültənin əcnəbi doktorantı, Əlcəzair Xalq Demokratik Respublikasının vətəndaşı Lemounes Nour El Houda Djoumananın elmi seminarı keçirilib. Elmi seminarda əcnəbi doktorant "Akademik kitabxanaların rəqəmsal informasiya resursları" mövzusunda məruzə ilə çıxış edib.*** BDU-nun Elmi Kitabxanası, ADA Universitetinin Kitabxanası və ADİU Kitabxana İnformasiya Mərkəzinin iş təcrübəsi əsasında hazırlanmış məruzədə hər üç ali təhsil müəssisəsinin kitabxanalarında aparılan rəqəmsallaşdırma prosesləri şərh olunub. Bildirilib ki, universitet kitabxanaları müəssisənin akademik mühitinin fomalaşmasında aparıcı rol oynayır, səmərəli elmi-tədqiqat fəaliyyətinin həyata keçirilməsinə mühüm töhfələr verir.



Müasir şəraitdə universitet kitabxanalarının rəqəmsal resursları təhsil, tədqiqat və eləcə də informasiya mühitinin əsas komponenti kimi dəyərləndirən doktorant tədris və tədqiqat sahəsində keyfiyyətli akademik mühitin təşviqi baxımından rəqəmsal resursların rolunu xüsusi qiymətləndirib. Araşdırmada həmçinin tədqiqat obyekti kimi seçilən kitabxanaların strukturu, sənəd dövriyyəsi, kitab fondu, elektron kataloqu, prioritetləri və bu sahədə olan dünya təcrübəsi barədə iştirakçılara ətraflı məlumat verilib. Məruzənin sonunda əcnəbi doktorant BDU-da tədqiqat aparmaq üçün səmərəli elmi mühitin formalaşdığını və günü-gündən inkişaf etdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, Əlcəzair Xalq Demokratik Respublikasının vətəndaşı Lemounes Nour El Houda Djoumana Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşlarına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil üçün qrantların verilməsi" haqqında 2018-ci il 10 yanvar tarixli Sərəncamına uyğun olaraq BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinə qəbul olunub və hazırda elmi tədqiqatlarını davam etdirir.

# BDU-nun Erməni Araşdırmaları və Təlim Mərkəzində elmi seminar keçirilib

***Oktyabrın 29-da BDU-nun Erməni Araşdırmaları və Təlim Mərkəzində elmi seminar keçirilib.***

Seminarda Mərkəzin Elmi araşdırmalar sektorunun müdiri Elgün Qəhrəmanov "Erməni milli kimliyinin formalaşmasında kilsənin rolu" mövzusunda məruzə ilə çıxış edib. O, erməni milli kimliyinin formalaşması və erməni millətçiliyinin konfiqurasiyasını təşkil edən amillər barədə məlumat verib. Ermənilərin tarixən dövlət və dövlətçilik ənənələrinə malik olmadıqlarını və kilsənin ermənilər üçün dövlət funksiyasını yerinə yetirdiyini, erməni siyasi kimliyinin radikal etnik millətçilik və şovinizm üzərində qurulduğunu, müxtəlif yalan informasiyalara və özləri tərəfindən uydurulmuş tarixi faktlara söykəndiyini elmi faktlarla əsaslandırıb.

Sonda məruzəçi seminar iştirakçılarının suallarını cavablandırıb.

# Jurnalistika fakültəsində elmi seminar: "Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə qardaşlığının yeni mərhələsi"



***Oktyabrın 31-də Jurnalistika fakültəsində "Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə qardaşlığının yeni mərhələsi" mövzusunda elmi seminar keçirilib.***

Filologiya elmləri doktoru Vüqar Əliyev "Şuşa Bəyannaməsi 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni geosiyasi reallıqlar müstəvisində" mövzusunda çıxış edib. O, Şuşa Bəyannaməsinin Azərbaycan-Türkiyə birliyinin rəhbərliyi altında yeni regional düzənin başlanğıcı olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, belə bir sənədin imzalanması ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik haqqında Şuşa Bəyannaməsi regionda və dünyada əməkdaşlığın, birgə yaşayışın, sülhün, ərazi bütövlüyü və suverenliyin, iqtisadi-ticarət əlaqələrinin, mədəni münasibətlərin, təhlükəsizliyin carçısıdır.

Sözügedən sənədi Azərbaycanın siyasi, diplomatik və iqtisadi uğuru kimi dəyərləndirən professor Qulu Məhərrəmli "Şuşa Bəyannaməsi müasir geosiyasi çarpışmalar kontekstində" mövzusunda məruzəsində iki ölkə arasındakı müttəfiqliyin müxtəlif aspeklərini diqqətə çatdırıb. Bildirib ki, müştərək maraq kəsb edən regional və beynəlxalq məsələlərdə birgə fəaliyyət istiqamətlərini müəyyənləşdirən saziş Bakı və Ankaranın rəhbərliyi ilə yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının göstəricisidir.



Elmi seminar interaktiv formada davam edib.

# Beynəlxalq münasibətlər fakültəsində Vətən müharibəsi iştirakçıları ilə görüş

***Oktyabrın 28-də Beynəlxalq münasibətlər fakültəsinin təşkilatçılığı ilə Vətən müharibəsi iştirakçılarıyla görüş keçirilib.***



Tədbirdə Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla anılıb. Vətən müharibəsində qazandığımız şanlı qələbəmizə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekan müavini Kənan Vəkilov Vətən müharibəsində şəhid olan universitet məzunları və tələbələrinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdən bəhs edib. O vurğulayıb ki, şəhid ailələri, qazilər dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub.

Daha sonra çıxış edən Vətən müharibəsi iştirakçıları Ceyhun Məmmədzadə, Mirnağı Seyidov, Əli İbadullayev öz döyüş yollarından bəhs edib, Vətən müharibəsində qazandığımız şanlı qələbədən danışıblar. Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməklə 30 illik Vətən həsrətinə son qoyduqlarını vurğulayıblar. Daha sonra tələbələrin sualları cavablandırılıb.

# "Bir ömrə sığmayan 44 gün" adlı tədbir keçirilib

***Oktyabrın 31-də Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Bir ömrə sığmayan 44 gün" adlı tədbir keçirilib.***

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, sonra torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov bildirib ki, 44 günlük Vətən müharibəsi tariximizin ən parlaq səhifələrindəndir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu təkcə işğal altında olan torpaqlarımızı azad etməyib, xalqımızın döyüş ruhunun, mübarizə əzminin itmədiyini göstərib. Hazırda azad edilən torpaqlarımızda üçrəngli bayraqlarımız əzəmətlə dalğalanır. Doğma Qarabağda və Şərqi Zəngəzurda böyük quruculuq-tikinti işləri həyata keçirilir.

Kimya fakültəsinin Tələbə Gənclər Təşkilatının sədri Əli Qədirli çıxışında ermənilərin işğalçılıq siyasəti barədə gənclərə ətraflı məlumat verib, onları Azərbaycan tarixini dərindən öyrənməyə və informasiya müharibəsində erməni yalanlarına qarşı ayıq-sayıq olmağa çağırıb.

Tədbirdə fakültənin Tələbə Gənclər Təşkilatının sədr müavini Milana İdrisova "Sən hər kəsin Vətənisən", I kurs tələbəsi Nailə Tağıyeva "Zəfər tariximiz" mövzularında çıxış ediblər. I kurs tələbələri Kübra Maqsudova və Fidan Əliyeva "Adını tarixə yazdı" və "Şəhidin son düşüncələri" şeirlərini səsləndiriblər.

Tədbirin sonunda I kurs tələbəsi Aidə Kərimovanın Vətən müharibəsi şəhidləri haqqında hazırladığı videoçarx təqdim olunub.

# BDU ilə İsrailin Yerusəlim İbrani Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb

## *Memoranduma əsasən, biotexnologiya ixtisası üzrə bakalavr, magistr və doktorantura səviyyələrində tədris prosesinə hər iki universitetdən professorlar cəlb olunacaq*

***Oktyabrın 31-də BDU-nun rektoru Elçin Babayev İsrailin Yerusəlim İbrani Universitetinin vitse-prezidenti Oron Şaqririn rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Görüşdə çıxış edən rektor Elçin Babayev Azərbaycanın ən böyük və qədim universiteti olan BDU-nun fəaliyyəti, strukturu, burada elm və tədris prosesi barədə qonaqlara məlumat verib. Qeyd edib ki, BDU-da elmin müxtəlif istiqamətləri üzrə kadr hazırlığı həyata keçirilir. BDU-nun 16 fakültəsi, 25 minə yaxın tələbəsi, 2 elmi-tədqiqat institutu, bir filialı, kolleci və liseyi var. Son illər Universitetdə ən müasir tələbələrə cavab verən Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzi, müasir laboratoriyalar yaradılıb. Rektor BDU-nun beynəlxalq əlaqələrinin də genişləndiyini, dünyanın tanınmış universitetləri ilə ikili diplom və mübadilə proqramlarının həyata keçirildiyini qeyd edib. O, İsrailin elm və təhsil müəssisələri ilə əlaqələrin yaradılması və inkişafının BDU-nun beynəlxalq əlaqələrində əsas prioritetlərdən olduğunu vurğulayıb.



Yerusəlim İbrani Universitetinin vitse-prezidenti Oron Şaqrir isə qeyd edib ki, təmsil etdiyi universitetdə 90 ölkədən 23000 tələbə təhsil alır. "QS World University Rankings" beynəlxalq reytinqində 222-ci yerdə qərarlaşan universitet əsasən biologiya, biotexnologiya, aqrar sahə, aqrar texnologiyalar üzrə kadr hazırlığı həyata keçirir.

Daha sonra BDU ilə Yerusəlim İbrani Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu BDU-nun rektoru Elçin Babayev və Yerusəlim İbrani Universitetinin vitse-prezidenti Oron Şaqrir imzalayıb.

Memoranduma əsasən, biotexnologiya ixtisası üzrə bakalavr, magistr və doktorantura səviyyələrində tədris prosesinə hər iki universitetdən professorlar cəlb olunacaq. BDU və Yerusəlim İbrani Universiteti ikili diplom proqramlarının həyata keçirilməsi, ortaq elmi tədqiqatların aparılması, birgə seminar, konfrans, sərgi və simpoziumların təşkili istiqamətində əməkdaşlıq edəcəklər.

# Tarix fakültəsində Müstəqilliyin Bərpası Gününə həsr olunmuş dəyirmi masa keçirilib

***Oktyabrın 18-də Tarix fakültəsində 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş dəyirmi masa keçirilib.***

Tarix fakültəsinin dekanı İbrahim Zeynalov Azərbaycan xalqının müstəqillik uğrunda şərəfli mübarizə tarixi barədə iştirakçılara ətraflı məlumat verib. "Azərbaycanda milli dövlət quruculuğunda yeni mərhələ" adlı məruzə ilə çıxış edən İbrahim Zeynalov qeyd edib ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etməklə xalqımızın uzun illər yaşatdığı istiqlal ideyasını reallaşdırdı. Azərbaycan bir əsrdə ikinci dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Xalqımız həsrətində olduğu azadlığına qovuşdu. Müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başladı, müstəqilliyin ilk illərində xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Azərbaycanın dövlət müstəqilliyinin təhlükədən qurtarması, vətəndaş birliyinin, həmrəyliyin, sabitliyin qorunub saxlanılması, Azərbaycanın müstəqil dövlət olaraq dünya dövlətləri arasında rolunun və nüfuzunun möhkəmləndirilməsi məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi liderin dövlətçilik ənənələrini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmiz regionun lider dövləti kimi beynəlxalq nüfuzunu, iqtisadi, müdafiə qüdrətini daha da artırdı. Bu proseslərin məntiqi davamı isə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Ordumuzun Vətən müharibəsində şanlı qələbəsi oldu.

Dəyirmi masada Milli Məclisin deputatı, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri Anar İsgəndərov "Zəfərə aparan yol" mövzusunda məruzə ilə çıxış edib. Azərbaycan dövlətçiliyinin tarixi köklərinə nəzər salan Anar İsgəndərov müstəqilliyin hər bir vətəndaş üçün əvəzedilməz nemət olduğunu bildirib. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda edən şəhidləri yad edən natiq birinci Qarabağ savaşında məğlubiyyətin səbəblərinə diqqət çəkib və nəhayət, 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında təcavüzkar Ermənistan ordusu üzərində tarixi zəfər qazanan şanlı Azərbaycan Ordusunun bütün şəhidlərin və günahsız qurbanların qisasını aldığını, bu tarixi zəfərin Azərbaycan xalqının son iki yüz illik tarixində ən böyük qələbəsi olduğunu, Qarabağın düşməndən azad edilməsi ilə Vətən tarixinin ən şanlı səhifəsinin yazıldığını bildirib.



Milli Məclisin deputatı Naqif Həmzəyev "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir" adlı məruzəsində müstəqilliyi qoruyub saxlamağın onu əldə etməkdən daha çətin olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, məhz Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində qısa müddətdə ölkəmizin müstəqil daxili və xarici siyasət strategiyasının təməl prinsipləri müəyyən olunub, ictimai-siyasi sabitlik təmin edilib, demokratik islahatların həyata keçirilməsinə və ordu quruculuğu prosesinə başlanılıb. Azərbaycan gələcək taleyi baxımından həlledici rola malik "Əsrin müqaviləsi"ndə iştirakı ilə dünyanın enerji xəritəsində xüsusi mövqe qazanıb. Ölkəmiz bu gün nəhəng regional və qlobal layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Azərbaycan özünün milli maraqları əsasında müstəqil xarici siyasət yürüdür və dünya miqyasında etibarlı tərəfdaş kimi tanınır.

Dəyirmi masanın sonunda mövzu ilə bağlı müzakirələr aparılıb.

# Müstəqilliyin Bərpası Gününə həsr edilmiş xüsusi dərs

***Oktyabrın 18-də Kitabxanaçılıq-informasiya fakültəsində 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş xüsusi dərs təşkil olunub. Əvvəlcə Dövlət himni səsləndirilib, müstəqilliyimiz, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad edilib. "BDU Könüllüləri"nin hazırladığı videoçarx nümayiş olunub.***

Xüsusi dərs Tarix fakültəsinin dosenti Ələmdar Şahverdiyevin mühazirəsi ilə davam edib. Ələmdar Şahverdiyev mühazirədə xalqımızın tarixən azadlıq və suverenlik uğrunda mübarizə apardığını, bu yolda qurbanlar verdiyini qeyd edib. Bildirib ki, 1920-ci ilin aprelində Sovet imperiyası tərəfindən Xalq Cümhuriyyəti devrilsə də, xalqımızın müstəqilliyə olan inamı itməyib. Suverenliyimizin, dövlət müstəqilliyimizin bərpasına gedən yolun keşməkeşli olduğunu vurğulayan natiq hələ ötən əsrin 70-ci illərindən sovet dövlətinin təqib və təzyiqlərinə baxmayaraq Ulu Öndərimiz Heydər Əliyev tərəfindən bu yolun təməlinin qoyulduğunu diqqətə çatdırıb. 1990-cı ilin noyabrın 17-də Ümummilli



liderin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Xalq Cümhuriyyətinin rəmzlərinin Muxtar Respublikanın dövlət rəmzləri kimi təsdiq edilməsinin müdrik, eyni zamanda cəsarətli addım olduğunu vurğulayan Ələmdar Şahverdiyev müstəqilliyimizin möhkəmlənməsi proseslərinin də məhz dahi lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra başladığını bildirib. Artıq ikinci ildir ki, müstəqilliyimizin bərpasını ərazi bütövlüyümüzün təmin olunduğu, Qarabağımızın azad edildiyi bir şəraitdə yüksək ovqatla qeyd etdiyimizi diqqətə çatdıran natiq Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbədən bəhs edib. Bildirib ki, bu gün qalib Azərbaycan regionun aparıcı dövləti kimi günü-gündən qüdrətlənir, azad Qarabağımızda aparılan nəhəng quruculuq işləri müstəqil dövlətimizin daha parlaq gələcəyini şərtləndirir.

# İltəriş Kutluq Xaqana aid yeni yazılı daş kitabə və abidə kompleksinin təqdimatı olub

***Beynəlxalq Türk Akademiyası (BTA) və Monqolustan Elmlər Akademiyasının apardığı birgə arxeoloji qazıntılar zamanı Monqolustanın Nomqon vadisində ikinci Göytürk dövlətinin qurucusu İltəriş Kutluq Xaqana (VII əsr) aid yeni yazılı daş kitabə və abidə kompleksi aşkar edilib. Türk dünyası üçün böyük əhəmiyyəti olan yazılı daş kitabə və abidə kompleksinin Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrdə təqdimatının keçirilməsi nəzərdə tutulur.***

Oktyabrın 4-də BTA-nın təşəbbüsü, Elm və Təhsil Nazirliyi və BDU-nun təşkilatçılığı ilə bu gün BDU-da İltəriş Kutluq Xaqana aid yeni yazılı daş kitabə və abidə kompleksinin təqdimatı keçirilib.

Təqdimat mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, hər bir xalqın mədəniyyəti həmin xalqın yaşadığı ərazi, region, mühit və s. amillərlə bağlı olsa da, onun dünya mədəniyyətinin inkişaf xətti ilə əlaqə və yaxınlığı şübhəsizdir. Türk xalqlarının mədəniyyəti və ədəbiyyatı bu mənada dünya mədəniyyəti və ədəbiyyatının ayrıca zəngin bir qolu və mərhələsi olmaqla yanaşı, həm də əsas tərkib hissəsidir. Qədim, zəngin mədəni irsə malik olan türk xalqları yaratdıqları möhtəşəm tarixi abidələr, maddi mədəniyyət nümunələri ilə hər zaman dünyanı heyrətə salıblar. Həmin abidələrin bir çoxu özünəməxsus gözəlliyi və əzəməti ilə bu gün də hər kəsi heyran edir.



Rektor vurğulayıb ki, bu əhəmiyyətli tarixi hadisə bir daha göstərir ki, türk dünyasının tarixi və mədəniyyəti olduqca qədim və zəngindir. Hazırkı dövrdə türk mədəniyyət və ədəbiyyatının təkcə hər hansı konkret milli türk xalqı zəminində yox, ümumtürk mədəniyyəti səviyyəsində və bu səviyyənin ədəbi-bədii və estetik prinsiplərinin dərki baxımından öyrənilməsi vacibdir: "Bildiyimiz kimi, Monqolustanın Ötüken bölgəsində 2019-cu ildən etibarən Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının Arxeologiya İnstitutunun birgə apardığı qazıntılar nəticəsində ümumi sahəsi 49x 41,5 m-olan İltəriş Xaqanın kompleksi və kitabəsi aşkar edilib. Abidənin mətnindən əldə edilən məlumatlar əsasında belə qənaətə gəlinib ki, Nomqon abidəsi Göytürk xaqanlığını dirçəltmiş Kültegin və Bilgə Xaqanın atası İltəriş Kutluq Xaqana ithaf olunub. Bundan başqa, bu abidə Türk adının ilk çəkildiyi Göytürkün ən qədim yazılı abidəsi hesab olunur. Daş kitabənin özəlliyi "Türk" adının türkdilli tarixi qaynaqlarda qeydə alındığı ilk mənbə olmasıdır. Digər önəmli məqam kitabənin ötən əsrin sonlarında Orxon abidələrinin (Bilgə Xaqan, Kültegin, Tonyukuk) Qərb mütəxəssisləri tərəfindən kəşfi və tədqiqindən 130 il sonra öz arxeoloqlarımız - Türk Akademiyasının alimləri tərəfindən kəşf edilməsi və oxunmasıdır. Abidənin kəşfi Türk yazı tarixi və əlifbasının düşünüləndən daha qədim olduğunu isbat edir".





Elçin Babayev diqqətə çatdırıb ki, tədqiqatlarda iştirak edən alimlər abidənin mətnindən "Tanrı", "Türk", "Kutluq", "Tümen" kimi bir sıra sözləri oxuya biliblər: "Beynəlxalq Türk Akademiyası tərəfindən Nomqon qazıntılarının nəticələrinə dair təqdimatların türk dövlətlərində keçirilməsi sevindirici və qürurverici tarixi hadisədir. Azərbaycanda təqdimatın Bakı Dövlət Universitetində keçirilməsi də çox sevindiricidir. BDU ölkəmizdə türkologiyanın əsas mərkəzlərindən biridir".

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli bu abidəni "türk dünyasının tarixini dəyişdirəcək böyük elmi kəşf" adlandırıb. O qeyd edib ki, bu abidədə böyük türk xaqanlığının fəlsəfəsi, tarixi, dili öz əksini tapır: "Türk abidələrinin tapılması nə qədər böyük kəşfdirsə, onun öyrənilməsi də tariximizə, ortaq keçmişimizə dəyərin göstəricisi olacaq". İsa Həbibbəyli abidənin öyrənilməsinə Azərbaycan alimlərinin töhfə verəcəyinə əminliyini bildirib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, BTA-nın vitse-prezidenti Füzuli Məcidli, Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Əhmədov çıxışlarında İltəriş Kutluq Xaqana aid yeni yazılı daş kitabənin tapılmasının və oxunmasının türk xalqlarının tarixi keçmişinin öyrənilməsində əhəmiyyətini vurğulayıb, bunun türk dövlətlərindən olan gənclərin tədqiqat yönümlü fəaliyyətləri üçün stimul olacağını qeyd ediblər.

Sonra BTA-nın qədim türk dilləri üzrə mütəxəssisi Napil Bazilhan İltəriş Kutluq Xaqana aid yeni yazılı daş kitabə və abidə kompleksi, burada türk dünyagörüşünün əksi, aşkar edilən yazılar barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

# "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" adlı tədbir

***Oktyabrın 19-da BDU-da "Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir" adlı tədbir keçirilib. Tədbirdə BDU-nun professor-müəllim heyəti, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, həmçinin Sosial elmlər və psixologiya fakültəsinin birinci kurs tələbələri iştirak ediblər.***

Tədbir iştirakçıları torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə çıxış edən BDU-nun Hüquq fakültəsinin professoru Zahid Cəfərov müstəqilliyimizin bərpasının 31-ci ildönümü münasibəti ilə iştirakçıları təbrik edib. Diqqətə çatdırıb ki, dövlətimizin müstəqilliyinin qorunması və möhkəmləndirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Professor Şahlar Əsgərov isə öz çıxışında ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın keçirdiyi ağır və böhranlı günləri xatırladıb. O, 91 nəfər ziyalı ilə birlikdə Ulu öndər Heydər Əliyevə müraciət etdiklərini və dahi liderin xilaskarlıq missiyasını öz üzərinə götürdüyünü tədbir iştirakçılarının diqqətinə çatdırıb. Şahlar Əsgərov Ümummilli liderin dövlətçiliyimizin, milli dəyərlərimizin qorunması, uğurlu daxili və xarici siyasəti, sosial, elm, təhsil, mədəniyyət sahələrində həyata keçirdiyi islahatlar barədə tələbələri məlumatlandırıb. O, öz nitqində gəncləri ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməyə səsləyib.



Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev YAP gənclərinin beynəlxalq aləmdəki nüfuzu, ölkə daxilində vətənpərvərlik ruhunun aşılanması istiqamətində gördükləri işlər haqda məlumat verib. O, həmçinin ölkə rəhbərliyi tərəfindən gənclərə göstərilən diqqət və qayğıdan, onlara yaradılan hərtərəfli şəraitdən, geniş imkanlardan danışıb.

Sosial elmlər və psixologiya fakültəsinin Sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Nəzakət Kərimova çıxış edərək gənclərə ölkənin siyasi-mədəni həyatında fəal iştirak etməklə yanaşı, öz ixtisaslarına dərindən bələd olmağı, daim yeni bilik və bacarıqlara yiyələnməyi, elmli, savadlı və vətənpərvər ruhlu gənclər kimi formalaşmağı tövsiyə edib.

# "Gənc istedadlar" liseyində "Nə? Harada? Nə zaman?" intellektual oyunu

***Oktyabrın 17-də BDU-nun könüllüləri və BDU-nun nəzdində "Gənc İstedadlar" liseyinin birgə təşkilatçılığı ilə liseyin VI sinif şagirdləri arasında Vətən müharibəsinin ikinci ildönümünə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.***

Oyun 6 mövzu və hər mövzu üzrə 5 sual olmaqla təşkil olunub.

Şagirdlərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə xidmət edən oyunda 3 komanda iştirak edib. Oyunun qalibi "Qarabağ" komandası olub. Yarışın sonunda qalib komanda üzvləri sertifikatlarla təltif olunublar.

# "Biologiyada elmi nailiyyətlər və çağırışlar" mövzusunda Beynəlxalq konfrans keçirilib

*Bakı Dövlət Universiteti, ICESCO, İzmir Yüksək Texnologiya İnstitutu (Türkiyə) və Lahore Universitetinin (Pakistan) birgə təşkilatçılığı ilə, akademik Mirəli Axundovun anadan olmasının 120 illiyinə həsr olunmuş "Biologiyada nailiyyətlər və çağırışlar" adlı 11-ci Beynəlxalq elmi konfrans keçirilib.*






***Oktyabrın 13-də keçirilən konfransda əvvəlcə Dövlət himni səsləndirlib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan və BDU haqqında videoçarxlar nümayiş etdirilib.***

Konfransın açılışında çıxış edən BDU-nun rektoru Elçin Babayev Universitetin Biologiya fakültəsinin ilk məzunlarından biri olan əməkdar elm xadimi, professor Mirəli Axundovun 120 illiyinə həsr olunmuş "Biologiyada nailiyyətlər və çağırışlar" mövzusunda 11-ci Beynəlxalq elmi konfransın iştirakçılarını salamlayıb. Qeyd edib ki, konfransın "Biologiyada nailiyyətlər və çağırışlar" kimi adlandırılması təsadüfi deyil. Ölkəmizdə dünya elminin tələblərinə cavab verən tədqiqatların aparılması, elmi-texniki potensialın inkişafı, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Həyat elmləri və biologiya BDU-nun təbiət elmləri sahəsində 5 əsas elmi prioritetindən biridir. Təsadüfi deyil ki, BDU-da Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində Biomühəndislik, Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyaları fəaliyyət göstərir. Aqrar sahədə müasir molekulyar bioloji metodların tədqiqi və tətbiqi ilə yeni genotiplərin yaradılması və ümumilikdə ölkəmizdə qida təhlükəsizliyinə töhfə vermək məqsədilə Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzində Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyası yaradılıb və hazırda strukturu formalaşdırılır. Bu, yeni biotexnoloji metodların inkişafına və biotexnologiya sahəsində ixtisaslı mütəxəssislərin hazırlanmasına təkan olacaq.

Rektor vurğulayıb ki, təhsil-elm-tədqiqat-innovasiya mərkəzlərindən birinə çevrilməkdə olan BDU-da elmin bütün sahələri üzrə kadr hazırlığı həyata keçirilir. Əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq elm və təhsil təşkilatları, dünyanın nüfuzlu universitetləri və elm qurumları ilə əlaqələrin genişləndirilməsi BDU-nun inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. BDU 2022-ci ildə İslam Dünyası Universitetləri Federasiyasına (FUIW) üzv qəbul olunub və ICESCO tərəfindən ali təhsil müəssisələri üçün Açıq Təhsilin İnkişafı layihəsi çərçivəsində tədqiqatçı-alimlər üçün təşkil olunacaq treninqlərdə, həmçinin dünyanın ən nüfuzlu ali təhsil ocaqları və elmi-tədqiqat müəssisələri ilə aparılacaq təcrübə mübadiləsində fəal şəkildə iştirak edəcək. Azərbaycanda yalnız BDU-da ICESCO-nun Biotibbi materiallar kafedrası yaradılıb və kafedra artıq fəaliyyət göstərir: "Biotibbi materialar kafedrasının yaradılmasının təkcə Azərbaycanda deyil, islam dünyası ölkələrində biotibb elminin inkişafına əlavə təkan verəcəyinə əminik. Kafedra biotibbi materiallar üzrə tədqiqat işlərinin aparılmasına, ICESCO-ya üzv dövlətlərdən olan tələbə və gənc alimlərin bu araşdırmalara cəlb edilməsinə və əməkdaşlığın qurulmasına da yardım göstərəcək".

İzmir Yüksək Texnologiya İnstitutunun rektoru Yusif Baran həm Azərbaycanın, həm də Asiyanın ən yaxşı universitetlərindən olan BDU-da keçirilən konfransın böyük əhəmiyyətə malik olduğunu vurğulayıb və iştirakçılara uğurlar arzulayıb. Yer üzündə yaşamın biologiya elmi ilə bağlı olduğunu bildirən Yusif Baran qeyd edib ki, mühüm elmi problemlərin və çağırışların müzakirə ediləcəyi konfrans iştirakçı universitetlər arasında güclü əməkdaşlıqların da başlanğıcı olacaq.

Daha sonra Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Milli Məclisin deputatı, BDU-nun Genetika kafedrasının müdiri Kamilə Əliyeva, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru İradə Hüseynova, Bolqarıstanın Mikrobiologiya İnstitutunun əməkdaşı Lyudmila Kabaivanova, Qazaxıstanın L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin Hüceyrə Biologiyası və Biotexnologiyaları İnstitutunun direktoru Rahmetkaji Bersimbay, V.Axundov adına Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru Adil Allahverdiyev, AMEA-nın Biofizika İnstitutunun direktoru Oqtay Qasımov, BDU-nun Biologiya fakültəsinin dekanı Afət Məmmədova, Mirəli Axundovun övladı, Genetika və təkamül təlimi kafedrasının professoru Ellada Axundova çıxışlarında biologiya elminin prioritet istiqamətləri, aktual problemləri barədə danışıb, bu sahədəki bilik və bacarıqların optimallaşdırılması, habelə elmi əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıblar.

19 xarici ölkədən (Türkiyə, Fransa, İspaniya, Koreya, Serbiya, Bolqarıstan, Pakistan, Mərakeş, Hindistan, Belarus, Polşa, İran, Nigeriya, Özbəkistan, Rusiya, Argentina, Braziliya, Qazaxıstan, Gürcüstan), ölkəmizin bir çox ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarından olan tədqiqatçıların iştirakı ilə keçirilən konfransda genetika, molekulyar biologiya, mikrobiologiya, biofizika, biokimya, fiziologiya, nanobiotexnologiya, botanika, flora müxtəlifliyinin mühafizəsi, zoologiya və akvakulturalar, canlı sistemlərin ekologiyası kimi sahələr üzrə məruzələr dinlənilib. Konfransda müxtəlif ölkələrdən olan dəvətli məruzəçilərin bu sahələrin problemləri və alınmış ən son nəticələr üzrə çıxışları olub.

***Oktyabrın 14-də "Biologiyada nailiyyətlər və çağırışlar" mövzusunda Beynəlxalq elmi konfrans başa çatıb***

Bağlanış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev bildirib ki, konfransın keçirilməsində əsas məqsədlərdən biri müxtəlif ölkələrin alimləri ilə biologiya sahəsində yeni əməkdaşlıqlar qurmaq və mövcud əlaqələri genişləndirməkdir: "İki gün davam edən konfransda maraqlı müzakirələr aparıldı. Bu, əməkdaşlıqda ilk addım idi. Gələcəkdə yenidən belə konfransların keçirilməsi planlaşdırılır. Konfransın keçirilməsinin digər məqsədi isə öz tələbə və tədqiqatçılarımıza elmi işlərini təqdim etmələri üçün platforma yaratmaq idi. Onlar BDU-da yeni yaradılan laboratoriyalarda apardıqları tədqiqatların nəticələrini uğurla təqdim etdilər".

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru İradə Hüseynova isə qeyd edib ki, biologiya elminin müasir istiqamətləri bütün elm sahələrinin inkişafına təsir göstərir. XXI əsrin biologiya əsri olduğunu vurğulayan alim bu sahədə növbəti konfransın Qarabağda keçirilməsini arzulayıb.

Qazaxıstanın L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin Hüceyrə Biologiyası və Biotexnologiyaları İnstitutunun direktoru Rahmetkaji Bersimbay konfransda həm yaşlı, həm də gənc nəslin nümayəndələrinin birlikdə çox faydalı elmi müzakirələr apardıqlarını diqqətə çatdırıb: "Müxtəlif ölkələrdən olan alimlərin biologiya elminin fərqli aspektlərinə aid məruzələri çox yaddaqalan idi. Bu konfransda iştirakımın əsas səbəbi Azərbaycandan olan elmi tədqiqatçıları Qazaxıstan Dövlət Universitetinə dəvət etməkdir. 2 gün davam edən konfransda bizi müşayiət edən könüllülərə dərin təşəkkürümü bildirirəm".



Bolqarıstanın Mikrobiologiya İnstitutunun əməkdaşı Lyudmila Kabaivanova isə konfransda müzakirə edilən məsələlərin ciddi elmi nəticələr verəcəyinə əminliyini bildirib.

Tədbirin sonunda konfrans iştirakçılarına sertifikatlar təqdim edilib.

# Karyera sərgisi keçirilib

***Oktyabrın 26-da BDU-da Karyera sərgisi keçirilib. Karyera sərgisində Azərbaycanda fəaliyyət göstərən 50-dək dövlət və özəl şirkət iştirak edib.***

Tədbiri giriş özü ilə açan BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev sərginin əhəmiyyəti, gənclərin əmək bazarına inteqrasiyasında olan rolundan bəhs edib və iştirakçılara uğurlar arzulayıb.

Əliş Ağamirzəyev bildirib ki, sərginin əsas məqsədi əmək bazarı üçün ixtisaslı kadrların hazırlanmasına yardım etməkdir: "BDU ölkənin ən çox kadr hazırlayan universitetidir. Sərgi həm iştirakçı şirkətlər, həm BDU, həm də tələbələr üçün faydalı olacaq. Çünki belə sərgilər əmək bazarında hansı ixtisaslara daha çox tələbat olduğunu müəyyənləşdirməyə də imkan verir. Tələbələri bu fürsətdən yararlanmağa çağırıram. Gənclərin məşğulluğunun təmin edilməsi Universitet üçün prioritet məsələdir və bu istiqamətdə layihələr davamlı olacaq".



Daha sonra iştirakçı şirkətlərin stendlərinə baxış keçirilib. Sərgi iştirakçıları həmin şirkətlər haqqında ətraflı məlumatlandırılıblar.

Sərgi çərçivəsində tələbələrin şəxsi inkişafı istiqamətində dinləmələr də təşkil edilib. Dinləmələr modullar formasında həyata keçirilib.

Birinci modul "Effektiv CV hazırlığı (DMA)", ikinci modul isə "Karyeranı necə düzgün planlayım? (DMA)" mövzularına həsr olunub.

# BDU-da "Cəbrayıl günü"

***Oktyabrın 27-də Sosial elmlər və psixologiya fakültəsində "Cəbrayıl günü" adlı tədbir keçirilib.***

Tədbirdə sosial məsələlər üzrə dekan müavini Nəzakət Kərimova və fakültənin əslən Cəbrayıldan olan fəal tələbələri iştirak ediblər. Tədbir iştirakçıları torpaqlarımızın azadlığı uğrunda həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Fakültənin I kurs tələbələri Nihad Yusifli və Xanımnənə Məmmədova Cəbrayıl rayonunun coğrafi mövqeyi, tarixi abidələri, faydalı qazıntıları, qiymətli xammal ehtiyatları, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri haqqında tədbir iştirakçılarına məlumat veriblər. Onlar həmçinin erməni vandallarının işğalı nəticəsində Cəbrayıl şəhəri daxil olmaqla 4 qəsəbə, 92 kəndin talan edilərək yandırıldığını, 132 tarixi, mədəniyyət və dini abidənin dağıdıldığını, 1988-1993-cü ilə qədər erməni qəsbkarlarına qarşı döyüşdə 400 nəfərin şəhid olduğunu, torpaqlarımızın azadlığı uğrunda vuruşan 6 nəfər Cəbrayıl sakininin Milli Qəhrəman adına layiq görüldüyünü diqqətə çatdırıblar. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun rəşadəti sayəsində digər tarixi ərazilərimiz kimi Cəbrayıl rayonu da işğaldan azad edilib.



Sosial iş ixtisası üzrə III kurs tələbəsi Zümrüd Xudiyeva öz çıxışında üzünü görmədiyi doğma Qarabağa bağlılıq hisslərinin formalaşmasında valideynlərinin böyük rol oynadığını vurğulayıb.

Fəlsəfə ixtisası üzrə I kurs tələbəsi Rufiz Quluzadə çıxışında əsrarəngiz təbiəti, mehriban və qonaqpərvər camaatı ilə seçilən Qarabağ bölgəsini bir cənnətə bənzədib. O qeyd edib ki, I Qarabağ müharibəsində şəhid olmuş əmisi Rufiz Quluzadənin adını daşıyır. Rufiz Quluzadə əmisinin nakam qalmış arzularını davam etdirəcəyinə söz verib. O, böyük ümid və həvəslə Cəbrayıla dönəcəkləri günü gözlədiyini və doğma ata yurdunda aparılan böyük quruculuq işlərində iştirak etmək arzusunda olduğunu ifadə edib.

# Füzuli və Zəngilan rayonlarının işğaldan azad olunmasının ikinci ildönümünə həsr olunmuş tədbir

***Oktyabrın 28-də Geologiya və Coğrafiya fakültələrinin birgə təşkilatçılığı ilə Füzuli və Zəngilan rayonlarının işğaldan azad olunmasının ikinci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Geologiya fakültəsinin dekanı Mamoy Mansurov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi tariximizə qızıl hərflərlə yazılıb. Rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilib.

Milli Məclisin üzvü Vüqar İskəndərov Zəngilan və Füzuli rayonlarında ermənilər tərəfindən işğal dövründə həyata keçirilən dağıntılar barədə geniş məlumat verib. Qeyd edib ki, faşist ideologiyalı ermənilər 30 ilə yaxın müddətdə bu ərazilərdə ekoloji terror törədib, təbii sərvətlərimizi talayıb, tarixi, mədəni, dini irsimizin qəniminə çevrilib.

Coğrafiya fakültəsinin dekanı vəzifəsini icra edən Ramiz Əhlimanov isə Zəngilanın işğaldan əvvəlki və sonrakı vəziyyətini müqayisə edib.

Geologiya fakültəsinin Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimi Ələkbər Mirzəyev, fakültənin Tələbə Gənclər Təşkilatının sədri Samirə Novruzova, 3-cü kurs tələbəsi Sona Fərəcli çıxışlarında Qarabağda və Şərqi Zəngəzurda geniş quruculuq-abadlıq işlərinin aparıldığını vurğulayıblar. Bildiriblər ki, azad edilən torpaqlarımız tezliklə yenidən cənnətə çevriləcək. Regionda həyata keçirilən böyük iqtisadi layihələr, Füzuli və Zəngilan hava limanlarının açılması həmin günü daha da yaxınlaşdırır. Sonda Vətən müharibəsi iştirakçıları öz xatirələrini bölüşüblər. Tədbir Vətən müharibəsi iştirakçısı Məbud Əhmədovun ifası ilə başa çatıb.

# Türkiyənin tanınmış mütəxəssisi Mehmet Nuri Parmaksızın ustad dərsi

***Oktyabrın 28-də Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyinin sədri, müəlliflik hüquqları sahəsində tanınmış mütəxəssis Mehmet Nuri Parmaksız BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti, gənc tədqiqatçıları və tələbələri üçün "Müəlliflik hüququ" mövzusunda ustad dərsi keçib.***

Mühazirədə əvvəlcə müəlliflik hüququnun tarixi, təməl anlayışları və prioritetləri barədə məlumat verilib. 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 27-ci maddəsində hər bir insanın müəllifi olduğu elmi, ədəbi, yaxud bədii əsərlərin nəticələrindən ibarət mənəvi və maddi mənafelərini müdafiə etmək hüququna malik olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, hər bir əsərin mühafizəsinin təmin edilməsi müvafiq dövlət qurumlarının prioritetlərindən hesab olunur. Əqli mülkiyyət hüquqlarının təməl insan hüquqlarından biri olduğunu vurğulayan natiq bu sahədə ilk qanunun 1709-cu ildə Britaniya parlamenti tərəfindən qəbul edildiyini bildirib, eyni zamanda Türkiyədə müəllif hüquqlarının tarixindən, formalaşmasından bəhs edib. Diqqətə çatdırılıb ki, Osmanlı dövründə müəllif hüquqları ilə bağlı ilk hüquqi sənəd 1857-ci ildə qəbul edilmiş Müəllif Hüquqları Əsasnaməsidir. Türkiyənin 1995-ci ildən Bern Konvensiyasını qəbul etdiyini diqqətə çatdıran mütəxəssis əqli mülkiyyət hüquqlarının daha yaxşı qorunması üçün zaman-zaman qanunvericilikdə yeniliklərin tətbiqinin zəruriliyini vurğulayıb.



Mühazirədə həmçinin müəllif hüquqlarının qüvvədə olma müddəti, pozulması halları, piratçılıqla mübarizə üsulları barədə bəhs olunub. Bildirilib ki, müəllif hüquqlarının pozulması halı miqyasından asılı olaraq mülki davanın açılması və ya cinayət işinin başlanması ilə nəticələnə bilər. Türkiyədə piratçılıqla mübarizə üsulları barədə məlumat verən natiq bu məqsədlə banderol, qeydiyyat və sertifikatlaşdırma sistemlərinin tətbiq edildiyini qeyd edib, hər üç sistemin özəllikləri, üstünlükləri barədə danışıb.

Ustad dərsi auditoriya tərəfindən maraqla dinlənilib, Mehmet Nuri Parmaksız dinləyicilərin mövzu ilə bağlı çoxsaylı suallarını cavablandırıb, məruzə ilə bağlı diskussiya aparılıb.

# 5 oktyabr - Beynəlxalq Müəllimlər Günüdür

*Beynəlxalq Müəllimlər Günü UNESCO-nun qərarı ilə 1966-cı ildən dünyanın bir çox ölkələrində qeyd edilir. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul olunub. Bundan sonra Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramı kimi qeyd olunmağa başlayıb.*

***Dünyanın ən müqəddəs və şərəfli peşəsi - müəllimlik. Öyrətmək, yol göstərmək, qaranlıqları aydınlatmaq, nümunə olmaq, tək bilik yox, insanlıq, şəfqət, mərhəmət aşılamaq, şəxsiyyət formalaşdırmaq...Bu ilahi missiya ilə yola çıxanların günüdür bu gün.***

5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü UNESCO-nun qərarı ilə 1966-cı ildən dünyanın bir çox ölkələrində qeyd edilir. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd qəbul olunub. Bundan sonra Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramı kimi qeyd olunmağa başlayıb. Bu əlamətdar günün beynəlxalq səviyyədə qeyd edilməsinin məqsədi cəmiyyətin inkişafında müəllimin rolunu vurğulamaq, dünyanın hər yerində təhsil sahəsində heç kimin unudulmaması, insanların təhsildən geri qalmaması üçün səy göstərən müəllimlərin əməyinə diqqəti yönəltməkdir.

Müstəqil Azərbaycan Respublikasında Beynəlxalq Müəllimlər Günü 1993-cü ildən qeyd edilir. Ulu öndər Heydər Əliyevin, bütün sahələr kimi, təhsilin inkişafına göstərdiyi diqqət və qayğı sayəsində Azərbaycanda elm və təhsil yüksək irəliləyiş və uğur əldə etmişdir. Müəllim peşəsinə hörmət və diqqəti hər zaman diqqətdə saxlayan Ümummilli lider "Bizim hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq. Müəllimlik sənəti şərəfli bir sənətdir" kəlamı ilə müəllim peşəsinin müqəddəsliyini vurğulayıb, öz çıxışlarında dönə-dönə gənc nəslin sağlam, savadlı, vətənpərvər ruhda təlim-tərbiyəsi üçün öz ömürlərini şam kimi əridən müəllimlərə öz ehtiramını bildirib.

Azərbaycanda son illərdə elmin və təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ölkəmizdə təhsilin inkişafına, milli kadr hazırlığının təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. Təhsil işçiləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.

Ölkəmizdə təhsil sahəsinin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın misilsiz xidmətləri vardır. Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində ölkəmizdə yüzlərlə yeni, müasir məktəb binaları tikilib, yüzlərlə məktəb binası əsaslı təmir edilib. Bu gün ölkəmizin təhsil ictimaiyyəti - müəllimlər, tələbələr, şagirdlər haqlı olaraq hörmətli Mehriban xanım Əliyevanı təhsilimizin himayədarı kimi qəbul edir, ona sonsuz rəğbət bəsləyir.

Bu gün Vətən uğrunda döyüşən əsgərlərimizin vətənpərvər ruhda yetişməsində, onlara milli ruhun aşılanmasında müəllimlərin rolu danılmazdır. Vətən üçün layiqli vətəndaş, əsgər, qürurla və əzmlə torpaqlarını düşmən işğalından azad etmək məqsədilə canından keçməyə hazır olan qəhrəmanlar yetişdirən müəllimlərin əməyi və rolu inkaredilməz bir faktdır. Yorulmaz və cəsur əsgərlərimizin yetişdirilməsində aparılan təlim-tərbiyə prosesinin nəticəsi kimi yetişən vətənpərvər gənclik Qarabağ uğrunda gedən haqq savaşımızda, düşmən tapdağında olan ərazilərimizin azad edilməsində şücaətlə mübarizə apardılar, müqəddəs şəhidlik zirvəsinə ucaldılar, müstəqil Azərbaycanın qəhrəmanlıq tarixini yenidən yazdılar. Bu gün isə əzəli torpaqlarımızın rəşadətlə keşiyini çəkirlər.

Əziz müəllimlər, müqəddəs peşənizi şərəflə və məsuliyyətlə yerinə yetirməkdə sizə uğurlar diləyir, daim inkişaf edən təhsil sistemimizə töhfələrinizin bol olmağını və yetişdirdirdiyiniz şagird və tələbələrlə hər zaman fəxr və qürur hissi keçirməyinizi arzu edirik!

Bayramınız mübarək!

# Kitabxanaçılıq-informasiya fakültəsində Özbəkistanın Termez Dövlət Universitetinin prorektoru və tələbələri ilə görüş

***Oktyabrın 11-də Özbəkistanın Termez Dövlət Universitetinin prorektoru Obid Şəfiyev və həmin universitetin bir qrup müəllim-tələbə heyəti Kitabxanaçılıq-informasiya fakültəsini ziyarət ediblər. Görüş zamanı fakültə rəhbərliyi tərəfindən dost və qardaş ölkədən gələn qonaqlara ölkəmizdəki təhsil mühiti, Azərbaycanın ilk universiteti olan BDU-nun tarixi və bu günü, eyni zamanda Kitabxanaçılıq-informasiya fakültəsi barədə geniş məlumat verilib.***



Termez Dövlət Universitetinin prorektoru Obid Şəfiyev Azərbaycanda və həmçinin ölkənin ən nüfuzlu ali təhsil müəssisəsi olan BDU-da olmaqlarından məmnunluğunu ifadə edib. Obid Şəfiyev eyni soya, ortaq tarixə və mədəniyyətə malik xalqlarımızın dostluq və qardaşlıq münasibətlərindən bəhs edərək özbəklərin hər zaman Azərbaycan ədəbiyyatına, mədəniyyətinə böyük maraq göstərdiyini vurğulayıb. Qardaş ölkələr arasında əlaqələrin möhkəmlənməsində Ulu öndər Heydər Əliyevin və Özbəkistanın keçmiş Prezidenti İslam Kərimovun tarixi xidmətlərini diqqətə çatdıran natiq hazırda Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin səyləri ilə dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını bildirib.

Son illər Azərbaycanla Özbəkistan arasında elmi əlaqələrin gücləndiyini, xüsusilə BDU ilə Özbəkistan universitetləri arasında əməkdaşlıq haqqında müqavilələrin imzalandığını qeyd edən Obid Şəfiyev Termez Dövlət Universitetinin İnformasiya texnologiyaları fakültəsi ilə BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsi arasında əlaqələrin qurulması, birgə elmi konfransların təşkili, müəllim-tələbə mübadiləsi və bu kimi digər məsələlərlə bağlı əməkdaşlıqda maraqlı olduqlarını qeyd edib. Daha sonra qonaqlar fakültədə tədris prosesi ilə tanış olublar. Termez Dövlət Universitetinin İnformasiya texnologiyaları fakültəsinin tələbələri ilə Kitabxanaçılıq-informasiya fakültəsinin professor-müəllim heyəti və tələbələri arasında diskussiya aparılıb.

# "Zəfərə doğru addım-addım" adlı tədbir

***Oktyabrın 14-də Kimya fakültəsində "Şuşa ili"nə həsr olunmuş "Zəfərə doğru addım-addım" adlı tədbir keçirilib.*** Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb, sonra torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kimya fakültəsinin dekanı Fuad Kərimli Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində şanlı Zəfərinin tariximizə və xalqımızın üröyinə əbədi həkk olunduğunu vurğulayıb. "Şuşa ili" çərçivəsində keçirilən tədbirin gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını qeyd edib.

Tədbirdə Vətən müharibəsi iştirakçıları - Daxili Qoşunların ehtiyatda olan zabiti İsmayıl Hacıyev, Milli Ordunun ehtiyatda olan zabiti Elşən Cəbrayılov, Xüsusi Təyinatlı Qüvvələrin giziri Cavid Həsənov, baş çavuşu Fərid Bağırlı, Şərqşünaslıq fakültəsinin məzunu Fərid Mirzəyev, Kimya fakültəsinin məzunları Yusif Fərəcov və Şahin İbrahimov keçdikləri döyüş yolu barədə xatirələrini bölüşüb.

# "Ornitoloji problemlərin ekoloji aspektləri" mövzusunda dəyirmi masa

***Oktyabrın 11-də Biologiya fakültəsində görkəmli alim Qara Mustafayevin anım gününə həsr edilmiş "Ornitoloji problemlərin ekoloji aspektləri" mövzusunda dəyirmi masa keçirilib.***

Dəyirmi masada fakültə rəhbərliyi, Zoologiya və fiziologiya kafedrasının əməkdaşları, gənc tədqiqatçılar və magistrantlar iştirak ediblər. Fakültənin dekanı, professor Afət Məmmədova ölkənin ən məşhur təbiətşünası, biologiya elmləri doktoru, professor Qara Mustafayevin biologiya elminə verdiyi töhfələr haqda danışıb, onun fəaliyyətinin gənc bioloqlara örnək olduğunu deyib.

Zoologiya və fiziologiya kafedrasının müdiri, dosent Əbülfəz Tağıyev Qara Mustafayevin iştirakı ilə çəkilən "Təbiəti sevənlər" verilişindən fraqmentlər əsasında alimin həyat və fəaliyyəti barədə məlumat verib.

Daha sonra Azərbaycanda ornitologiyanın müasir vəziyyəti, ətraf mühit dəyişkənliklərinin quşların növ müxtəlifliyinə təsiri və s. məsələlər ətrafında müzakirələr aparılıb.

# Görkəmli elm xadimlərinin şəxsi kitabxanaları BDU-nun Elmi Kitabxanasına hədiyyə olunub

***Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının fondunun zənginləşdirilməsində uzun illər BDU-da çalışmış, elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş ziyalıların, elm və mədəniyyət xadimlərinin şəxsi kitabxanalarının hədiyyə edilməsi mühüm yer tutur.***

Son iki ildə AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor İsmət Nəcəfovun, tanınmış şərqşünas alim, akademik Vasim Məmmədəliyevin (432 nüsxə), bədii tərcüməçi və ədəbiyyatşünas alim, professor Pənah Xəlilovun (430 nüsxə), Azərbaycan kitabxanaşünaslıq elminin banisi, professor Abuzər Xələfovun (600 nüsxədən çox), kitabşünas alim, professor Bayram Allahverdiyevin (300 nüsxə) şəxsi kitabxanaları yaxınları tərəfindən Elmi Kitabxanaya bağışlanıb.

BDU-nun professor-müəllim heyətindən Təbiət fakültələri üzrə rus dili kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor Mikayıl Cəfərov (500 nüsxədən çox), Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor Rəbiyyət Aslanova (1500 nüsxədən çox) və başqaları şəxsi kitabxanalarından qiymətli nəşrləri Elmi Kitabxanaya hədiyyə ediblər.

# "Tarixi qələbənin siyasi-ideoloji əsasları: yeni reallıqlar və çağırışlar" mövzusunda dəyirmi masa

***Oktyabrın 13-də BDU-da Bakı Politoloqlar Klubunun təşkilatçılığı, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə icra olunan "Tarixi qələbənin siyasi-ideoloji əsasları: yeni reallıqlar və çağırışlar" layihəsi çərçivəsində tələbələr üçün dəyirmi masa keçirilib.***



Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi tələbələrinin və BDU Könüllülərinin iştirak etdiyi dəyirmi masada Bakı Politoloqlar Klubunun sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri Zaur Məmmədov, BDU-nun Jurnalistika fakültəsinin dosenti Vüqar Əliyev, BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi Mətin Məmmədli, siyasi araşdırmaçı Əhməd Əlili mövzu ətrafında çıxışlar edib, Azərbaycanın qələbəsinin regionda yeni reallıqlar yaratdığını diqqətə çatdırıblar.

Çıxışlarda qeyd olunub ki, Azərbaycan 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı qələbə qazanaraq özünün ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib. Son illər ərzində beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən sənədlərin qəbul edilməsi Prezident İlham Əliyevin ölkəmizin milli maraqlarına söykənən xarici siyasətinin nəticəsi idi. Ümumiyyətlə, Prezident İlham Əliyevin prinsipial mövqeyi və diplomatik fəaliyyəti Azərbaycanın Vətən müharibəsində Qələbəsini şərtləndirən amillərdən biri olub. Vətən müharibəsi dövründə bir sıra aparıcı beynəlxalq KİV-lərə müsahibələrində Prezident İlham Əliyevin dövlətçilik maraqlarına söykənən əsaslı fikirləri Azərbaycanın bu haqlı mübarizəsinə dəstək verən bir sıra ölkələrin, nüfuzlu xadimlərin, beynəlxalq ekspert və siyasətçilərin sayını daha da artırıb, Ermənistanın təcavüzkar siyasətinin ifşa olunması prosesini genişləndirərək informasiya müharibəsində də tarixi ədalətin Zəfər çaldığını göstərib.

Dəyirmi masa tələbələrin sualları əsasında diskussiya şəklində davam edib

# "Universitet kitabxanaları elmi kommunikasiyanın mərkəzi kimi" mövzusunda müzakirələr aparılıb

***Oktyabrın 13-də Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Universitet kitabxanaları elmi kommunikasiyanın mərkəzi kimi" mövzusunda elmi seminar keçirilib.***

Elmi seminarda Bakı Dövlət Universitetinin Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının dosenti Rəşad Qardaşov mövzu ilə bağlı məruzə edib. Məruzədə qlobal informasiya mühitinin yaratdığı şəraitdə müasir universitet kitabxanası modeli və bu modelin tələblərindən bəhs olunub.

XXI əsrdə informasiya texnologiyalarının, rəqəmsal məzmunlu informasiyaların inkişaf tendensiyasının və eyni zamanda dinamikasının ali məktəb kitabxanalarının fəaliyyətində tətbiqinin vacibliyi vurğulanıb. Tədqiqatçı araşdırmasında müasir universitet kitabxanasının fondunun formalaşması, sənəd-informasiya təminatı və bütünlükdə informasiya massivinin vektorial istiqamətlərinin müəyyənləşdirilməsini təhlilə cəlb edib. İşin təcrübi əhəmiyyəti nəzərə alınaraq, problem BDU-nun Elmi Kitabxanası və ADA Universiteti Kitabxanasının təcrübələri əsasında təhlil olunub. Məruzədə həmçinin modern universitet kitabxanasının modeli, strukturu, potensial imkanları və hədəfləri barədə məlumatlar diqqətə çatdırılıb. Universitet kitabxanalarının təhsilin və elmi tədqiqatların vahid informasiya platformasının formalaşmasındakı rolu, elmi kommunikasiyanın mərkəzi kimi mühüm əhəmiyyəti barədə beynəlxalq təcrübə haqqında məlumat verilib.

Elmi seminar müzakirələrlə davam etdirilib.

# Mədəniyyət Nazirliyi BDU-nun kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə məzunlarını işlə təmin edib

***Oktyabrın 6-da Azərbaycan Respublikasının Mədəniyyət naziri Anar Kərimov Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ölkə kitabxanalarında işlə təmin olunmaq üçün müsahibə yolu ilə seçilmiş kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası üzrə məzunları ilə görüşüb.***



Görüşdə çıxış edən nazir Anar Kərimov Mədəniyyət Nazirliyinin kitabxana-informasiya sahəsi üzrə apardığı islahatlardan bəhs edib. Bildirib ki, bu istiqamətdə prioritet məsələlərdən biri də müvafiq sahəni gənc və ixtisaslı kadrlarla təmin etməkdir: "Hazırda nazirliyin tabeliyində olan mərkəzləşdirilmiş kitabxana sistemlərində çalışan işçilərin 20 faizi ixtisaslı kadrlardır. Bu sahənin inkişafı üçün ən başlıca meyarlardan biri məhz peşəkar mütəxəssislərin cəlb olunmasıdır. Bu istiqamətdə şəffaflığı təmin etmək və müvafiq sahə üzrə əmək bazarında rəqabətin formalaşdırılması məqsədilə nazirliyin tabeliyində olan kitabxanalarda işəgötürmə prosesi artıq test və müsahibə mərhələsindən ibarət olmaqla imtahanla həyata keçiriləcək". Nazir vurğulayıb ki, artıq imtahan prosesini tənzimləyən qaydalar da təsdiq olunub: "Sizlər bu prosesin ilk iştirakçılarısınız. Əminəm ki, qazandığınız nəzəri təcrübə, əldə etdiyiniz bilik və peşə hazırlığınız vasitəsilə ölkədə kitabxana sahəsinin inkişafına öz töhfələrinizi verəcəksiniz".

Anar Kərimov çıxışının sonunda məzunları təbrik edərək onlara gələcək işlərində uğurlar arzulayıb.

BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı məzunların işlə təmin edilməsinə görə Mədəniyyət naziri Anar Kərimova minnətdarlığını bildirib. Vurğulayıb ki, Azərbaycanda kitabxana sahəsinə diqqət və qayğının ənənələri var: "Ulu öndərimiz Heydər Əliyev hər zaman kitabxana işinə, kitabxanaçı əməyinə yüksək qiymət verib. Bu ənənələr Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən layiqincə davam etdirilir. Bugünkü görüş məhz həmin ənənələrin davamıdır. İlk dəfədir ki, bizim fakültənin məzunlarının nazir səviyyəsində işə qəbulunun şahidi oluruq. Bu, həm də bizim üzərimizə məsuliyyət qoyur ki, daha peşəkar kadrlar hazırlayaq".

Görüşdə Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov çıxış edərək işlə təmin edilən məzunlara uğurlar arzulayıblar.

# "Qarabağ mühazirələri" layihəsinin növbəti qonağı Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid olub

***Oktyabrın 17-də BDU könüllülərinin "Qarabağ mühazirələri" adlı layihəsinin növbəti qonağı Azərbaycan Mətbuat Şurasının sədri, Əməkdar mədəniyyət işçisi, "525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, BDU-nun İctimai Nəzarət Şurasının üzvü Rəşad Məcid olub.***

Rəşad Məcid tədbir iştirakçılarına öz fəaliyyət sahələri barədə məlumat verib, Qarabağla bağlı uşaqlıq xatirələrini bölüşüb. Qeyd edib ki, o, Laçın rayonunun Ağoğlan kəndində dünyaya göz açıb, orta təhsilini Ağdamda alıb. 1979-cu ildə Şuşaya həsr olunmuş "Cıdır düzü" şeirini yazıb və tələbələr üçün səsləndirib.

Rəşad Məcid Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun 44 günlük Vətən müharibəsində qazandıqları Zəfərin tariximizə qızıl hərflərlə yazıldığını qeyd edib. Şuşaya bir neçə dəfə səfər etdiyini bildirən Rəşad Məcid 2021-ci ildə "Xaribülbül" musiqi festivalı çərçivəsində "Şuşa" şeirini yazdığını xatırladıb. Mədəniyyət adamlarının Qarabağa səfərləri zamanı neçə-neçə belə bədii nümunələrin yarandığını qeyd edən Rəşad Məcid Qarabağın ədəbiyyat tarixinə diqqət çəkib, musiqili və ədəbi festivalların bu ərazidə XIX əsrdən keçirildiyini vurğulayıb.

Daha sonra Laçın və Ağdama səfərlərindən bəhs edən Rəşad Məcid baba ocağına qayıdışı ilə bağlı xatirələrini bölüşüb, işğalçı ermənilərin həmin ərazilərdə törətdikləri vəhşiliklərdən danışıb. O, aparılan bərpa-quruculuq işləri nəticəsində Qarabağın regionun ən dilbər guşələrindən birinə çevriləcəyini bildirib.

Daha sonra Rəşad Məcid tələbələrin suallarını cavablandırıb.

Qeyd edək ki, layihənin məqsədi gənclərimizin tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi ilə bağlı məlumatlarını daha da zənginləşdirmək, onlarda vətənpərvərlik hisslərini gücləndirməkdir.

# Tələbələr üçün "Natiqlik və ictimai çıxış" mövzusunda təlim

***Oktyabrın 10-da BDU-nun Könüllüləri və Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin təşkilatçılığı ilə tələbələr üçün "Natiqlik və ictimai çıxış" mövzusunda təlim keçirilib.***

Şəxsi inkişaf üzrə ekspert, təlimçi Fəxri Məmmədzadənin iştirakı ilə keçirilən təlimin əsas məqsədi gənclərin natiqlik və kommunikasiya bacarıqlarının inkişafına dəstək olmaqdır.

BDU Könüllülərinin Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi üzrə sədri Səma İsazadə təlimin tələbələr üçün faydası barədə məlumat verib və təlimçini təqdim edib.



Fəxri Məmmədzadə gənclərə "Natiqlik nədir?", "Yaxşı natiq necə olmalıdır?" mövzularında məruzə deyib. Diskussiya şəraitində davam edən təlimin sonunda tələbələrin diqqətini yoxlamaq üçün maraqlı oyun keçirilib.

# Tarix fakültəsinin birinci kurs tələbələri BDU-nun Heydər Əliyev muzeyini ziyarət ediblər

***Oktyabrın 11-də Tarix fakültəsinin I kurs tələbələri Bakı Dövlət Universitetinin Heydər Əliyev muzeyini ziyarət ediblər.***



Muzeyin direktoru Zəkiyyə Kərimova qeyd edib ki, BDU-nun Heydər Əliyev Muzeyi 1997-ci ildə Ulu Öndərin şəxsi razılığı ilə yaradılıb və fəaliyyətə başlayıb. Bildirilib ki, muzeydə BDU-nun dünya şöhrətli məzunu və fəxri doktoru olan böyük şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən sənədlər nümayiş olunur.

Muzeydə Heydər Əliyevin gərgin fəaliyyəti ilə yanaşı, onun ömrünün ən incə məqamlarından bəhs edən sənədlər, fotoşəkillər, bu böyük şəxsiyyət haqqında Universitet alimlərinin yazdığı kitablar tələbələrdə böyük təəssürat yaradıb.

# "Şuşa şuşalı tələbələrin gözü ilə"



***Oktyabrın 12-də Sosial elmlər və psixologiya fakültəsində "Şuşa şuşalı tələbələrin gözü ilə" adlı tədbir keçirilib.***

Əvvəlcə Vətənimizin ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən fakültənin dekanı Rövşən Cavadov bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz 44 günlük Vətən müharibəsində şanlı Zəfərə imza ataraq 30 il düşmən tapdağında olan torpaqlarımızı azad edib. Doğma Qarabağımızda, müqəddəs Şuşamızda üçrəngli bayrağımız əbədi ucaldılıb. 2022-ci ilin ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şuşa ili" elan edilməsi hər kəsdə böyük qürur və fəxarət hissi yaradıb. İndi Qarabağımız böyük bir quruculuq, bərpa meydanıdır. Rövşən Cavadov tələbələrə tariximizi yaxşı öyrənməyi, erməni vandallarının zaman-zaman törətdikləri qətliamları unutmamağı tövsiyə edib.

Sonra əslən Şuşadan olan Psixologiya ixtisası üzrə III kurs tələbəsi Şahlar Babayev doğma şəhəri ilə bağlı təəssüratlarını bölüşüb. Qeyd edib ki, bu ilin may ayında BDU rəhbərliyinin təşkilatçılığı ilə Universitetin bir qrup tələbəsi Şuşaya səfər edib. Şahlar Babayev həmin tələbələrdən biri olduğunu, Şuşa ilə görüşün qürurverici və unudulmaz anlarla yadda qaldığını bildirib. O, səfər zamanı ermənilər tərəfindən dağıdılmış evlərinə baş çəkdiyini vurğulayıb, orada lentə aldığı videogörüntü və şəkillərdən ibarət slaydı tədbir iştirakçılarına təqdim edib.

# BDU-nun nəzdində "Gənc istedadlar" liseyində "Nə? Harada? Nə zaman?" intellektual yarışı



***Oktyabrın 10-da BDU-nun Könüllüləri və BDU-nun nəzdində "Gənc istedadlar" liseyinin birgə təşkilatçılığı ilə liseyin 5-ci sinif şagirdləri arasında "Nə? Harada? Nə zaman?" intellektual yarışı keçirilib. Vətən müharibəsinin ikinci ildönümünə həsr olunmuş yarış hər birində 15 sual olmaqla 2 turda təşkil olunub.***

Yarışın keçirilməsində əsas məqsəd şagirdlərin dünyagörüşünün, zehni inkişafının stimullaşdırılması, Vətən müharibəsi haqqında biliklərinin artırılması, müharibə qəhrəmanlarının daha yaxından tanıdılmasıdır.

Yarışda 6 komanda iştirak edib. Yarışın qalibi "Qarabağ" komandası olub. Qalib komanda üzvləri sertifikatlarla təltif olunublar.

# "SABAH.lab" Akselerasiya Mərkəzinin məlumat sessiyası

***Oktyabrın 13-də BDU-da Azərbaycan Respublikası Təhsil İnstitutunun nəzdində fəaliyyət göstərən "SABAH.lab" Akselerasiya Mərkəzinin əməkdaşları ilə birlikdə tələbələr üçün məlumatlandırma sessiyası təşkil olunub.***

Tədbirin keçirilməsində məqsəd tədris və inkubasiya yönümlü startapların yaradılması, tələbələrə gənclərin yerli və qlobal innovativstartap layihələrinə cəlbi, yeni startapların qurulması və inkişafı, investorların cəlb edilməsi, layihələrin dünya bazarına çıxarılması, startap komandaların təşkili haqqında ətraflı məlumat verməkdir.

İnteraktiv şəkildə keçirilən sessiyada tələbələri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, "SABAH.lab" Akselerasiya Mərkəzi Elm və Təhsil Nazirliyinin dəstəyi ilə 2021-ci ilin oktyabr ayında yaradılıb. Mərkəzin fəaliyyəti iqtisadiyyatın müxtəlif sahələrində innovativ şirkətlərin yaradılması və inkişafına yönəlmiş startapların dəstəklənməsini əhatə edir.

# BDU tələbələri sahilyanı ərazidə təmizlik aksiyasında iştirak ediblər



***Oktyabrın 12-də Ekologiya və torpaqşünaslıq fakültəsinin tələbələri Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə dəstəyi ilə sahilyanı ərazidə növbəti təmizlik aksiyasında iştirak ediblər. Təmizlik aksiyası Xəzər dənizinin Hövsan sahillərində keçirilib.***

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və gənclər arasında ekoloji maarifləndirməni artırmaqdır.

# BDU-nun şəhid məzunu Ataməli Musaoğlunun ailəsi ziyarət olunub

*Oktyabrın 7-də BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov, sosial məsələlər üzrə dekan müavini Nəzakət Kərimova, Universitet Tələbə Həmkarlar Komitəsinin sədri Hacıbaba Mustafayev 44 günlük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş Ataməli Musaoğlunun ailəsini ziyarət ediblər.*

Fakültə dekanı Rövşən Cavadov qeyd edib ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə mütəmadi olaraq baş çəkmək, onlara təsəlli vermək, problemləri ilə maraqlanmaq hər birimizin borcudur. BDU əməkdaşları da öz şəhid məzunlarının xatirəsini həmişə ehtiramla anır, ailələrini vaxtaşırı ziyarət edirlər.

Görüşdə Ataməli Musaoğlunun Universitetdə təhsil aldığı müddətdə özünün nümunəvi davranışı, ədəb-ərkanı ilə seçildiyi, müəllimlərinin, dostlarının qəlbində əbədi yaşayacağı diqqətə çatdırılıb.

Qeyd edək ki, Atamәli Musaoğlu 2012 - 2016-ci illərdə BDU-nun Sosial elmlər və psixologiya fakültəsində təhsil alıb. Psixoloq kimi fəaliyyət göstərən Atamәli Musaoğlu 2020-ci ildə könüllü olaraq ordu sıralarına qoşulub və oktyabrın 16-da Ağdərə istiqamətində gedən döyüşlərdə yaralı dostunu xilas edərkən düşmən snayperinin açdığı atəş nəticəsində şəhidlik zirvəsinə ucalıb.



# Şəhid məzunumuz Vüqar Məmmədovun məzarı ziyarət olunub

*Oktyabrın 11-də Şərqşünaslıq fakültəsinin və Tələbə Həmkarlar İttifaqı Komitəsinin əməkdaşları Aprel döyüşlərinin iştirakçısı və Vətən müharibəsi şəhidi Vüqar Məmmədovun məzarını ziyarət ediblər.*

Şəhidin məzarı üzərinə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad edilib.

Vüqar Məmmədov 2011-2015-ci illərdə BDU-nun İlahiyyat fakültəsində təhsil alıb. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunlarında həqiqi hərbi xidmətə başlayan Vüqar Məmmədov Aprel döyüşlərində topçu və manqa komandiri kimi iştirak edib.

O, Vətən müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanıb. Vüqar Məmmədov 2020-ci ilin oktyabrın 9-da Füzulinin azad edilməsi uğrunda əməliyyatda düşmən snayperinin açdığı atəş nəticəsində qəhrəmancasına şəhid olub.

# "Milli-mənəvi dəyərlərimiz varlığımızdır" mövzusunda tədbir

*Oktyabrın 7-də BDU-da Kitabxanaçılıq-informasiya fakültəsi və "Dialoq və İnkişaf Naminə" İctimai Birliyinin (DİNİB) birgə təşkilatçılığı ilə "Qloballaşma dövründə milli-mənəvi dəyərlərin qorunması" layihəsi çərçivəsində tədbir keçirilib. Əvvəlcə Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.*

Tədbiri giriş sözü ilə DİNİB-in idarə heyətinin üzvü Günay Hacıyeva açaraq layihə haqqında geniş məlumat verib. Qeyd edib ki, öz tarixinə, milli dəyərlərinə, inanclarına dönük çıxan millətlər və dövlətlər tarixi prosesdə "əriyib" yox olur və tarix səhnəsindən birdəfəlik itirlər. Ona görə də bir xalqın mövcudluğunun qorunub saxlanması üçün hər şeydən öncə onun milli-mənəvi dəyərlərini qorumaq lazımdır.

"Dialoq və İnkişaf Naminə" İctimai Birliyinin sədri Çingiz Bayramov layihənin əhəmiyyətindən danışaraq bildirib ki, hər bir ölkə və xalq milli-mənəvi dəyərləri hər şeydən üstün tutmalı, bu dəyərləri hər zaman müdafiə etməlidir: "Qloballaşma heç də digər xalqlara məxsus dövlət-din modellərinin, adət-ənənələrin, milli mentalitetimizə xas olmayan dəyərlərin ölkəmizə idxalı deyil. Biz qloballaşma deyəndə beynəlxalq əməkdaşlığı və səmimi dostluğu nəzərdə tutmaqla yanaşı, milli dövlətçiliyimizə, mənəvi dəyərlərimizə, Ulu öndər Heydər Əliyevin bizə əmanət etdiyi azərbaycançılıq məfkurəsinə sahib çıxmağı, milli kimliyimizi qorumağı nəzərdə tuturuq".

Tədbirdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun aparıcı məsləhətçisi Elgiz İmanlı, İqtisadi Araşdırmalar və Təhlil Mərkəzinin rəhbəri Radil Fətullayev, DİNİB İdarə Heyətinin üzvü Aydın Talışinski çıxış edərək Azərbaycanda milli-mənəvi dəyərlərin qorunmasında dövlət siyasətinin əhəmiyyətindən bəhs ediblər. Çıxışlarda vurğulanıb ki, Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin qorunub saxlanılmasına və dünyada təbliğinə xüsusi həssaslıqla yanaşırlar.

Görüş diskussiya şəklində davam edib, tələbələrin çoxsaylı sualları cavablandırılıb.

# Fizika fakültəsində Ümumdünya Kosmos Həftəsinə həsr olunmuş elmi seminar keçirilib

*Oktyabrın 10-da Fizika fakültəsində Ümumdünya Kosmos Həftəsinə həsr olunmuş elmi seminar keçirilib.*

Seminarda Astrofizika kafedrasının dosenti Bayram Rüstəmov "Ulduzlar harada və necə yaranır?" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, hər il 4-10 oktyabr tarixlərində Ümumdünya Kosmos Həftəsi qeyd olunur.

4 oktyabr 1957-ci ildə Yerin ilk süni peykinin orbitə buraxılması ilə bağlı olan Ümumdünya Kosmos Həftəsinin qeyd olunması barədə qərar 2000-ci ildə BMT Baş Assambleyasının bəyannaməsi ilə qəbul edilib.

Bayram Rüstəmov diqqətə çatdırıb ki, XX əsrdə astrofizikanın ən mühüm nailiyyətlərindən biri ulduzların da insanlar kimi doğulub, yaşayıb və ölməsi barədə nəticədir. Məruzədə ulduzların bizim qalaktikada harada və necə yarandığı barədə müasir astrofiziki təsəvvürlərin formalaşma mərhələləri xronoloji ardıcıllıqla, müşahidə faktları əsasında təsvir olunub. Ulduz göyünün sirri, astronomik tədqiqatların müasir elmi dünyagörüşün formalaşmasında rolu haqqında mülahizələr təqdim edilib, ulduz və planetlərin yaranması probleminin öyrənilməsi tarixi elmi-populyar şəkildə şərh olunub.

Bayram Rüstəmov həmçinin kainatın yaranma tarixinin müəyyən edilməsi üzrə astrofiziki və geofiziki araşdırmaların nəticələrinə əsasən vahid fikrin formalaşdığını bildirib. O, ulduzlar aləmində baş verən maraqlı proseslər, Süd yolu, ulduz topluları, səmada müşahidə olunan fərqli işıqlanmaların səbəbləri və s. barədə ətraflı məlumat verib.

Sonda məruzə ətrafında müzakirələr aparılıb, məruzəçi iştirakçıların suallarını cavablandırıb.

# Lefke Avropa Universitetinin dosentinin Filologiya fakültəsində elmi seminarı

*Oktyabrın 19-da Filologiya fakültəsində Şimali Kipr Türk Cümhuriyyətinin Lefke Avropa Universitetinin dosenti Nazim Muradovun "İsmayıl bəy Qaspıralının "Bəlai-İslam" əsəri və çağdaş müsəlman dünyasındakı təzahürləri haqqında" adlı elmi seminarı keçirilib.*

Seminarı giriş sözü ilə açan Filologiya fakültəsinin dekanı Elçin Məmmədov Nazim Muradovun həyatı və fəaliyyəti haqqında məlumat verib, BDU-nun Filologiya fakültəsi ilə bağlılığından söz açıb.

Sonra söz məruzəçiyə verilib. O, XIX əsr türk və müsəlman dünyasının məşhur fikir adamlarından olan İsmayıl bəy Qaspıralının həyat və yaradıcılığı ilə bağlı mühüm məqamlara toxunub.

Bildirib ki, türkçülük şüarı olan "dildə, fikirdə, işdə birlik" ideyasının reallaşmasına var qüvvəsi ilə çalışan İsmayıl bəy Qaspıralının bədii-publisistik yaradıcılığının və ictimai fəaliyyətinin ana xəttində milli ideallarn təbliği və təbliqi dayanır.

Məruzəçi həm də mütərəqqi fikirlərin həyata keçməsində böyük xidmətləri olan ziyalının yaradıcılığında qadınlara münasibətdən bəhs edib. Qeyd olunub ki, yazıçının roman və hekayələrində qadın problemi bədii yanaşmada öz həllini tapırdısa, onun publisistikasında bu məsələyə elmi-fəlsəfi və ictimai-siyasi münasibət bildirilir.

Sonra mövzu ətrafında çıxışlar edilib, məruzəçiyə suallar ünvanlanıb. Elmi seminar müzakirələrlə yekunlaşıb.

# Filologiya fakültəsinin tələbələri Hüseyn Cavidin Ev Muzeyini ziyarət ediblər



*Oktyabrın 17-də BDU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Filologiya fakültəsinin tələbələrinin görkəmli şair və dramaturq Hüseyn Cavidin Ev Muzeyinə ekskursiyası təşkil olunub.*

Ziyarətdə Hüseyn Cavidin həyat və yaradıcılığı, muzeyin yerləşdiyi binanın tarixi əhəmiyyəti və eksponatları barədə tələbələrə geniş məlumat verilib. Tələbələr muzeyin fəaliyyət göstərdiyi illər ərzində Cavid yaradıcılığının təbliği məqsədilə həyata keçirilən tədbirlər və nəşrlər barədə də məlumatlandırılıblar.

Sonda isə tələbələr Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun sərgi zalı ilə tanış olublar.

# "Gənc istedadlar" liseyinin məzunu: "Tək məqsədim ölkəmizə kimya sahəsi üzrə Nobel mükafatını gətirməkdir"

***Ölkəmizdə istedadlı şagirdlərin üzə çıxarılması, onların bilik və qabiliyyətlərinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində məktəblilərimiz respublika fənn olimpiadalarında, eləcə də beynəlxalq səviyyəli bilik yarışlarında iştirak edir və uğurları ilə təhsilimizə öz töhfələrini verirlər. İstedad və qabiliyyətləri ilə xarici ölkələrdən olan həmyaşıdlarından geridə qalmayan gənclərimiz üçün bilik yarışları, olimpiadalar həm də bir növ həyat məktəbidir. Onların uğurlarının təməli məhz bu məktəbdə qoyulur.***

Oxucularımıza təqdim etdiyimiz növbəti gənc çox istedadlıdır. Düşüncə tərzi, məsələlərə aydın, fərqli yanaşması, xeyli maraqlı fikirləri ilə seçilir. Daha ətraflı özü ilə söhbətdən öyrənəcəyik.

Beləliklə, müsahibimiz Sinqapur Milli Universitetinin tələbəsi Nəriman Şirinlidir.

*Tanıtım: 2005-ci il aprelin 3-də Bakı şəhərində anadan olub. İbtidai təhsilini 3 və 51 nömrəli məktəblərdə alıb. 5-ci sinifdə Bakı Dövlət Universitetinin nəzdində "Gənc istedadlar" liseyinə qəbul olunub. 2022-ci ildə liseyi bitirib və hazırda Sinqapurun Milli Universitetində (NUS) "Kimya mühəndisliyi" və "Kimya elmləri" ixtisasları üzrə təhsil alır. O, bir sıra beynəlxalq olimpiadalarda ölkəmizi təmsil edərək uğurlar qazanıb. Olimpiada hərəkatına ilk marağı da hələ orta məktəbin aşağı siniflərindən başlayıb...*



*Sinqapur Milli Universitetinin tələbəsi Nəriman Şirinli: "Məni rəqiblərimdən fərqləndirən, bugünkü uğursuzluğuma sabahkı uğurumun başlanğıcı kimi baxmağımdır"*

- 7-ci sinifdən 11-ci sinfə qədər kimya fənni üzrə yerli və beynəlxalq olimpiadalarda iştirak eləmişəm. Kimya fənni üzrə Azərbaycanın qatıldığı 3 beynəlxalq kimya olimpiadasının hər birindən 2 medal olmaqla, toplam 6 medal qazanaraq ölkəmizi uğurla təmsil etmişəm. 2018-ci ildə IV Respublika Fənn müsabiqəsində gümüş, 2019-cu ildə Respublika fənn olimpiadasında gümüş, 2020-ci ildə Respublika fənn olimpiadasında qızıl, 2021-ci ildə "Sabahın alimləri" Respublika müsabiqəsində qızıl, 2021-ci ildə Respublika fənn olimpiadasında qızıl medallar almış, 2022-ci ildə isə Respublika fənn olimpiadasında qızıl medalla yanaşı, "Birincilərin birincisi" nominasiyasının qaliblərindən olmuşam.

Bundan əlavə, 2020-ci ildə Beynəlxalq Meqapolislər olimpiadasında bürünc, 2021-ci ildə Beynəlxalq Mendeleyev Kimya olimpiadasında bürünc, 2021-ci il Dünya Kimya olimpiadasında bürünc, 2021-ci ildə Beynəlxalq Meqapolislər olimpiadasında gümüş, 2022-ci ildə Beynəlxalq Mendeleyev Kimya olimpiadasında gümüş və nəhayət, 2022-ci ildə Dünya Kimya olimpiadasında gümüş medala layiq görülmüşəm.

***- Ali təhsil üçün Sinqapuru seçmisiniz. Bunu necə izah edərdiniz? Kimlərinsə məsləhəti ilə, yoxsa özünüz belə qərar verdiniz. Bu ölkədə təhsil sizin üçün nə dərəcədə cəlbedicidir?***

- NUS mənim 9-cu sinifdən ən çox qəbul olunmaq istədiyim universitet idi. Belə ki, o "QS World University Rankings"-ə görə ümumi dünya sıralamasında 11-ci, daha önəmlisi, seçdiyim ixtisas olan "Kimya mühəndisliyi" ixtisas hazırlığı üzrə dünya üçüncüsüdür. Bundan əlavə, NUS-un qəbul prosesində dərsdənkənar məşğələlər əvəzinə, olimpiada nəticələrini vacib sayması mənim NUS-ə sənəd vermə səbəblərimdən biri oldu. Çünki bu universitetin qəbul prosesi sırf sizin akademik göstəricilərinizdən asılıdır.

***- İxtisasınız barədə nə deyə bilərsiniz? Seçdiyiniz ixtisas ölkəmiz üçün nə dərəcə prioritetdir?***

- Öncədən də qeyd etdiyim kimi, "Kimya mühəndisliyi" (əsas ixtisas) və "Kimya elmləri" (ikinci ixtisas) ikili ixtisasları üzrə təhsil alıram. Ölkəmizin neft sənayesindəki inkişafını və XXI əsrin tələblərini nəzərə alaraq deyə bilərəm ki, "Kimya mühəndisliyi" ixtisası ölkəmiz üçün ən prioritet ixtisaslardandır. Təsadüfi deyil ki, "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin imzaladığı "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nda yer alan prioritet ixtisaslardan biri də "Kimya mühəndisliyi"dir. "Kimya elmləri" sahəsinin vacibliyini isə qısa bir müddətdə dünyada yaranan COVID-19 pandemiyası üçün hazırlanmış vaksinlər sübut edir.

***- Universitetdə dərslər başlayıb. Daha çox hansı formata - məsafədən və ya hibrid modelə üstünlük verilir?***

- Universitetdə dərslər hibrid formada keçirilir. Tələbənin vaxtını nəzərə alaraq bəzi asan dərslərdə professorlar online dərslərə qatılma məcburiyyəti qoymur və universitet dərsləri "record" edərək bizim şəxsi kabinetimizə yerləşdirir.

***- Həyatınızda beynəlxalq olimpiadaların rolunu necə qiymətləndirirsiniz?***

- 7-ci sinifdə ilk dəfə biliyimi sağlam rəqabət mühitində yoxlamaq qərarı verəndə bir gün beynəlxalq olimpiadaya qatılmağı qarşıma məqsəd olaraq qoymuşdum. 10 və 11-ci siniflərdə beynəlxalq olimpiadalardan medal qazanaraq bu məqsədimə nail oldum. Bu olimpiadalardan qazandığım medallar məni seçdiyim ixtisas olan "Kimya mühəndisliyi" üzrə dünya reytinq sıralamasında ilk 3-lükdə yer alan NUS universitetinə qəbul prosesində çox kömək oldu. Lakin mənim fənn olimpiadalarına olan sevgim, sadəcə nüfuzlu universitetlərə qəbulu asanlaşdırmaq ilə bağlı deyil. Qeyd etdiyim kimi, bu yola başlayanda 7-ci sinif şagirdi idim və onda hələ ki, universitet barədə düşünmürdüm. Fənn olimpiadaları şagirdlərə sağlam rəqabət mühitində öz istedadlarını kəşf etmək imkanı yaratmaqdan əlavə, sizinlə eyni fənnə marağı olan şagirdlərlə əlaqələr qurmağa, onlarla çətin məsələlər və ya mövzuları müzakirə etməyə, məktəb proqramında olmayan ali mövzularla bağlı çətinləşdirilmiş məsələlər üzərində düşünməyə imkan yaradır. Bu da öz növbəsində sizin gələcəyin tədqiqatçısı kimi formalaşmağınıza gətirib çıxarır.

***- Olimpiada qalibi kimi uğurlarınızın sirrini necə izah edərdiniz?***

- Uğurumun sirri məncə, əzmimdir. Olimpiada hərəkatı çox uzun bir prosesdir. Şagirdlər demək olar ki, hər ay Təhsil İnstitutu tərəfindən hazırlanmış beynəlxalq olimpiadalara seçimlər və ya dərslərə qatılmaq üçün keçirilən imtahanlarda iştirak edirlər. Bu imtahanların bir neçəsində uğursuz olsanız, bu o demək deyil ki, bu yolu davam edə bilməyəcəksiniz. Hər kəs ən azı bir imtahanda uğursuz olur. Məni rəqiblərimdən fərqləndirən bugünkü uğursuzluğuma sabahkı uğurumun başlanğıcı kimi baxmağımdır.

***- Sizcə, olimpiadalara hazırlığa hansı yaşdan başlanmalıdır? Bu barədə şagirdlərə nə kimi tövsiyələriniz var?***

- Məncə, bu şagirdin qatıldığı fəndən asılı olaraq dəyişir. Riyaziyyat fənni üçün VI, təbiət elmləri üçün VII və humanitar fənlər üçün VIII-IX siniflərdən başlamaq şagird üçün üstünlükdür. Çünki qeyd etdiyim siniflərdən olan şagird Respublika fənn müsabiqə və olimpiadalarında iştirak edə bilir.

Gec başlamaq rəqiblərinizin sizdən "1 il daha çox məsələ işləməsi deməkdir". Şagirdlərə çalışmalarından əlavə tək tövsiyəm əzmli olmalarıdır. Kimya fənnindən olimpiadalara qatılan şagirdlərə isə tövsiyəm ingilis dili bacarıqlarını da inkişaf etdirmələridir. Çünki ölkəmizdə hələ ki, kimya fənnindən olimpiada resursları məhduddur. Xarici olimpiadaların suallarının işlənilməsi inkişaf baxımından çox önəmlidir.

***- Gələcək planlarınız barədə nə deyə bilərsiniz?***

- Olimpiadalarda iştirak etməyə başladığım gündən tək məqsədim ölkəmizə kimya sahəsi üzrə Nobel mükafatını gətirməkdir. Gələcəkdə kimya mühəndisliyi, yoxsa kimya sahəsi üzrə davam edəcəyimi zaman göstərəcək, amma hər iki sahədə hələ kəşf edilməyən çox şeyin olduğuna inanıram.

*"Azərbaycan müəllimi" qəzeti*

*5 oktyabr 2022-ci il*

# BDU-nun tələbə və əməkdaşları Gənclər Fondunun qrant müsabiqəsinin qalibi olublar

***BDU-nun tələbə və əməkdaşlarının təqdim etdiyi 4 layihə Azərbaycan Respublikası Gənclər Fondunun "İdeyanı reallaşdır 2022" gənclərin fərdi layihələri üzrə qrant müsabiqəsində qalib olub.***

BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi (TETYM) tərəfindən təqdim edilmiş iki layihə müsabiqənin "İnnovativ gənclik" qrantı üzrə "Böyük qayıdış innovasiyaları" və "Dördüncü Sənaye İnqilabı təşəbbüsləri" mövzularında qrant əldə edib. Təqdim edilmiş layihələr "Qarabağın "ağıllı kənd" konsepsiyası əsasında qurulmasında "yaşıl" və "aqrar" texnologiyaların tətbiqi" mövzusuna aid olub. Yaxın zamanda TETYM-də hər iki layihənin prototipinin hazırlanmasına başlanacaq. Prototiplərin hazırlanmasında Fizika və Kimya fakültələrinin tələbələri iştirak edəcək. Hazırlanacaq prototiplərin Qarabağın "ağıllı kənd" konsepsiyası əsasında qurulan müxtəlif bölgələrində tətbiq edilməsi nəzərdə tutulur.

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının əməkdaşı Orxan Güləhmədov tərəfindən təqdim edilmiş "İnnovativ Gənc Mühəndislər - tərsinə mühəndislik biliklərinin gənclərə aşılanması" adlı layihə müsabiqənin "İnnovativ gənclik" kateqoriyası üzrə qalib olub. Layihənin əsas məqsədi gənclərin elmi-texniki, praktiki bacarıqlarını və ümumilikdə intellektual səviyyəsini inkişaf etdirmək, dövlət gənclər siyasətinin reallaşdırılmasına dəstək olmaq, gənclərdə yaradıcılıq işlərinə marağı artırmaq və onların asudə vaxtlarını səmərəli keçirməsini təşkil etməkdir.

Coğrafiya fakültəsinin I kurs magistrantı Kəmalə Məmmədova tərəfindən təqdim edilmiş "BrainStorm" adlı layihə isə müsabiqənin "Gəncdən gəncə" kateqoriyası üzrə qalib olub. Layihə həvəskar gənclər üçün şahmat, debat və STEAM üzrə 3 günlük intellektual gecənin keçirilməsindən ibarətdir.

# Dr. Bahadır Avşar tələbələrlə görüşüb

***Oktyabrın 13-də Jurnalistika fakültəsində TRT-nin sosial media və xəbər mütəxəssisi, Türkiyənin tanınmış media araşdırmaçısı Bahadır Avşarla görüş keçirilib.***

Əvvəlcə giriş sözü ilə çıxış edən fakültə dekanı Vüqar Əliyev görüşün məqsədi ilə bağlı məlumat verərək qonağı təqdim edib.



B.Avşar jurnalistikanın tarixi, nəzəriyyəsi və müasir vəziyyəti haqqında bəhs edib, praktik jurnalist biliklərini paylaşıb.

TRT kanallarının xüsusiyyətləri, xəbərçiliyin əsasları, yeni media, sosial media, internet televiziya kanallarının iş prinsipləri haqqında da müəllim və tələbələri məlumatlandırıb. O, eyni zamanda “TRT Gələcəyin iletişimcileri” yarışmasının keçirildiyini vurğulayıb və tələbələrin adı çəkilən yarışmaya qatılmalarını tövsiyə edib.

Görüş Jurnalistika fakültəsi ilə AzTV-nin Teleradio Akademiyası arasında imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində gerçəkləşdirilib.

Qeyd edək ki, Rəqəmsal diplomatiya sahəsində doktorluq dərəcəsi almış Bahadır Avşar uzun illər Türkiyədə bir sıra dövlət qurumlarında media və ictimaiyyətlə əlaqələr üzrə çalışıb. 2015-ci ildən etibarən TRT-nin Baş katibliyində araşdırmaçı kimi fəaliyyət göstərir və jurnalistikanın müxtəlif istiqamətləri üzrə təlimlər keçirir.

# BDU könüllüləri Azərbaycan İstiqlal Muzeyini ziyarət ediblər



***Oktyabrın 25-də Geologiya fakültəsi üzrə könüllüləri Azərbaycan İstiqlal Muzeyini ziyarət ediblər.***

Muzeydə xalqımızın qədim dövrlərdən indiyə kimi azadlıq, müstəqillik uğrunda mübarizəsinə dair 20000-dək eksponat nümayiş olunur. Qeyd olunub ki, muzeyin yaradılmasında məqsəd Azərbaycan xalqının istiqlalı uğrunda apardığı mübarizənin mərhələlərini ardıcıl əks etdirməkdir.

Tələbələr nadir sənədlər, fotoşəkillər, numizmatik kolleksiyalar, bədii əsərlər və digər əşyalar ilə tanış olublar.

# BDU-nun SABAH qruplarının 3 komandasından İT üzrə bilik yarışmasında uğurlu nəticə

***Oktyabrın 26-da Elm və Təhsil Nazirliyinin SABAH qrupları layihəsi çərçivəsində "Şuşa ili"nə həsr olunmuş İT üzrə bilik yarışmasının final mərhələsi başa çatıb.***



Bilik yarışmasının final mərhələsində 5 saat ərzində 9 alqoritmik məsələnin C, C++, Java və ya Python proqramlaşdırma dillərində həll etmək tapşırıqları verilib.

Bilik yarışmasında BDU, ADNSU, ADPU, AzTU və BMU-nun Riyaziyyat müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi, Kompüter elmləri, İnformasiya texnologiyaları, İnformasiya təhlükəsizliyi, Kompüter mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, Elektronika telekommunikasiya və radiotexnika və digər ixtisaslarında təhsil alan SABAH qrupları tələbələrindən ibarət 92 komanda iştirak edib.

BDU-nun 3 komandası yarışmada uğurlu nəticələr əldə edib. Belə ki, BDU-nun SABAH qruplarının "CodeNinja" və "SABAHTech" komandaları yarışmada II yerə, "OneZero" komandası isə III yerə layiq görülüb.

Qeyd edək ki, İT üzrə bilik yarışmasının təşkil edilməsində məqsəd İT sahəsinə olan marağın, tələbələrin sağlam rəqabət şəraitində elmi araşdırma fəaliyyətinə təşviq edilməsi, istedadlı gənclərin elmi-yaradıcılıq potensialının üzə çıxarılması və nümayiş etdirilməsi üçün əlverişli şəraitin yaradılmasından ibarətdir.

# Mədəniyyət-yaradıcılıq Mərkəzi Hüseyn Cavidin "Ana" faciəsini tamaşaya qoyub



***Oktyabrın 27-də BDU-nun Mədəniyyət-yaradıcılıq Mərkəzi Azərbaycanın görkəmli dramaturqu Hüseyn Cavidin "Ana" mənzum faciəsini tamaşaya qoyub.*** Tamaşa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 24 sentyabr tarixli Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, dramaturq Hüseyn Cavidin anadan olmasının 140 illiyinin keçirilməsi haqqında Sərəncamına uyğun hazırlanıb.

BDU-da tələbələrin iştirakı ilə tamaşanın premyerası keçirilib.

Əvvəlcə filologiya üzrə fəlsəfə doktoru Etibar Talıblı Cavid irsinin bədii, fəlsəfi çalarları barədə tələbələrə ətraflı məlumat verib. O qeyd edib ki, Hüseyn Cavid Azərbaycan ədəbiyyatının nəhəng simalarından biridir. Cavid irsinə ən böyük qiymət Ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1981-ci ildə verilib. Məhz həmin vaxt Hüseyn Cavidin 100 illiyinin dövlət səviyyəsində keçirilməsi üçün Sərəncam imzalanıb, dahi şairin nəşi uzaq Sibir çöllərindən Naxçıvana gətirilib, onun əsərlərinin külliyyatı çap olunub. Cavid irsinə böyük qayğı hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir.

Daha sonra tamaşaya baxış keçirilib.

Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru Mədəniyyət-yaradıcılıq Mərkəzinin əməkdaşı Vahid Orucoğludur. Rolları Universitetin tələbələri Fidan Sultanova, Ramazan Ramazanzadə, Fidan Əlizadə, Eltac Abbasov, Balahüseyn Şıxıyev, Yunis Əhmədov ifa ediblər.

Böyük dramaturq Hüseyn Cavidin "Ana" əsəri azərbaycanca yazılmış ilk mənzum dram əsəri sayılır. Şair-dramaturq həmin səhnə əsərini 1910-cu ildə tamamlayıb. Dramın qəhrəmanı Səlma ana obrazının timsalında mərdlik, nəciblik, sədaqət duyğuları tərənnüm olunub.

# Fizika fakültəsində işığın qeyri-xətti qarşılıqlı təsir prosesləri müzakirə olunub

***Oktyabrın 27-də Fizika fakültəsində elmi seminar keçirilib.***



Seminarda Optika və molekulyar fizika kafedrasının elmlər doktoru proqramı üzrə doktorantı Nəzakət Kərimli "İşığın koherent anti-Stokes səpilməsi zamanı qeyri-xətti qarşılıqlı təsir prosesinin optimal parametrləri" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, son 20 ildə aparılan elmi araşdırmalar Raman spretkroskopiyasının noninvaziv, zədələyici olmayan tədqiqat metodu olduğundan xəbər verir. Proses işığın mühitdən qeyri-elastiki səpilməsi zamanı mühitin, yəni bioloji obyektlərin spesifik elementlərinin, həmçinin dərman maddələrinin tərkib hissələrinin araşdırılmasına imkan verir. Bu baxımdan qeyri-xətti proseslərdən olan koherent anti-Stokes dalğasının səpilməsi tədqiqat obyekti olaraq maraq doğurur.

Tədqiqatın məqsədi analitik yolla koherent anti-Stokes dalğasının qeyri-xətti mühitə səpilməsi prosesinə təsir edən parametrləri müəyyən etməkdir. Təhlil sabit intensivlik metodu ilə aparılıb. Qeyri-xətti prosesin effektivliyinə təsir edən dalğaların özü ilə və çarpaz qarşılıqlı təsirinə də baxılıb. Müəyyən edilib ki, qarşılıqlı təsirdə olan digər dalğalara nisbətən güclü olan doldurma dalğasının intensivliyini dəyişməklə çıxış anti- Stokes dalğasının intensivliyini artırmaq və prosesi tənzimləmək mümkündür. Göstərilib ki, alınmış nəticələr kubik qeyri-xəttiliyə malik olan optik liflərdə istifadə oluna bilər.

Seminarın sonunda məruzə ətrafında müzakirələr aparılıb və suallar cavablandırılıb.

# BDU əməkdaşları Bosniya və Herseqovinada genom redaktəsi üzrə beynəlxalq təlimdə iştirak ediblər

*BDU-nun rektorunun müşaviri Xalid Bayramlı, Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin və Biologiya fakültəsinin əməkdaşları Aygün İsrayılova və Nurlan Əmrahov Amerika Birləşmiş Ştatlarının Kənd Təsərrüfatı Departamentinin dəstəyi ilə Bosniya və Herseqovinanın Sarayevo Universitetinin nəzdində fəaliyyət göstərən Gen Mühəndisliyi və Biotexnologiya İnstitutunda (İNGEB) keçirilən "Genom redaktəsi" adlı Beynəlxalq praktiki təlimdə iştirak ediblər.*



Təlim genom redaktəsi üzrə məşhur mütəxəssis, Missuri Universitetinin professoru Binq Yanq tərəfindən aparılıb. Təlim zamanı genom redaktəsi texnologiyasının bitkilərdə təşkili, bitkilərin müxtəlif stress faktorlarına davamlılığının artırılması məqsədi ilə uyğun müdafiə mexanizmlərinin aktivləşdirilməsi, laboratoriya şəraitində RUBY geninin selektiv marker kimi bitkilərdə tətbiqi və müxtəlif streslərə davamlı genotiplərin yaradılması haqqında geniş nəzəri və praktiki biliklər əldə olunub. Həmçinin genom redaktəsi texnologiyasının nöqtəvi mutasiyaların (SNP) bərpasında rolu praktiki olaraq göstərilib, bitkilərdə CRISPR/Cas 9 sisteminin qurulması mexanizmi və sgRNA dizayn olunması üsulu izah edilib. Müxtəlif sgRNA dizayn olunması üsullarında istifadə olunan onlayn platformalarda (CRISPIR-P 2.0, Ensemble, NCBI) işləmə qaydaları barəsində məlumat əldə olunub.

Təlimdə həmçinin BDU-da yaradılmış Hüceyrə kulturası və genom redaktəsi elmi-tədqiqat laboratoriyasının təkmilləşdirilməsi üzrə fəaliyyət planı da müzakirə edilib.

# "Narkomaniyaya yox deyirik" mövzusunda maarifləndirici tədbir

*Oktyabrın 12-də Kitabxanaçılıq-informasiya fakültəsinin təşkilatçılığı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"na uyğun olaraq maarifləndirici tədbir keçirilib.*



Tədbirdə Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov məruzə ilə çıxış edib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 22 iyul tarixli sərəncamı ilə təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın ölkəmizdə insanların sağlamlığının, mənəvi dəyərlərimizin qorunmasında, narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə mühüm əhəmiyyət daşıdığını bildirib. Ölkəmizdə narkomaniyaya qarşı ardıcıl mübarizə tədbirlərinin həyata keçirildiyini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının fəaliyyət göstərdiyini vurğulayıb. Natiq bəşəriyyətin ən böyük bəlalarından hesab edilən narkomaniya ilə savaşda hər bir vətəndaşın üzərinə məsuliyyət düşdüyünü, cəmiyyətin hər bir üzvünün, xüsusilə gənclərin aktiv fəaliyyət göstərməsinin vacibliyini diqqətə çatdırıb. Narkotik alverçilərinin əsasən yeniyetmələri və gəncləri hədəf kimi seçdiyini qeyd edən polkovnik-leytenant bu cür maarifləndirici tədbirlərin "ağ ölüm"lə mübarizədə xüsusi əhəmiyyət kəsb etdiyini bildirib. Məruzədə ölkəmizdə bu sahə ilə bağlı mövcud statistika, eyni zamanda daxili işlər orqanları əməkdaşlarının cinayətkar qruplara qarşı apardığı mübarizə haqqında dolğun informasiyalar konkret faktlarla tələbələrin nəzərinə çatdırılıb, bu bəladan qurtulmağın yolları barədə fikirlər səsləndirilib.

Diskussiya şəraitində keçirilən görüş tələbələrin çoxsaylı sualları ilə davam etdirilib.

# 2022/2023-cü tədris ilində BDU-ya 108 əcnəbi tələbə qəbul olunub

**_Bunlardan 44-ü hazırlıq sektoruna, 2-si doktorantura, qalanları isə bakalavriat və magistratura səviyyələrinə daxil olub._**

*Bakı Dövlət Universitetinə 2022/2023-cü tədris ilində 108 əcnəbi tələbə qəbul edilib. Bunlardan 44-ü hazırlıq sektoruna, 2-si doktorantura, digərləri isə bakalavriat və magistratura səviyyələrinə daxil olub.*

14 ölkəni (Türkiyə, İran, Rusiya, Pakistan, Türkmənistan, Qazaxıstan, Tacikistan, Banqladeş, Çad, Ukrayna, Gürcüstan, Çin, Nigeriya, Küveyt) təmsil edən əcnəbi tələbələr əsasən kompüter elmləri, psixologiya, hüquq, beynəlxalq münasibətlər, iqtisadiyyat, jurnalistika ixtisaslarına üstünlük veriblər.

Qeyd edək ki, əcnəbi vətəndaşların qəbulu və ölkəmizdə təhsil alan əcnəbi tələbələrin məlumatlarının toplanması aidiyyəti elektron resurslar (portal.edu.az və atis.edu.az) vasitəsilə aparılır.

Hazırda BDU-da 34 ölkədən 400-dən artıq əcnəbi vətəndaş təhsil alır.

# BDU-nun əməkdaşı İtaliya hökumətinin elan etdiyi qrant müsabiqəsinin qalibi olub

*İtaliya hökuməti tərəfindən xaricdə yaşayan İtaliya vətəndaşları və xarici vətəndaşlar üçün elan edilmiş 2022-2023-cü illər üçün keçirilən qrant müsabiqəsində Bakı Dövlət Universitetinin Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının elmi işçisi Lalə Qəhrəmanlı qalib olub.*

Qrant müsabiqəsinin qazanılması haqqında sənədin təqdim edilməsi münasibətilə İtaliyanın Azərbaycandakı səfirliyində səfir Claudio Taffurinin iştirakı ilə görüş keçirilib.

Qrant müsabiqəsinin qalibi olan layihədə nəzərdə tutulan araşdırmaların İtaliyanın Milli Nüvə Fizikası İnstitutunun Frascati laboratoriyasında professor Stefano Belluccinin rəhbərliyi altında həyata keçirilməsi nəzərdə tutulur.

Birölçülü nanonaqillərin və hibrid sistemlərin fotokataliz prosesində istifadəsinin effektivliyinin öyrənilməsi qazanılan qrant layihəsinin əsas məqsədidir. Bu proqram BDU ilə İtaliyanın Milli Nüvə Fizikası İnstitutu arasında əlaqələrin genişləndirilməsinə və yeni birgə tədqiqat proqramlarının inkişafına zəmin yaradacaq.

# Mediasiya Şurası Sosial iş ixtisasında təhsil alan tələbələr üçün mühazirə təşkil edib



*BDU və Mediasiya Şurası arasında əməkdaşlıq memorandumu öz bəhrəsini verməkdədir.*

Oktyabrın 17-də Şuranın yüksəkixtisaslı mütəxəssisləri ali təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsilalanların bilik və praktik bacarıqlarının təkmilləşdirilməsi, təhsil və təcrübənin sıx inteqrasiyasının təmin edilməsi məqsədilə BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş ixtisasında təhsil alan tələbələri üçün mühazirə təşkil edib.

Mühazirədə tələbələrin gələcək sosial işçilər kimi Mediasiya Şurasına verə biləcəyi töhfələrdən bəhs edilib, tələbələri düşündürən suallar cavablandırılıb.

Tədbirdə Şurada könüllü kimi çalışan tələbələrə sertifikatlar təqdim edilib və növbəti könüllülük proqramına tələbə qəbulu elan olunub.

# 2023-cü ildə fəsillərin Azərbaycana daxilolma vaxtları açıqlanıb

***Oktyabrın 26-da Fizika fakültəsinin Astrofizika kafedrası 2023-cü ildə fəsillərin Azərbaycana daxilolma vaxtlarını açıqlayıb.***

Gələn il yaz fəslinin Azərbaycana daxil olması martın 21-i Bakı vaxtı ilə saat 01:24:24-ə təsadüf edəcək. Bu zaman gecə ilə gündüz bərabərləşir, Günəş ekliptika üzrə hərəkət edərək ekvatoru kəsib Cənub yarımkürəsindən Şimal yarımkürəsinə keçir və həmin andan Şimal yarımkürəsində yaz fəsli başlayır. Yaz fəslinin uzunluğu 92 gün 17 saat 33 dəqiqə 23 saniyə olacaq.

Yay fəsli (Yay günəş duruşu) Azərbaycana iyunun 21-i saat 18:57:47-də daxil olacaq. Bu zaman Yerin fırlanma oxu Günəş istiqaməti ilə ən kiçik bucaq əmələ gətirir və ya Günəş həmin gün günorta vaxtı üfüqdən maksimum hündürlükdə olur. Həmin gün ən uzun gündüz (gündüzün uzunluğu 15 saat 3 dəqiqə 24 saniyə) və ən qısa gecə (gecənin uzunluğu 8 saat 56 dəqiqə 36 saniyə) olur. Yay fəslinin uzunluğu 93 gün 15 saat 52 dəqiqə 11 saniyə olacaq.

Gələn il payız fəslinin Azərbaycana daxil olması sentyabrın 23-ü saat 10:49:56-ya təsadüf edəcək. Bu zaman payız gecə-gündüz bərabərliyi qeydə alınır. Günəş ekliptika üzrə hərəkət edərək ekvatoru kəsərək Şimal yarımkürəsindən Cənub yarımkürəsinə keçir və həmin andan Şimal yarımkürəsində payız fəsli başlayır. Payız fəslinin uzunluğu 89 gün 21 saat 37 dəqiqə 23 saniyə olacaq.

2023-cü ildə qış fəslinin (Qış günəş duruşu) Azərbaycana daxil olması dekabrın 22-si saat 07:27:19-a təsadüf edəcək. Bu zaman Yerin fırlanma oxu Günəş istiqaməti ilə ən böyük bucaq əmələ gətirir və ya Günəş həmin gün üfüqdən minimum hündürlükdə olur. Həmin gün ən qısa gündüz (gündüzün uzunluğu 9 saat 17 dəqiqə 22 saniyə) və ən uzun gecə (gecənin uzunluğu isə 14 saat 42 dəqiqə 38 saniyə) olur. Fəslin uzunluğu 88 gün 23 saat 38 dəqiqə 02 saniyə olacaq.

# Astrofizika kafedrası: 2023-cü ildə 2 Günəş və 2 Ay tutulması baş verəcək

***Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, 2023-cü ilin 1-ci Günəş tutulması aprelin 20-də qeydə alınacaq. Bu tutulma hibrid Günəş tutulması olacaq. Hibrid Günəş tutulması zamanı Yerin əyriliyi səbəbindən müşahidəçinin mərkəzi tutulma trayektoriyası boyunca yerindən asılı olaraq halqavari və ya tam Günəş tutulmasının müşahidə olunmasıdır. Əksər hallarda hibrid tutulmalar halqavari kimi başlayır, sonra tam tutulmaya keçir, daha sonra yenidən halqavari vəziyyətə qayıdır.***



Tutulma hadisəsi aprelin 20-də Bakı vaxtı ilə saat 05:34:22-də başlayacaq və 10:59:18-də sona çatacaq. Tutulma hadisəsi 5 saat 25 dəqiqə davam edəcək. Tutulmanın maksimumu 08:16:49-da olacaq. Tam tutulma hadisəsi isə 06:36:56-da başlayacaq və saat 09:56:36-da qurtaracaq. Tam tutulma prosesi 3 saat 19 dəqiqə 40 saniyə davam edəcək. Tutulma hadisəsi Cənub-Şərqi Asiya, Avstraliya, Sakit okean, Hind okeanı, Antarktidada müşahidə olunacaq. Tutulma Azərbaycan ərazisində müşahidə olunmayacaq.

2023-cü ilin 2-ci Günəş tutulması oktyabrın 14-də baş verəcək. Tutulma halqavari Günəş tutulmasıdır. Ay Yerdən uzaq məsafədə olduqda bucaq ölçüsü Günəşin bucaq ölçüsündən kiçik olduğuna görə tutulma zamanı Günəşin səthini tam bağlamır və Ayın ətrafında parlaq halqa yaranır.

Tutulma hadisəsi oktyabrın 14-də Bakı vaxtı ilə saat 19:03:45-də başlayacaq və oktyabrın 15-də saat 00:55:11-də sona çatacaq. Tutulmanın maksimumu saat 21:59:27-də olacaq. Tutulma hadisəsi 5 saat 51 dəqiqə 26 saniyə davam edəcək. Mərkəzi tutulma hadisəsi isə saat 20:10:09-da başlayacaq və 23:48:56-da qurtaracaq. Mərkəzi tutulma prosesi 3 saat 38 dəqiqə 47 saniyə davam edəcək. Bu tutulma hadisəsi Qərbi Afrika, Şimali Amerika, Cənubi Amerika, Sakit okean, Atlantik okean və Arktikada müşahidə olunacaq. Tutulma hadisəsi Azərbaycanda müşahidə olunmayacaq.

2023-cü ilin 1-ci Ay tutulması mayın 5-də olacaq. Bu, yarımkölgəli Ay tutulmasıdır. Tutulma hadisəsi Bakı vaxtı ilə saat 19:14:08-də başlayacaq və saat 23:31:40-da sona çatacaq. Tutulmanın maksimumu 21:22:55-də olacaq.

Yarımkölgəli Ay tutulmasını Cənub Şərqi Avropa, Asiyanın böyük hissəsi, Avstraliya, Afrika, Sakit okean, Atlantik, Hind okeanı, Antarktida görmək mümkün olacaq. Tutulma başlayanda Ay üfüqdən aşağıda olduğuna görə tutulma hadisəsi Azərbaycanda 19:38:00-dan etibarən müşahidə olunacaq. Yarımkölgəli Ay tutulmasını görmək çətin olur, çünki kölgəli hissə Ayın qalan hissəsindən azacıq zəifdir.

2023-cü ilin 2-ci Ay tutulması oktyabrın 28-də baş verəcək. Bu, qismən Ay tutulmasıdır.

Bakı vaxtı ilə saat 22:01:44-də yarımkölgəli, saat 23:35:18-də qismən tutulma başlayacaq. Tutulmanın maksimumu oktyabrın 29-u saat 00:14:00-da baş verəcək. Saat 00:52:37-də qismən tutulma, saat 02:26:19-da yarımkölgəli tutulma sona çatacaq.

2023-cü ilin 2-ci qismən Ay tutulmasını Avropa, Asiya, Avstraliya, Afrika, Şimali Amerika, Cənubi Amerikanın Şimal-Şərq hissəsi, Sakit okean, Atlantik, Hind okeanları, Arktika və Antarktidada müşahidə etmək mümkün olacaq. Tutulma hadisəsi Azərbaycan ərazisində də müşahidə olunacaq.

# BDU-nun ev sahibliyi ilə "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer üzrə BMT/Azərbaycan işçi seminarı" keçiriləcək

*Bu proqram çərçivəsində Bakıda keçiriləcək tədbir Azərbaycanda adıçəkilən sahənin inkişafı üçün geniş imkanlar açacaq, kosmik tədqiqatların və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə zəmin yaradacaq*



***31 oktyabr - 4 noyabr tarixlərində BMT-nin Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və Bakı Dövlət Universiteti tərəfindən "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer üzrə BMT/Azərbaycan işçi seminarı" ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") adlı beynəlxalq tədbir keçiriləcək.***

Bakı şəhərində keçiriləcək yüksək səviyyəli tədbirə Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) də dəstək verəcək. Son illər Azərbaycanda kosmik tədqiqatların və kosmik sənayenin inkişafına, müasir texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilir və bu istiqamətdə kadr hazırlığı önəmli rol oynayır. Beynəlxalq Kosmik Hava Təşəbbüsü (The International Space Weather Initiative - ISWI) kosmik hava məlumatlarının əldə edilməsində zəruri sayılan cihazların quraşdırılmasına, həmin məlumatların təhlilinə və alınan nəticələrin digər rəqəmsal elmi məlumatlarla əlaqələndirilməklə analizinə xidmət edən beynəlxalq əməkdaşlıq proqramıdır. Bu proqram çərçivəsində Bakıda keçiriləcək tədbir Azərbaycanda adıçəkilən sahənin inkişafı üçün geniş imkanlar açacaq, kosmik tədqiqatların və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə zəmin yaradacaq.

5 gün davam edəcək beynəlxalq elmi tədbirin əsas məqsədləri inkişaf etməkdə olan ölkələrdə müvafiq elmi cihazların quraşdırılması və kosmik hava məlumatlarının emalı işlərini davam etdirməklə yanaşı, xüsusi maraq kəsb edən tədqiqat nəticələrinə diqqət yetirmək, eyni zamanda beynəlxalq koordinasiya və əməkdaşlığı yeni səviyyəyə qaldırmaqdan ibarətdir. Beynəlxalq elmi tədbirdə Kosmik Hava və Qlobal Peyk Naviqasiya Sistemləri üzrə elmi, təcrübi biliklərin mübadiləsi və müzakirəsi məqsədilə Azərbaycandan, Avropa, Asiya və Afrika ölkələrindən olan alim və mütəxəssislərin plenar, şifahi və poster məruzələrlə Günəş fizikası, Günəş-Yer əlaqələri, Kosmik Hava Cihazları və Məlumatlar Bazası, Kosmik Havanın Modelləşdirilməsi, Qlobal Naviqasiya Peyk Sistemlərinə Kosmik Hava Təsirləri, Geosfer, Maqnitosfer-İonosfer-Termosfer əlaqələri, Milli Kosmik Hava Proqramları və Tədqiqatları, Təhsil və Təcrübə proqramları üzrə çıxışları, həmçinin, yerli və xarici elmi təşkilatların əməkdaşlarının və ali təhsil müəssisələrindən təhsilalanların dinləyici qismində iştirakları nəzərdə tutulur.

Seminarın gözlənilən nəticələrinə kosmik hava məlumatlarının yüksək dəqiqliklə toplanması, mübadiləsi və çatdırılması, həmçinin qabaqcıl təcrübələrin təşviqi yolu ilə modelləşdirmə və proqnozlaşdırma metodlarının dəqiqliyinin və etibarlığının artırılması üçün tövsiyələrin hazırlanması da daxildir.

Tədbirdəki müzakirələr həmçinin "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi" və onun Dayanıqlı İnkişaf Məqsədləri (SDG) üçün müəyyən edilmiş hədəfləri ilə əlaqələndiriləcək, əldə olunan nəticə və tövsiyələr isə Birləşmiş Millətlər Təşkilatının Kosmosdan Dinc Məqsədlə İstifadə Komitəsinin (COPUOS) hesabatı çərçivəsində BMT-nin Baş Assambleyasına təqdim olunacaq.

# Füzuli və Zəngilan rayonlarının işğaldan azad olunmasının ikinci ildönümünə həsr olunmuş tədbir

*Oktyabrın 28-də Geologiya və Coğrafiya fakültələrinin birgə təşkilatçılığı ilə Füzuli və Zəngilan rayonlarının işğaldan azad olunmasının ikinci ildönümünə həsr olunmuş tədbir keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, daha sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Geologiya fakültəsinin dekanı Mamoy Mansurov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi tariximizə qızıl hərflərlə yazılıb. Rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilib.

Milli Məclisin üzvü Vüqar İskəndərov Zəngilan və Füzuli rayonlarında



ermənilər tərəfindən işğal dövründə həyata keçirilən dağıntılar barədə geniş məlumat verib. Qeyd edib ki, faşist ideologiyalı ermənilər 30 ilə yaxın müddətdə bu ərazilərdə ekoloji terror törədib, təbii sərvətlərimizi talayıb, tarixi, mədəni, dini irsimizin qəniminə çevrilib.

Coğrafiya fakültəsinin dekanı vəzifəsini icra edən Ramiz Əhlimanov isə Zəngilanın işğaldan əvvəlki və sonrakı vəziyyətini müqayisə edib.

Geologiya fakültəsinin Hidrogeologiya və mühəndis geologiyası kafedrasının müəllimi Ələkbər Mirzəyev, fakültənin Tələbə Gənclər Təşkilatının sədri Samirə Novruzova, 3-cü kurs tələbəsi Sona Fərəcli çıxışlarında Qarabağda və Şərqi Zəngəzurda geniş quruculuq-abadlıq işlərinin aparıldığını vurğulayıblar. Bildiriblər ki, azad edilən torpaqlarımız tezliklə yenidən cənnətə çevriləcək. Regionda həyata keçirilən böyük iqtisadi layihələr, Füzuli və Zəngilan hava limanlarının açılması həmin günü daha da yaxınlaşdırır.

Sonda Vətən müharibəsi iştirakçıları öz xatirələrini bölüşüblər.

Tədbir Vətən müharibəsi iştirakçısı Məbud Əhmədovun ifası ilə başa çatıb.

# Xalq şairi Xəlil Rza Ulutürkə həsr olunmuş intellektual yarış

*Oktyabrın 24-də Filologiya və Kitabxanaçılıq-informasiya fakültələrinin könüllülərinin birgə təşkilatçılığı ilə Xalq şairi, "İstiqlal" ordenli Xəlil Rza Ulutürkün anadan olmasının 90 illiyinə həsr olunmuş "Dünənəm! Bu günəm! Gələcəyəm mən!" adlı intellektual yarış keçirilib.*

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, görkəmli şairin və vətən uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Sonra Xəlil Rza Ulutürkün həyatı və zəngin yaradıcılığı barəsində məlumat verilib və tələbələrin hazırladığı videoçarx nümayiş olunub. Yarışda 10 komanda iştirak edib. İntellektual yarış dörd turdan - "Zəfər tarixi", "Ədəbiyyat", "Retro" və "Dünyagörüşü" turlarından təşkil olunub.

I yerə Filologiya fakültəsinin "Liberland", II yerə Fizika fakültəsinin "Fiziklər", III yerə isə Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin "Tenqri" komandası layiq görülüb.

# Kitabxanalarda konsaltinq xidmətlərinin tətbiqinə dair elmi seminar

*Oktyabrın 24-də Kitabxanaçılıq-informasiya fakültəsində professor-müəllim heyətinin, doktorant və magistrantların iştirakı ilə "Kitabxana-informasiya mühiti və konsaltinq xidmətləri" mövzusunda elmi seminar keçirilib. Elmi seminarda BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının dosenti Xuraman Ağayeva mövzu ilə bağlı məruzə edib.*

Məruzədə virtual mühitin günügündən genişləndiyi müasir şəraitdə kitabxanaların idarə edilməsində yeniliklərin tətbiqinin zəruriliyi qeyd olunub. Bildirilib ki, kitabxana-informasiya mühitində tətbiq edilən innovativ istiqamətlərdən biri də informasiya konsaltinqi sahəsidir. Nəzəri və təcrübi biliklərin tətbiqinə, analitik, məntiqi və diaqnostik təhlil metodlarına əsaslanan informasiya konsaltinqi xidmətlərinin kitabxanaçılıq və informasiya fəaliyyətinin inkişafına, bu sahədə əlavə gəlir mənbələrinin formalaşmasına səbəb olduğu diqqətə çatdırılıb. Araşdırmada kitabxana konsaltin-




qi kitabxana-informasiya müəssisələrini ekstremal vəziyyətdən çıxarmaq məqsədilə problemlərin həllinə yardım edən, onların fəaliyyətini düzgün strateji istiqamətə yönəldən, analitik və məntiqi təfəkkür tələb edən fəaliyyət növü kimi kimi xarakterizə edilib. Xüsusi vurğulanıb ki, işğaldan azad edilmiş Qarabağda kitabxana infrastrukturunun bərpası, modern kitabxana-informasiya sisteminin qurulması üçün peşəkarlara böyük ehtiyac var. Bu mənada informasiya konsaltinqi işğaldan azad edilmiş bölgələrimizdə sahənin inkişafına mühüm töhfələr verə bilər.

Məruzədə həmçinin informasiya konsaltinqi sahəsində beynəlxalq təcrübə haqqında məlumat verilib, bir sıra təklif və tövsiyələr nəzərə çatdırılıb.

# BDU-nun SABAH tələbəsi "HackBaku" milli kibertəhlükəsizlik yarışmasının qalibi olub



*Oktyabrın 25-də Bakı Gənclər Mərkəzinin və Kibertəhlükəsizlik platformasının birgə təşəbbüsü ilə ilk genişmiqyaslı "HackBaku" milli kibertəhlükəsizlik yarışması keçirilib.*

Bakı Dövlət Universitetinin SABAH qruplarının Kompüter elmləri ixtisasının IV kurs tələbəsi Beyrək Əsgərzadə yarışmanın "CTF" istiqaməti üzrə qalib olub. "CTF" yarış proqramının professional infrastrukturu "Gais Cyber Security" kibertəhlükəsizlik şirkətinin mütəxəssisləri və onlara rəhbərlik edən Türkiyənin tanınmış mühəndisi Numan Turle tərəfindən qurulub.

Qeyd edək ki, "HackBaku" yarışması 3 mərhələdə keçirilib. Yarışda ölkəmizin ən güclü hakerləri öz bacarıqlarını sınayıblar. Yarışın əsas məqsədi kibertəhlükəsizliyin inkişafına və bu sahədə olan gənclərə dəstək verməkdir.

# BDU könüllüləri Xalq Təhsili Muzeyini ziyarət ediblər



*Oktyabrın 28-də BDU könüllüləri Xalq Təhsili Muzeyini ziyarət ediblər.*

BDU könüllülərinə məlumat verilib ki, Xalq Təhsili Muzeyi 1932-ci il aprelin 27-də yaradılıb. Burada təhsil sahəsində xidmətləri olan maarifçilər, elm xadimləri, ziyalılar, qabaqcıl müəllimlər haqqında ətraflı məlumatlar, həmçinin təhsil müəssisələrinə dair sənəd və materiallar, tədris prosesini əks etdirən fotoşəkillər və digər eksponatlar nümayiş olunur.

Könüllülər xalqımızın Ümummilli lideri Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında tarixi xidmətləri, Prezident İlham Əliyevin uğurlu təhsil siyasəti ilə bağlı stendlərlə də tanış olublar.

Ekskursiya zamanı könüllüləri maraqlandıran suallar cavablandırılıb.

# BDU və BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisi birgə beynəlxalq tədbir keçirib



***Birləşmiş Millətlər Təşkilatının (BMT) Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və Bakı Dövlət Universitetinin təşkilatçılığı, Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) və Amerika Birləşmiş Ştatları Milli Aeronavtika və Kosmos İdarəsinin (NASA) tərəfdaşlığı və dəstəyi ilə "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" BMT/Azərbaycan beynəlxalq tədbirinin ("United Nations/Azerbaijan Workshop on the International Space Weather Initiative: The Sun, Space Weather and Geosphere") açılış mərasimi keçirilib.***

Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, son illər Azərbaycanda kosmik tədqiqatların və kosmik sənayenin, informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirilir:

"Hazırda bu sahə ölkə iqtisadiyyatının aparıcı istiqamətlərindən birinə çevrilib. 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019–2022-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Hazırda "Azərkosmos"un idarə etdiyi "Azerspace-1", "Azerspace-2" və "Azersky" peykləri yüksək keyfiyyətli və etibarlı telekommunikasiya, eləcə də Yerin müşahidəsi üzrə xidmət və həllər təqdim edir. Bu gün Qafqazda ilk və yeganə peyk operatoru olan "Azərkosmos" telekommunikasiya və geoloji kəşfiyyat peyk xidmətləri göstərir". Rektor bildirib ki, hazırda BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində fəaliyyət göstərən Aerokosmik və Atmosfer Tədqiqatları elmi-tədqiqat laboratoriyasında, həmçinin Fizika fakültəsinin Astrofizika kafedrasında müvafiq tədqiqat və tədris layihələri yerinə yetirilir:

"Bu tədqiqatların əsas məqsədi Günəş-Yer əlaqələri, bu mühitdə kosmik plazma fizikası üzrə araşdırmalar, Günəş fizikası, habelə Günəşin Yerə, Yer atmosferi, ionosferi və maqnitosferinə, texnoloji və bioloji sistemlərə və iqlimə potensial təsirinin öyrənilməsidir".

Elçin Babayev deyib ki, beynəlxalq tədbirdə dünyanın 36 ölkəsindən və 4 qitəsindən tədqiqatçılar bilavasitə iştirak edir, xeyli sayda alim isə onlayn olaraq qoşulub: "Seminarın gündəliyi Günəş və Günəş-Yer əlaqələri fizikasının nəzəri və praktiki aspektləri, Kosmik Hava və Qlobal Naviqasiya Peyk Sistemləri kimi bir çox maraqlı mövzuları əhatə edir. Beynəlxalq elmi tədbirin əsas məqsədləri inkişaf etməkdə olan ölkələrdə müvafiq elmi cihazların quraşdırılması və kosmik hava məlumatlarının emalı işlərini davam etdirməklə yanaşı, xüsusi maraq kəsb edən tədqiqat nəticələrinə diqqət yetirmək, eyni zamanda beynəlxalq koordinasiya və əməkdaşlığı yeni səviyyəyə qaldırmaqdan ibarətdir. Ümid edirik ki, bu mötəbər tədbir ölkələr arasında elm, təhsil və mədəni əlaqələri inkişaf etdirmək yolunda mühüm bir addım olacaq, maraqlı və cəlbedici müzakirələr və bilik mübadiləsi ilə yadda qalacaq. Seminardan faydalanan bütün iştirakçılar bunu öz tədqiqatlarında da tətbiq edəcəklər".

Konfransda qeyd olunub ki, Beynəlxalq Kosmik Hava Təşəbbüsü (The International Space Weather Initiative - ISWI) kosmik hava məlumatlarının əldə edilməsində zəruri sayılan cihazların quraşdırılmasına, həmin məlumatların təhlilinə və alınan nəticələri digər rəqəmsal elmi məlumatlarla əlaqələndirməklə analizinə xidmət edən beynəlxalq əməkdaşlıq proqramıdır. "Beynəlxalq Kosmik Hava Təşəbbüsü: Günəş, Kosmik Hava və Geosfer" beynəlxalq tədbiri ölkədə adıçəkilən sahənin inkişafı üçün geniş imkanlar açacaq, kosmik tədqiqatların və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə zəmin yaradacaq.

Beynəlxalq elmi tədbirdə Kosmik Hava və Qlobal Peyk Naviqasiya Sistemləri üzrə elmi, təcrübi biliklərin mübadiləsi və müzakirəsi məqsədilə dünyanın müxtəlif ölkələrindən olan alim və mütəxəssislərin plenar, şifahi və poster məruzələrlə Günəş fizikası, Günəş-Yer əlaqələri, Kosmik Hava Cihazları və Məlumatlar Bazası, Kosmik Havanın Modelləşdirilməsi, Qlobal Naviqasiya Peyk Sistemlərinə Kosmik Hava Təsirləri, Geosfer, Maqnitosfer-İonosfer-Termosfer əlaqələri, Milli Kosmik Hava Proqramları və Tədqiqatları, Təhsil və Təcrübə proqramları üzrə çıxışları, həmçinin, yerli və xarici elmi təşkilatların əməkdaşlarının və ali təhsil müəssisələrindən təhsilalanların dinləyici qismində iştirakları nəzərdə tutulur.

Seminarın gözlənilən nəticələrinə kosmik hava məlumatlarının yüksək dəqiqliklə toplanması, mübadiləsi və çatdırılması, həmçinin qabaqcıl təcrübələrin təşviqi yolu ilə modelləşdirmə və proqnozlaşdırma metodlarının dəqiqliyinin və etibarlığının artırılması üçün tövsiyələrin hazırlanması da daxildir.

Tədbirdəki müzakirələr həmçinin "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi" və onun Dayanıqlı İnkişaf Məqsədləri (SDG) üçün müəyyən edilmiş hədəfləri ilə əlaqələndiriləcək, əldə olunan nəticə və tövsiyələr isə Birləşmiş Millətlər Təşkilatının Kosmosdan Dinc Məqsədlə İstifadə Komitəsinin (COPUOS) hesabatı çərçivəsində BMT-nin Baş Assambleyasına təqdim olunacaq.

Beynəlxalq tədbir noyabrın 5-dək davam edib.

*APA.AZ*
*31.10.2022*

# Biomüxtəliflik üzrə Qlobal İnformasiya Sisteminin əməkdaşı BDU-da təlim keçib



***Oktyabrın 25-də Biomüxtəliflik üzrə Qlobal Informasiya Sisteminin (Global Biodiversity Information Facility - GBIF) İştirak və qarşılıqlı fəaliyyət üzrə proqramının əməkdaşı, danimarkalı Andrey Rodriqes Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin tələbə və əməkdaşları üçün təlim keçib.***

GBIF planetin istənilən nöqtəsindən olan istənilən istifadəçiyə internet şəbəkəsi vasitəsilə Yer kürəsində yayılan bitki və heyvan növləri barədə informasiyaya giriş əldə eməyə imkan verir. Andrey Rodriqes qeyd edib ki, iştirakçı olan dövlətlər GBIF-də milli portala, proqram koduna və məlumatlara malikdirlər. Sistemin məqsədlərindən biri də biomüxtəliflik barədə informasiyaya sərbəst girişin təmin edilməsi üçün vacib olan məlumat, bacarıq və texnologiyaları mobilləşdirməkdən ibarətdir.

Təlimin sonunda Andrey Rodriqes portaldan istifadə üçün tələbələrlə sınaq keçirib.

# "TEKNOFEST"in gənc tədqiqatçılar üçün yaratdığı perspektivlərə dair elmi seminar



***Oktyabrın 21-də Fizika fakültəsində ""TEKNOFEST" və gənc tədqiqatçılar üçün perspektivlər" mövzusunda elmi seminar keçirilib. Seminarda Nanomaterialların kimyəvi fizikası kafedrasının doktorantı Orxan Güləhmədov və kafedranın müəllimi Sara Rəhimzadə çıxış ediblər.***

Sara Rəhimzadə seminar iştirakçılarına "TEKNOFEST"in tarixi, keçirilmə məqsədləri, beynəlxalq bilik yarışması kimi təşəkkül tapması, Azərbaycanın həmin festivalın keçirildiyi ilk xarici ölkə olması, 26-29 may 2022-ci il tarixlərində Bakıda keçirilmiş "TEKNOFEST-Azərbaycan", onun kateqoriyaları barədə məlumat verib. O, BDU-nun "Nano" komandasının "TEKNOFEST-Azərbaycan"nın "Sosial yönümlü texnologiyalar" müsabiqəsi üzrə 3-cü yerə layiq görülən "Triboelektrik nanogeneratorlar əsasında görmə və eşitmə əngəlli insanlar üçün sensorların hazırlanması" adlı layihəsi barədə danışıb.

Sonra Orxan Güləhmədov tərəfindən seminar iştirakçılarına cari ilin avqust ayında Türkiyənin Samsun şəhərində "TEKNOFEST-Qara dəniz 2022" və gələn il keçiriləcək "TEKNOFEST-İstanbul 2023" festivalları barədə məlumat verilib. Festivalın bütün kateqoriyaları və gələcək perspektivlərindən danışan Orxan Güləhmədov bu texnologiyaların gələcəyə yönəlik bir addım olduğunu vurğulayıb və elmi ideyaları olan tələbələri fəallıq göstərməyə çağırıb.

Seminarda gələcək festivallarda iştirakın vacibliyi və ideyaların inkişafı haqqında diskussiyalar aparılıb, "TEKNOFEST-Azərbaycan" yarışmasından maraqlı görüntülər nümayiş etdirilib.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

# Tarix fakültəsində "Şuşanın tarixi abidələri və mədəni irsi" mövzusunda tədbir keçirilib

*Oktyabrın 5-də Tarix fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə "Şuşanın tarixi abidələri və mədəni irsi" mövzusunda tədbir keçirilib.*



Tədbirdə Tarix fakültəsinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müəllimi Yunus Nəsirli tələbələrə Qarabağın tacı olan Şuşanın tarixi haqqında məlumat verib. Şuşanın nəinki Azərbaycanın, dünyanın da mədəniyyət incisi olduğunu vurğulayıb.

Bildirilib ki, 2020-ci il noyabrın 8-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən azad edilən Şuşa xalqımız üçün müstəsna mənəvi dəyərə malikdir. Ermənistan silahlı birləşmələri tərəfindən 30 ilə yaxın müddətdə şəhərin tarixi abidələri amansızlıqla dağıdılsa, maddi-mədəni və dini tikililəri talan edilib xarabazara çevrilsə də, düşmən bu şəhərin milli ruhunu məhv edə bilməyib. Şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilib.

Tədbirdə hazırda Şuşada aparılan sürətli bərpa-quruculuq işləri ilə bağlı da tələbələrə ətraflı məlumat verilib. Qeyd olunub ki, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunan Şuşada icra edilən layihələr, yenidənqurma və abadlıq işləri şəhərin ümumi inkişaf konsepsiyasına uyğun həyata keçirilməklə yanaşı, Qarabağın incisi olan bu şəhərin tezliklə əvvəlki şöhrətinə qayıdacağına əminlik yaradır. Hazırda Şuşanın tarixi abidələrinin bərpası istiqamətində Heydər Əliyev Fondu əvəzsiz xidmətlər göstərir. Bu cür xidmət Qarabağın incisi olan Şuşanın türk-müsəlman şəhəri kimi memarlıq simasının özünə qaytarılması ilə yanaşı, həm Qarabağın maddi-mədəni irsinin bərpasına dəyərli töhfə, həm də nəinki Şuşanın, eləcə də Azərbaycanın ictimai-siyasi, hərbi, elmi-mədəni həyatında mühüm xidmətlər göstərmiş tarixi şəxsiyyətlərə, onların irsinə göstərilən hörmət və ehtiramdır.

# "Posttravmatik stress pozuntusunda psixoterapiyaların rolu" mövzusunda elmi seminar

*Oktyabrın 5-də Sosial elmlər və psixologiya fakültəsinin Psixologiya kafedrasında "Posttravmatik stress pozuntusunda psixoterapiyaların rolu" mövzusunda elmi seminar keçirilib.*

Fakültənin doktorantları Tuğba Kızılelma və Hakan Seyhan tərəfindən keçirilən elmi seminarda insanın fiziki və psixoloji varlığını incidən, zədələyən travmaların fəsadları barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, qəza, təbii fəlakət, yanğın, quldurluq, zorakılıq, işgəncə, müharibə kimi müxtəlif hadisələrdən sonra meydana gələn travmalar ağır stress pozuntusu yaradır. Qorxu, çarəsizlik, dəhşət reaksiyaları və s. səbəb olan posttravmatik stress pozuntusu (PTSP) və bundan sonra yaranan psixi pozuntular, müxtəlif kliniki xəstəliklər travmanın özü və travmatik hadisənin təkrar yaşanması ilə əlaqəlidir. İnsanların əksəriyyəti (təxminən 60-89 %) həyatında ən azı bir dəfə travmatik hadisə ilə üzləşir. Posttravmatik stress pozuntusunun müalicəsində şəxsin psixoloji ehtiyaclarına uyğun müxtəlif yanaşmalardan istifadə etmək lazımdır. Bu zaman farmakoterapiya və psixoterapiya üsullarından birgə istifadə oluna bilər. Sosial dəstək sistemlərinin artırılması, qrup terapiyaları travmatik hadisədə yaşananları danışmağa kömək edir. Koqnitiv bihevioral terapiya (CBT), qəbul və öhdəlik terapiya (ACT) və EMDR (göz hərəkətinin desentizasiyası və yenidən işlənməsi) psixoterapevtik müalicələr arasında effektivliyi sübuta yetirilmiş müalicə növlərindəndir.

Seminarda qeyd olunub ki, travmatik hadisələrin təkrar yaşanması xəstəni təhrik edir və ağır vəziyyətlərə salır. Bu zaman koqnitiv davranış terapiyası (KDT) xəstənin vəziyyətdən çıxmasına imkan verir. KDT ən çox istifadə edilən psixoterapiya növlərindən biridir. Koqnitiv terapiya PTSP-nin müalicəsində travmatik hadisə ilə bağlı əmələ gələ bilən təhrif olunmuş mənfi fikirləri, eləcə də özləri və ətraf mühit haqda uyğun olmayan, faydasız inancları müəyyənləşdirmək, aradan qaldırmaq və dəyişməkdə insanlara kömək edir.

# BDU-nun Elmi Kitabxanası Bakı Biznes Universitetində təlim-seminar keçirib



*Oktyabrın 18-də BDU-nun Elmi Kitabxanası Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu (Az.KİK) çərçivəsində Bakı Biznes Universitetinin professor-müəllim heyəti, magistr və tədqiqatçıları üçün "Akademik bazalardan istifadə və nəşr imkanları" adlı təlim-seminar keçirib.*

Tədbiri giriş sözü ilə açan Bakı Biznes Universitetinin elmi işlər üzrə prorektoru Məleykə Abbasova belə tədbirlərin keçirilməsinin önəmindən bəhs edərək təlimçiləri qonaqlara təqdim edib. O qeyd edib ki, Bakı Biznes Universiteti Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (Az.KİK) və eləcə də beynəlxalq "EİFL.net" Konsorsiumunun ("Electronic Information for Libraries") üzvüdür. Az.KİK EİFL.net Konsorsiumu ilə əməkdaşlıq çərçivəsində üzv təşkilatların tədris və elm sahələrinə uyğun ədəbiyyatla təmin olunmasını, müvafiq kitabxanalarda rəqəmsal arxivlərin yaradılmasını təşkil edir, abunə müddətində onlara 8516-sı resenziyalı olmaqla 11000 jurnalın; o cümlədən ictimai, humanitar, kompüter elmləri, mühəndislik (neft, qaz və s.), fizika, kimya, nəqliyyat və s. kimi sahələr üzrə jurnalların yerləşdiyi verilənlər bazasından, 2700-dən artıq kitab və broşür, 510 adda qəzet və s. mənbələrdən elektron formada istifadə imkanı təqdim edir.

BDU-nun Elmi Kitabxanasının direktoru Nigar İsmayılova kitabxana işi sahəsində nüfuzlu beynəlxalq təşkilat və nəşriyyatlarla ali məktəb kitabxanaları arasında əməkdaşlığın qurulmasında BDU-nun Elmi Kitabxanasının fəaliyyəti barədə çıxış edib.

Az.KİK-in rəhbəri, EİFL.net və EBSCO-nun Azərbaycan üzrə təmsilçisi, BDU-nun Elmi Kitabxanasında şöbə müdiri Cəmilə Yusifova EBSCO və EİFL.net beynəlxalq konsorsiumunun xidmətləri, müxtəlif elm və tədris sahələri üzrə hazırlanmış jurnal, kitab, qəzet paketləri, iqtisadiyyatla bağlı xüsusi akademik jurnallar və onlardan istifadə qaydalarından bəhs edib.

EİFL.net-in "Open Access" üzrə koordinatoru, ADA Universitetinin əsas sistemlər və inteqrasiya şöbəsinin aparıcı mütəxəssisi İltifat İbrahimov isə akademik bazalarda məqalə nəşrlərinə dəstək və EBSCO bazasından istifadə qaydalarını təlim iştirakçılarına əyani şəkildə təqdim edib.

Sonda iştirakçıların sualları cavablandırılıb.

# DOST İnklüziv Yaradıcılıq və İnkişaf Mərkəzinin direktorunun BDU tələbələri ilə görüşü

*Oktyabrın 20-də BDU ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi arasında birgə əməkdaşlığa dair anlaşma memorandumunda nəzərdə tutulan istiqamətlər üzrə əməli fəaliyyət öz töhfələrini verməkdədir.*

BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosial iş kafedrasının dəvətilə DOST İnklüziv Yaradıcılıq və İnkişaf Mərkəzinin direktoru Pərvinə İsmayılova Sosial iş ixtisasında təhsil alan tələbələrlə görüşüb. Mərkəzin fəaliyyət istiqamətləri, iş prinsipləri ilə bağlı məlumat verən Pərvinə İsmayılova bu sahədə sosial işçilərin verə biləcəyi töhfələrdən bəhs edib. O bildirib ki, BDU tələbələrinin mərkəzdə könüllü kimi təcrübə keçmələri üçün hər bir şərait var. Artıq BDU-nun Sosial iş ixtisasında təhsil alan tələbələrin bir qismi mərkəzdə könüllülük proqramında iştirak edərək sertifikatlar alıb, ötən il IV kursda təhsil alan sosial işçilər təcrübələrini uğurla başa vurub, onlardan bəziləri qurumda işə qəbul edilib.

BDU-nun Sosial iş kafedrasının müdiri Üzeyir Şəfiyev DOST İnklüziv Yaradıcılıq və İnkişaf Mərkəzinə Sosial iş ixtisasında təhsil alan tələbələrin könüllü fəaliyyəti, praktikalarının təşkili, buraxılış işlərinin hazırlanması üçün şərait yaratdıqlarına görə təşəkkür edib, yeni könüllük proqramının zəruriliyini vurğulayıb.

Görüşün sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb, könüllülük proqramı ilə bağlı müraciətlər qəbul edilib.

# Hüseyn Cavidin 140 illiyinə həsr olunmuş "Zamanın sınağında" adlı elmi seminar

***Oktyabrın 24-də Filologiya fakültəsində Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının təşkilatçılığı ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair-dramaturq Hüseyn Cavidin anadan olmasının 140 illiyinə həsr edilmiş "Zamanın sınağında" adlı elmi seminar keçirilib.***



Fakültənin professor-müəllim heyətinin və tələbələrin iştirak etdikləri tədbir Hüseyn Cavidin həyat və yaradıcılığından bəhs edən videoçarxla başlanıb.

Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri professor Səhər Orucova "Hüseyn Cavid yaradıcılığında folklor" mövzusunda məruzə ilə çıxış edib. Ədibin öz yaradıcılığında folklor örnəklərindən geniş miqyasda bəhrələndiyini vurğulayan məruzəçi bildirib ki, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyev, dahi rəhbərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev görkəmli şair Hüseyn Cavid irsinə daim yüksək diqqət və qayğı göstəriblər.

Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti Etibar Talıblı "Hüseyn Cavid şəxsiyyəti və sözü zamanın sınağında" mövzusunda məruzəsində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə yaxından bələd olan və onların gələcək nəsillərə ötürülməsinin vacib məsələ olduğunu hesab edən sənətkar haqqında geniş məlumat verib. "Cavid irsinə və şəxsiyyətinə münasibət istər sağlığında, istər sonrakı dövrlərdə birmənalı olmayıb. XX əsrin əvvəllərində - Cavidin sənətkar kimi özünü təsdiq etdiyi ilk zamanlarda ədəbi tənqid ona uzun müddət diqqət yetirməyib, pyesləri tamaşaya qoyulmayıb. Lakin şeirlərini və dram əsərlərini o dövrdə nəşr etdirdiyindən tanınıb, qəbul edilib. Cavid dramaturgiya və teatra şeiriyyət, poetiklik gətirib, əruzu çağdaş dramaturgiyaya doğmalaşdırmış bir sənətkardır. Cavid dramaturgiyamıza yeni mövzular, tragik xarakterlər, kolliziyalar gətirib",- deyə E.Talıblı bildirib.

Məruzəçi Cavidin bir çox əsərlərini təhlil edib.

Tədbirdə Filologiya fakültəsinin tələbələri Ülviyyə Orucova və Mehrəngiz Qurbanova Cavid irsindən şeirlər səsləndiriblər.

Sonra müzakirələr aparılıb, suallar cavablandırılıb.

# BDU-nun Elmi Kitabxanası EİFL.net-in Baş assambleyasının toplantısında təmsil olunub

***BDU-nun Elmi Kitabxanası EİFL.net-in Baş Assambleyasının toplantısında təmsil olunub.***




Kitabxanalar üçün Elektron İnformasiya Beynəlxalq Konsorsiumunun (EİFL.net) Baş Assambleyasının hesabat xarakterli illik toplantısında bütün proqram koordinatorları və təşkilatın üzvləri iştirak ediblər.

İki gün davam edən onlayn tədbirin ilk günü EIFL.net beynəlxalq konsorsiumunun direktoru Rima Kuprite "Beynəlxalq nəşriyyatlar, əməkdaşlıq, innovativ xidmətlər və yeniliklər", EIFL-IP meneceri Teresa Haket "EİFL- Müəlliflik hüququ və kitabxanalar", EIFL.net-in lisenziyalaşdırma meneceri Lorayne Estele "Əməkdaşlıq və lisenziyalaşdırma", EIFL.net-in "Open Access" üzrə meneceri İrina Kuçma "Açıq giriş" mövzusunda çıxış edərək il ərzində üzv ölkələrdə elektron informasiyanın istifadəsini təmin etmək istiqamətində görülən işlər haqqında geniş məlumat veriblər.

Toplantının ikinci günündə 2022-ci ildə EİFL.net konsorsiumu tərəfindən dəstəklənən "Açıq elm" mövzusuna həsr olunmuş layihələrin təqdimatları nümayiş olunub və EİFL.net-in ölkələr üzrə konsorsium rəhbərlərinin illik hesabatları dinlənilib. Milli konsorsiumların nailiyyətləri üzrə mübadilə, əldə olunmuş təcrübəni bölüşmək, uğurları paylaşmaq və s. haqqında təqdimatlar verilib və konsorsiumların üzləşdiyi problemlərin həlli yolları müzakirə edilib.

Tədbirdə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun rəhbəri, BDU-nun Metodiki iş və əməkdaşlıq şöbəsinin müdiri Cəmilə Yusifova çıxış edərək EİFL.net-in proqram rəhbərləri və beynəlxalq nəşriyyatlar ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb, il ərzində görülən işlər barədə məlumat verib.

Onlayn tədbirdə BDU-nun Elmi Kitabxanası ilə yanaşı, Azərbaycan Kitabxana İnformasiya Konsorsiumuna üzv olan universitet və elmi-tədqiqat institutlarının nümayəndələri də iştirak ediblər.

# Astrofizika kafedrası: 3-5 oktyabr tarixlərində maqnit qasırğası davam edəcək

***Son üç gün ərzində Günəş aktivliyi yüksək səviyyədə olub. Günəş səthində aktiv oblastlarda radiosiqnalların orta təsirli - güclü kəsilmələrinə səbəb olan M və radiosiqnalların daha güclü kəsilmələrini yaradan böyük X1 alışmaları baş verib.***

BDU-nun Astrofizika kafedrasının məlumatına görə, oktyabrın 1-də baş verən üç tac kütlə atılmasının analizi göstərib ki, sonuncu tac kütlə atılması özündən əvvəlki iki tac kütlə atılmasını qabaqlayaraq Yerə daha tez - oktyabrın 4-də gecə saatlarında çatacaq. 3-5 oktyabr tarixləri üçün Günəş aktivliyi yüksək səviyyədə olacaq.

Oktyabrın 1-də baş vermiş tac kütlə atılmasının Yerə yaxınlaşması nəticəsində oktyabrın 3-də geomaqnit sahədə mülayim, oktyabrın 4-də isə orta-mülayim səviyyəli geomaqnit qasırğası yaranacaq. Oktyabrın 5-də geomaqnit sahə sakit və aktiv səviyyədə olacaq.

Oktyabrın 3-də Günəşdə alışmaların baş vermə ehtimalı C sinif alışmalar üçün 99%, M sinif alışmalar üçün 70% və X sinif alışmalar üçün isə 30%-dir.

# "Azərbaycan filmləri XXI əsrin yaddaşında" adlı intellektual yarış

***Oktyabrın 3-də Kitabxanaçılıq-informasiya, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrinin könüllülərinin birgə təşkilatçılığı ilə "Azərbaycan filmləri XXI əsrin yaddaşında" adlı intellektual yarış keçirilib.***

Yarışın keçirilməsində məqsəd milli-mənəvi dəyərləri özündə birləşdirən Azərbaycan filmləri haqqında tələbələri maarifləndirmək, onların dünyagörüşlərinin formalaşmasına yardım etməkdir.

Ümumilikdə 12 fakültənin tələbələrinin iştirak etdiyi yarışda I yeri Kimya, II yeri Beynəlxalq münasibətlər və iqtisadiyyat, III yeri isə Kitabxanaçılıq-informasiya və Filologiya fakültələrinin komandaları qazanıblar.

Sonda qalib komandalara sertifikat və mükafatlar təqdim olunub.

# Bakteriyaların antibiotiklərə davamlığına qarşı əksfikirli amillərlə bağlı araşdırmalar davam edir

***BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Mikrobiologiya və virusologiya elmi-tədqiqat laboratoriyasının müdiri professor Xudaverdi Qənbərovun həmmüəllifi olduğu "Bakteriyaların antibiotiklərə davamlığına qarşı əksfikirli amillər" adlı məqalə "Web of Science" bazasında indekslənən "Current Pharmaceutical Biotechnology" jurnalında dərc olunub.***

Bütün dünyada bakteriyaların antibiotiklərə davamlığının kəskin surətdə artması müşahidə olunur və bu, cəmiyyətin sağlamlığı üçün ciddi təhlükə yaradır. Antibiotiklərə davamlıq, ilk növbədə, yoluxucu xəstəliklərin və ölüm hallarının artması, eləcə də müalicədə çoxlu antibiotiklərin istifadəsi ilə bağlıdır. Əksfikirli texnologiya genlərin transkripsiyasına və ekspressiyasına mane olan oliqonüleotidlərə əsaslanır. Oliqonüleotidlər antibiotiklərə davamlı olan bakteriyalara qarşı mübarizədə istifadə oluna bilər. Belə oliqonükleotidlərə, ilk növbədə, peptidli nüklein turşuları, fosfordiamidatlı morfolinoliqomerləri və qapalı nüklein turşularını aid etmək olar. Məqalədə yuxarıda göstərilən oliqonükleotidlər bakteriyalara davamlılıq verən genlərin hədəfi kimi göstərilir. Belə ki, oliqonükleotidlər müvafiq geni parçalayaraq bakteriyaların inkişafının tormozlanmasına səbəb olur. Bu nəticələr yoluxucu xəstəliklərin müalicəsində yeni perspektivlər açır.

# SABAH qruplarının "Şuşa ili"nə həsr olunan təhsil üzrə bilik yarışının finalı BDU-da keçiriləcək

*Oktyabrın 2-də Elm və Təhsil Nazirliyinin SABAH qrupları layihəsi çərçivəsində "Şuşa ili"nə həsr olunan təhsil, İT və mühəndislik üzrə bilik yarışlarına start verilib.*



İki mərhələdən ibarət olan bilik yarışmasında Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) müəllimlik ixtisasında təhsil alan SABAH qrupları tələbələri iştirak ediblər. Təhsil üzrə bilik yarışmasının I mərhələsi oktyabrın 1-də Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Memarlıq və İnşaat universitetlərində keçirilib.

I mərhələdə Azərbaycan tarixi, Azərbaycan dilində işgüzar və akademik kommunikasiya, metodika və pedaqogikaya dair 50 qapalı sual istifadə olunub. 5 açıq tipli sual əsasında təşkil olunacaq II (final) mərhələ isə oktyabrın 8-də BDU-da keçiriləcək.

Qeyd edək ki, təhsil üzrə bilik yarışının təşkil edilməsində məqsəd istedadlı tələbələrin aşkar edilməsi, onların təhsil və elmə olan maraqlarının daha da stimullaşdırılması, sağlam rəqabət şəraitində öz bilik və bacarıqlarını nümayiş etdirməsi və müvafiq ixtisaslar üzrə müxtəlif ali təhsil müəssisələrinə SABAH qrupları tələbələrinin inteqrasiya edilməsidir.

# BDU-nun tələbələri "Hüquq viktorinası"nda qalib olublar

*Oktyabrın 3-də Baş Prokurorluq tərəfindən Hüquq fakültələrində təhsil alan tələbələr arasında "Hüquq viktorinası" adlı müsabiqə keçirilib.*

Müsabiqənin keçirilməsində məqsəd hüquqi biliklərin təbliği, gənc hüquqşünasların ilkin peşə vərdişlərinin formalaşdırılması, eləcə də prokurorluq orqanları ilə hüquq ictimaiyyəti, ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsidir. Müsabiqədə Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinin və SABAH qruplarının Hüquqşünaslıq ixtisası tələbələrinin birgə komandası da iştirak edib. Yarışmada komandalar tərəfindən Konstitusiya, Cinayət və Cinayət-prosessual hüquq fənləri üzrə, habelə dünyagörüşünü müəyyənləşdirən mövzulara aid suallar cavablandırılıb. Müsabiqənin növbəti mərhələsində isə komandaların kapitanları arasında yarışma keçirilib. Müsabiqənin ilk mərhələsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yığma komandası I yerə, BDU-nun komandası isə II yerə layiq görülüb.

Kapitanlar arasında aparılan yarışma mərhələsində isə SABAH qruplarının Hüquqşünaslıq ixtisasının IV kurs tələbəsi Nərmin Sadıqova qalib gəlib.

# Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində "Beynəlxalq Ayın Müşahidə Gecəsi" keçirilib

***Oktyabrın 6-da NASA-nın Azərbaycandakı rəsmi müşahidə nöqtələrindən biri olan BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzində (TETYM) "Beynəlxalq Ayın Müşahidə Gecəsi" ("International Observe the Moon Night") keçirilib.*** Tədbirə müxtəlif fakültələrdən 70-dən çox tələbə qatılıb. Əvvəlcə tələbələrə BDU-nun Fizika fakültəsinin Astrofizika kafedrasının müəllimləri tərəfindən Ay haqqında ətraflı məlumat verilib. Daha sonra tədbir iştirakçıları teleskop vasitəsilə Ayın səthini müşahidə ediblər. Tələbələr Ay ilə yanaşı, Yupiter və Saturn planetlərini də müşahidə etmək imkanı əldə ediblər.



Daha sonra "Kosmos həftəsi" tədbirləri çərçivəsində TETYM və Astrofizika kafedrasının birgə təşkil etdiyi Astronomiya elminə aid "Təxmin Et" yarışması keçirilib. Müxtəlif fakültələrdən olan 16 nəfər tələbənin qatıldığı yarışmada maksimal balı toplayan ilk 5 tələbəyə hədiyyələr verilib. Sonda bütün tədbir iştirakçısı olan tələbələrə NASA tərəfindən hazırlanmış sertifikatlar təqdim edilib. Sosial platformalarda onlayn yayımlanan tədbirin materialları, tədbirdə çəkilmiş Ayın yüksək ayırdetməli fotoları NASA rəsmilərinə təqdim edilib.

Qeyd edək ki, "Beynəlxalq Ayın Müşahidə Gecəsi" NASA tərəfindən 2009-cu ildən etibarən hər il təşkil olunur. Sentyabrın 26-da BDU-da təşkil olunmuş Yupiter və Saturnun müşahidəsi tədbirinin materiallarını NASA ilə paylaşmaqla Universitet NASA-nın Azərbaycandakı rəsmi müşahidə nöqtəsi olan ilk ali təhsil müəssisəsi olub. NASA-nın hazırda dünya üzrə 4125 müşahidə nöqtəsi mövcuddur.

# Təhsil Tələbə Krediti Fondunun nümayəndələri ilə görüş



***Oktyabrın 7-də Təhsil Tələbə Krediti Fondunun (TTKF) nümayəndələri Bakı Dövlət Universitetinin I kurs tələbələri ilə görüş keçiriblər.***

Görüşdə Fondun İdarə Heyətinin sədrinin müavini Tahir Xəlfov təqdimatla çıxış edib. O, tələbələrə Fondun fəaliyyəti və təhsil tələbə kreditinin verilməsi qaydaları barədə ətraflı məlumat verib. Bu layihənin sosial müdafiəsi zəif olan tələbələrə dəstək məqsədi daşıdığını vurğulayıb, tələbələri dövlətin yaratdığı bu imkandan yararlanmağa çağırıb.

Daha sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Təhsil Tələbə Krediti Fondunun əsas missiyası təhsilin hamı, xüsusilə də əhalinin aztəminatlı təbəqələrindən olan şəxslər üçün əlçatanlığının təmin edilməsi, təhsildə bərabər imkanların yaradılmasıdır.

# BDU NASA-nın Azərbaycanda rəsmi müşahidə nöqtəsi olan ilk ali təhsil müəssisəsi oldu

***Sentyabrın 26-da BDU-da təşkil olunmuş Yupiter və Saturn planetlərinin müşahidə gecəsi tədbirinin materiallarını NASA ilə paylaşmaqla BDU NASA-nın Azərbaycandakı rəsmi müşahidə nöqtəsi olan ilk ali təhsil müəssisəsi olub.*** Hazırda NASA-nın dünya üzrə 4125 müşahidə nöqtəsi mövcuddur, onlardan 5-i Azərbaycanda yerləşir. Müşahidə nöqtələri haqqında daha ətraflı məlumatı linkdə yerləşən xəritədən əldə etmək olar: https://moon.nasa.gov/observe-the-moon-night/




# Astrofizika kafedrası: Noyabrın 8-də 2022-ci ilin ikinci Ay tutulması baş verəcək

***Noyabrın 8-də 2022-ci ilin ikinci Ay tutulması hadisəsi baş verəcək. Bu, tam Ay tutulması olacaq.*** Fizika fakültəsinin Astrofizika kafedrasının məlumatına görə, bu, tam Ay tutulması olacaq.

Saat 12:02-də yarımkölgəli, 13:09-da qismən, saat 14:16-da isə tam tutulma başlayacaq.

Tutulmanın maksimumu saat 14:59-da olacaq. Saat 15:41-də tam tutulma, saat 17:56-da isə qismən tutulma başa çatacaq.

2022-ci ilin ikinci tam Ay tutulmasını Asiyadan, Avstraliyadan, Şimali Amerikadan, Şimali və Şərqi Avropanın bir hissəsindən və Cənubi Amerikanın çox hissəsindən müşahidə etmək mümkün olacaq.

Tutulma zamanı Ay üfüqdən aşağıda olduğuna görə tutulmanın əsas mərhələsi Bakıda görünməyəcək, yalnız son 25 dəqiqə (17:31-17:56) müddətində şərq tərəfdə üfüqdə yarımkölgəli tutulmanı izləmək mümkün olar. Yarımkölgəli Ay tutulmasını görmək çətin olur, çünki kölgəli hissə Ayın qalan hissəsindən azacıq zəifdir.

## Prezident təqaüdçüsü olan bacılar: "Doğma Qarabağda hüquqşünas kimi fəaliyyət göstərməyi arzulayırıq"

***Prezident İlham Əliyev 2022/2023-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən, 2022/2023-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdü verilir.

Modern.az bildirir ki, bu il Prezident təqaüdünə layiq görülən gənclərdən ikisi bacıdır. Həmidə və Nəzrin Sadıqova bacıları Bakı Dövlət Universitetinin Hüquq fakültəsində təhsil alırlar.

Ölkə başçısının sərəncamı ilə bağlı təəssüratlarını bölüşən Həmidə Sadıqova deyib:



"Prezident təqaüdünə layiq görüldüyüm üçün sevincliyəm. Məlumatı alanda ilk olaraq sevinc və qürur hissi yaşadım. Mən qəbul imtahanında 660.2 bal toplamışam. Hüquq fakültəsində təhsilimi davam etdirirəm. Bu, ən böyük arzum idi. Bakı Dövlət Universitetində oxumaq qürurvericidir. Gələcəyə ümidlə baxıram".

***Nəzrin Sadıqova da sevincli olduğunu söyləyib:***

"Mən 660.9 bal toplayaraq əvvəldən bəri oxumaq istədiyim Hüquq fakültəsinə qəbul olunmuşam. Bacımla birlikdə eyni universitetə qəbul olmağı arzulayırdım. Arzularımıza çatdıq. Biz həm bacı, həm də tələbə yoldaşıyıq. Digər yandan valideynlərimizin əziyyəti yerdə qalmadı. Əgər bir daha imtahan versəydim, yenə bu ixtisası seçərdim".

Əslən Ağdam rayonundan olan bacılar Bakıda yerləşən T.İsmayılov adına 6 saylı orta məktəb - liseyi qızıl medalla bitiriblər. Onlar gələcəkdə doğma Qarabağ bölgəsində hüquqşünas kimi fəaliyyət göstərməyi arzuladıqlarını söyləyiblər.

## BDU-nun 10 tələbəsi Prezident təqaüdünə layiq görülüb

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022/2023-cü tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.***

Sərəncama əsasən, 2022/2023-cü tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdü verilir.

Prezident təqaüdünə layiq görülən gənclərdən 10-u Bakı Dövlət Universitetinin tələbəsidir.

Onların siyahısını təqdim edirik:

1. *Abuşova Xədicə Vüqar qızı*
2. *Behputov Elnur Elxan oğlu*
3. *Əsgərov Murad Zöhrab oğlu*
4. *Həsənova Aytac Azər qızı*
5. *İbrahimova Turanə Həmzə qızı*
6. *Orucov Nəcməddin Nəsimi oğlu*
7. *Sadıqova Həmidə Cəmşid qızı*
8. *Sadıqova Nəzrin Cəmşid qızı*
9. *Süleymanova Şəhla Orxan qızı*
10. *Yusibov Şəhriyar Səfa oğlu.*

Qeyd edək ki, Prezident təqaüdünə layiq görülən BDU tələbələrindən 2-si bacıdır.

Yüksək etimada layiq görülən BDU tələbələrini təbrik edir, onlara uğurlar arzulayırıq!

## Prezident təqaüdünə layiq görülmüş BDU tələbələri ilə görüş

***Oktyabrın 6-da BDU-nun rektoru Elçin Babayev 2022-2023-cü tədris ilində Prezident təqaüdünə layiq görülmüş BDU tələbələri ilə görüşüb.***

Rektor tələbələri BDU tələbəsi adını qazanmaqları və qəbul imtahanlarında topladıqları yüksək nəticələrə görə Prezident təqaüdünə layiq görülmələri münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb: "Prezident təqaüdünə layiq görülən 102 nəfərdən biri olmaq böyük qürurdur. Sizin bu adı şərəflə daşıyacağınıza və yaxşı təhsil alacağınıza əminəm".

Rektor Elçin Babayev Universitetin məzunlarının ölkəmizi dünyada layiqincə təmsil etdiklərini, BDU-nun ən böyük məzununun Ümummilli liderimiz Heydər Əliyev olduğunu bildirib. O, tələbələrə tək tədrisdə deyil, BDU-nun sosial və ictimai həyatında da aktiv iştirak etməyi tövsiyə edib.



## Psixoloji yardım sektoru I kurs tələbələri üçün "Adaptasiya" mövzusunda təlimlərə başlayıb

***Oktyabrın 25-də BDU-nun Psixoloji yardım sektoru I kurs tələbələri üçün "Adaptasiya" mövzusunda təlimlərə başlayıb.***

Təlimin məqsədi Universitetin I kurs tələbələrinin ali təhsil mühitinə daha tez alışmasına yardım göstərməkdir.

İlk təlimdə tələbələrin bir-biri ilə, eyni zamanda təlimçinin tələbələrlə tanışlığı üçün praktik tapşırıq yerinə yetirilib. Tapşırığa əsasən, iki-iki qruplaşan tələbələr qarşı tərəflə empatiya qurmağa çalışıblar.



Təlimdə tələbələrə adaptasiya prosesinin mərhələləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, adaptasiyanın ikinci - dözümlülük mərhələsini keçdikdən sonra istənilən situasiyaya uyğunlaşmaq daha rahat olur. Tələbələr Universitetdə adaptasiyada çətinlik yaradan situasiyaları təlimçi ilə bölüşüblər və prosesin daha səmərəli keçməsi üçün məsləhət alıblar.

Tələbələr adaptasiya prosesində əsas faktorlardan biri - insanın sinir sistemi və buna əsasən temperament tipi haqqında da məlumatlandırılıb, Hans Ayzenk tərəfindən təyin edilmiş testdən keçiriliblər. Testin nəticəsinə uyğun olaraq tələbələr öz temperament tiplərinin onların adaptasiyasına təsirini müəyyənləşdiriblər.

BDU-nun I kurs tələbələri ilə "Adaptasiya" mövzusunda təlimlər davam edəcək.

## BDU-da bankomatlarda kart xidmətlərinin yaradılmasına dair elmi seminar keçirilib

***Oktyabrın 31-də BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının elmi seminarı keçirilib. Seminarda kafedranın elmlər doktoru proqramı üzrə doktorantı Ramin Səmədov "ATM-də kart xidmətlərinin göstərilməsi mexanizminin işlənib hazırlanması və yaradılması" mövzusunda məruzə ilə çıxış edib.***

Tədqiqat işində ATM-də kart xidmətlərinin layihələndirilməsi zamanı bankomatın fəaliyyətini təmin edən terminal və serverlər arasında əlaqə, həmçinin digər sistemlərlə mesaj mübadiləsini təmin etmək məsələləri araşdırılıb. ATM-də kart xidmətlərinin göstərilməsi mexanizminin işlənib hazırlanması və yaradılması təklif olunub.

Seminar mövzu ilə bağlı sualların cavablandırılması ilə yekunlaşıb.

**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 31.10 .2022

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08